Xalqın qəzeti!

# Xalq qəzeti

№ 160 (31129) 4 sentyabr 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan Ermənistanın işğalına özü son qoyub, ərazi bütövlüyünü və suverenliyini özü təmin edib

*Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidentini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietronu qəbul edib.**

Qonaq ATƏT məkanında mövcud münaqişələrdən birinin həll olunduğunu və regionda davamlı sülhün təmin edildiyini deyərək, bu xüsusda dövlətimizin başçısını Azərbaycanla Ermənistan arasında sülh gündəliyində qazanılmış nailiyyətlər münasibətilə təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı 30 ilə yaxın müddətdə münaqişənin həllinə məsul olan ATƏT-in Minsk qrupu tərəfindən danışıqlar prosesində hər hansı bir nəticənin əldə edilmədiyini və BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrin yerinə yetirilmədiyini təəssüflə vurğuladı.

Prezident İlham Əliyev dedi ki, Azərbaycan özü münaqişəyə hərbi-siyasi vasitələrlə son qoyub, ərazi bütövlüyünü və suverenliyini təmin edib.

Söhbət zamanı Avropanın bəzi parlament təsisatlarından fərqli olaraq, Azərbaycanın ATƏT Parlament Assambleyası ilə təmaslarından və siyasi dialoqdan məmnunluq ifadə edildi.

ATƏT Parlament Assambleyasının gündəliyində də bütün ATƏT məkanına balanslı münasibətin nümayiş etdirilməsinin önəmi vurğulandı.

Görüşdə mədəniyyətlərarası dialoqa toxunuldu, Azərbaycanın bu prosesdə rolu və töhfələri məmnunluqla qeyd edildi.

ATƏT Parlament Assambleyasının prezidenti Bakıda keçirilən "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının əhəmiyyətinə toxunaraq, minalar probleminin ATƏT Parlament Assambleyasının gündəliyində də müzakirə olunduğunu bildirdi.

# İlham Əliyevin tranzit diplomatiyası

Səhifə ⇨ 3

## Bakı konfransı dünyanı "mina savaşı"na çağırdı

*Azərbaycan mina məsələsində yeni beynəlxalq koordinasiya yaradır*



**Üç il əvvəlki konfransın gündəlikdəki əsas mövzunun mina probleminin humanitar fəlakət və beynəlxalq təhlükə kimi tanınmasına yönəldilirdisə, 2026-cı il reallıqları artıq minatəmizləməni şəhər bərpasına, Böyük Qayıdış konsepsiyasına və təhlükəsiz yaşayış məkanlarının yaradılması prosesinə tam inteqrasiya edib. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi və BMT-nin ölkəmizdəki nümayəndəliyinin müştərək təşkilatçılığı əsasında keçirilən konfrans 60 ölkədən 400-dən artıq nümayəndəni ətrafında toplayıb. İştirakçılar sırasında müxtəlif dövlətlərin yüksək vəzifəli rəsmiləri, BMT agentliklərinin təmsilçiləri, xarici diplomatik korpus nümayəndələri və qlobal ekspertlər yer alır. Genişmiqyaslı tərkib mövcud problemin beynəlxalq ictimaiyyət üçün mühüm əhəmiyyət daşıdığını göstərir.**

*(ardı 4-cü səhifədə)*

## Nikol Paşinyanın anti-Rusiya mesajları davam edir



Səhifə ⇨ 6

## Avtobuslarda sərnişindaşıma "brutto müqaviləsi" sisteminə keçir



Səhifə ⇨ 7

## Ümummilli lideri siyasi olimpə qaytaran yol



Səhifə ⇨ 5

## Naxçıvandan başlayan xilaskarlıq missiyası



Səhifə ⇨ 5

## Torpaq altında fəlakət yuvası



Səhifə ⇨ 4

## Siyasət, biznes və kilsə üçbucağı



Səhifə ⇨ 3

## Azərbaycan Almaniyanın enerji marağında



Səhifə ⇨ 7

## Alternativsiz gələcək – rəqəmsal dünyaya keçid



Səhifə ⇨ 8

## Brüsseldə səssiz hakimiyyət savaşı



Səhifə ⇨ 11

# San Marino Respublikasının Regent Kapitanları Zati-aliləri xanım Aliçe Minaya və cənab Vladimiro Selvaya

**Zati-aliləri!**

San Marino Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə uğurlar, San Marino xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 avqust 2026-cı il**

# Azərbaycan–ATƏT PA əməkdaşlıq müzakirəsi



**Sentyabrın 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyasının Prezidenti Pere Joan Pons Sanpietro ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında əməkdaşlıq gündəliyində duran məsələlər, ATƏT məkanında mövcud təhlükəsizlik çağırışları, regionda vəziyyət, habelə Azərbaycan–Ermənistan sülh gündəliyi müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın ATƏT Parlament Assambleyası ilə əməkdaşlığa əhəmiyyət verdiyini, parlamentlərarası dialoqun ATƏT məkanında qarşılıqlı anlaşmanın, etimadın və əməkdaşlığın təşviqində mühüm rol oynadığını qeyd edib. Bu çərçivədə Azərbaycan Milli Məclisinin ATƏT PA çərçivəsində fəaliyyəti, qarşılıqlı səfərlər və müxtəlif səviyyələrdə keçirilən görüşlərin əlaqələrin inkişafına verdiyi töhfə vurğulanıb.

Nazir Azərbaycanın regionda sülhün və sabitliyin təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər barədə məlumat verib. Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində əldə olunmuş irəliləyişlər və sülh gündəliyinin irəli aparılması ilə bağlı Azərbaycanın mövqeyi diqqətə çatdırılıb.

Digər məsələlərlə yanaşı, postmünaqişə dövründə bölgədə mövcud olan humanitar məsələlərə toxunan nazir Ceyhun Bayramov mina təhdidinin hələ də Azərbaycan üçün ciddi təhlükə olaraq qaldığını bildirib. Mina partlayışlarının insan həyatı üçün yaratdığı təhlükə ilə yanaşı, işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinə, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışına və regional inkişaf prosesinə mane olduğu qeyd edilib.

Nazir, həmçinin itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyinin müəyyənləşdirilməsinin mühüm humanitar məsələ olduğunu vurğulayıb.

Görüşdə Azərbaycanın regional və daha geniş beynəlxalq enerji təhlükəsizliyinə töhfəsi barədə də fikir mübadiləsi aparılıb. Azərbaycanın etibarlı enerji tərəfdaşı kimi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı rol, enerji mənbələrinin və marşrutlarının şaxələndirilməsi istiqamətində həyata keçirilən layihələr, habelə "yaşıl" enerji sahəsində təşəbbüslər barədə məlumat verilib.

Azərbaycanın nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkə kimi regional bağlantıların inkişafına verdiyi töhfə qeyd olunub. Orta Dəhlizin inkişafı, Xəzər üzərindən Avropa ilə Mərkəzi Asiyanı birləşdirən nəqliyyat və logistika imkanlarının genişləndirilməsi, eləcə də regional kommunikasiyaların açılmasının sülh, sabitlik və iqtisadi inkişaf baxımından əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı, həmçinin Azərbaycanın Orta Asiya ölkələri ilə strateji tərəfdaşlığının inkişaf edən dinamikasına da toxunulub. C5 formatının C6 formatına transformasiyasının əməkdaşlıq üçün yeni imkanlar yaratdığı qeyd edilib.

Görüşdə ATƏT məkanında mövcud çağırışlar və qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan–Litva diplomatik məsləhətləşməsi





**Sentyabrın 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Litvanın xarici işlər naziri Kestutis Budris arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı Azərbaycan–Litva ikitərəfli münasibətlərinin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Tərəflər siyasi dialoqun davam etdirilməsinin, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini qeyd ediblər.

Telefon danışığı zamanı, həmçinin çoxtərəfli platformalar çərçivəsində tərəfdaşlığın inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. Kestutis Budris Litvanın 2027-ci ilin ilk yarısında Avropa İttifaqı Şurasına sədrliyə hazırlığı barədə məlumat verib. Azərbaycan–Avropa İttifaqı münasibətləri kontekstində Litvanın qarşıdan gələn sədrliyi dövründə bir sıra istiqamətlər üzrə səylər barədə fikir mübadiləsi aparılıb.

Nazirlər, eyni zamanda, regional təhlükəsizlik məsələlərini, Cənubi Qafqazda mövcud vəziyyət və regionda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində görülən işləri, eləcə də qarşılıqlı maraq doğuran digər beynəlxalq məsələləri müzakirə ediblər.

***XQ***

# Milli Məclisin Sədri BMT-nin Cenevrə Bölməsində

**Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində sentyabrın 3-də BMT-nin Cenevrə bölməsinin Baş direktoru Tatyana Valovaya ilə görüşüb.**



Parlamentin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə görüşdə gələn il Azərbaycanın BMT-yə üzvlüyünün 35 ili tamam olduğu xatırlanıb və ötən illər ərzində ölkəmizin BMT-nin işinə verdiyi töhfələr, gördüyü işlər və keçirdiyi tədbirlər yüksək qiymətləndirilib.

Milli Məclisin Sədri çoxtərəfliliyin inkişaf etdirilməsində parlament diplomatiyasının rolu barədə fikirlərini bölüşüb. S.Qafarova yeni yaradılmış və artıq güclü əsaslara malik olan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin gördüyü işlər barədə qarşı tərəfə məlumat verib. Eyni zamanda, dünyanın ən böyük parlament təşkilatı olan Parlamentlərarası İttifaq (PAİ) barədə də danışılıb. Tərəflər BMT ilə PAİ arasında əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Görüşdə demokratik idarəetmənin gücləndirilməsində parlamentlərin mühüm rolu və tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***XQ***

# Parlamentlərarası əməkdaşlıq inklüziv inkişafa xidmət edir

**Parlamentlərin inklüzivliyi yalnız müxtəlif sosial qrupların və regionların təmsilçiliyi ilə məhdudlaşmır. Əsl inklüzivlik parlamentlərin qərar qəbuletmə prosesində bərabər iştirak imkanlarının təmin olunmasını nəzərdə tutur.**



Milli Məclisin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, bu fikri Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində Cenevrədə yerləşən diplomatik korpus rəhbərləri və nümayəndələri ilə görüşdə çıxışı zamanı səsləndirib.

Onun sözlərinə görə, bərabər təmsilçilik prioritetlərin müəyyənləşdirilməsi, qərarların formalaşdırılması və qəbul edilən qərarlara təsir imkanları ilə ölçülməlidir.

Parlamentin Sədri qeyd edib ki, inkişaf hüququ da inklüziv və ədalətli idarəçilik yanaşmasının mühüm tərkib hissəsidir. Hər bir ölkənin öz milli prioritetlərinə və milli reallıqlarına uyğun inkişaf yolunu müəyyənləşdirmək, iqtisadi və institusional potensialını gücləndirmək, habelə vətəndaşlarının rifahını təmin etmək üçün bərabər imkanlara malik olması vacibdir.

Vurğulanıb ki, parlamentlər qanunvericilik fəaliyyəti, büdcə üzərində parlament nəzarəti, habelə beynəlxalq parlamentlərarası əməkdaşlıq vasitəsilə inkişaf hüququnun təmin olunmasına və dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsinə mühüm töhfə verirlər. Bu baxımdan, parlamentlər arasında bərabərhüquqlu əməkdaşlığın gücləndirilməsi inklüziv inkişafın və daha ədalətli beynəlxalq münasibətlər sisteminin formalaşdırılmasına xidmət edir.

Sahibə Qafarova, həmçinin qeyd edib ki, beynəlxalq və regional parlament təşkilatları arasında əməkdaşlığın gücləndirilməsi təcrübə mübadiləsinə, ortaq problemlərə birgə həllərin tapılmasına və müxtəlif regionların prioritetlərinin qlobal gündəmdə daha dolğun əks olunmasına imkan yaradır.

Spiker çıxışında Milli Məclisin beynəlxalq fəaliyyəti, müxtəlif regional və beynəlxalq parlament təşkilatlarında iştirakından da danışaraq bu çərçivədə 2021-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyətindən də söz açıb. O qeyd edib ki, Azərbaycanın bu təşkilata sədrliyi dövründə onun fəaliyyəti əhəmiyyətli dərəcədə inkişaf edib, institusional strukturları formalaşdırılıb və regional, eləcə də beynəlxalq parlament təşkilatlar ilə əlaqələri genişləndirilib.

Bildirilib ki, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin keçirdiyi tədbirlər 70-dən çox ölkədən parlament rəhbərləri və deputatlar da daxil olmaqla, mindən artıq iştirakçını bir araya gətirib.

***XQ***

# ATƏT PA-nın prezidenti Milli Məclisdə





**Sentyabrın 3-də ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietro Milli Məclisdə olub.**

ATƏT Parlament Assambleyasının prezidenti ilə görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan ilə təşkilat arasındakı əməkdaşlıq, regionda sülhün və etimad mühitinin möhkəmləndirilməsi məsələlərinə toxunub. O, ATƏT PA-nın regionda fəaliyyəti barədə fikirlərini bölüşüb, Azərbaycanın regionda sülh və sabitliyin təşviqində nümunəvi ölkə olduğunu diqqətə çatdırıb.

ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietro Azərbaycanın regiondakı geostrateji roluna, Avropa ilə iqtisadi-logistik əlaqələrə və parlament diplomatiyasının perspektivlərinə toxunaraq ölkəmizin geniş regionda qlobal iqtisadi layihələrin, logistikanın mərkəzində durduğunu və Avropanın etibarlı qaz təchizatçısı kimi mühüm rola malik olduğunu xüsusi vurğulayıb.

Pere Joan Pons Sanpietro Azərbaycanın Ermənistanla münasibətlərdə və regionda sülhün bərqərar olunmasında nadir bir model yaratdığını vurğulayıb.

ATƏT Parlament Assambleyasının prezidenti, həmçinin Milli Məclisin ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvləri ilə də görüşüb.

Milli Məclisin deputatı və ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü Qaya Məmmədov Cənubi Qafqazda sülh prosesi, regional iqtisadi imkanlar və beynəlxalq dialoqun əhəmiyyəti barədə danışıb.

ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvləri, Azay Quliyev, Sevinc Fətəliyeva və Tural Gəncəliyev Cənubi Qafqazda yaranan yeni geosiyasi reallıqlar, ikitərəfli sülh danışıqları və regional nəqliyyat-logistika layihələrinə toxunublar, işğaldan azad edilmiş ərazilərdəki mina təhlükəsi və bunun insan həyatına vurduğu ağır fəsadlardan söz açıblar.

ATƏT Parlament Assambleyasının Prezidenti Pere Joan Pons Sanpietro regional sülh quruculuğu prosesini yüksək qiymətləndirərək təşkilatın yeni geosiyasi reallıqlara uyğunlaşmasının və regionda dayanıqlı sülhün dəstəklənməsinin vacibliyini qeyd edib.

***XQ***

# Pere Joan Pons  TÜRKPA-da

**Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Baş katibi Ramil Həsən Azərbaycanda rəsmi səfərdə olan ATƏT Parlament Assambleyasının (PA) Prezidenti Pere Joan Pons Sanpietronun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirib.**



TÜRKPA-dan verilən məlumata görə, görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib, o cümlədən 2010-cu ildən assambleyanın ATƏT PA ilə səmərəli və fəal əməkdaşlığı xüsusilə vurğulanıb. Həmçinin TÜRKPA-nın ATƏT PA-da müşahidəçi statusu əldə etməsi ilə bağlı atılan addımlar, ATƏT PA-nın iyul ayında Haaqada keçirilmiş illik sessiyasında bu məsələ ilə bağlı səsvermə prosesi və bundan sonrakı mərhələ ilə əlaqədar geniş fikir mübadiləsi aparılıb.

Görüşdə, həmçinin Qazaxıstanda keçirilən Parlament seçkiləri, TÜRKPA-nın son dövrdə həyata keçirdiyi irimiqyaslı və faydalı əlaqələr, dialoq, sülh, əmin-amanlıq, qarşılıqlı anlayış istiqamətində səmərəli əməkdaşlıq müzakirə edilib. Eyni zamanda, gələcək fəaliyyətlərində nümayəndə heyətlərinin daha fəal şəkildə iştirakının ümumi maraqlara xidmət etdiyi, həm ATƏT PA Prezidenti, həm də TÜRKPA Baş katibi tərəfindən vurğulanıb.

Öz növbəsində, ATƏT PA-nın Prezidenti Pere Joan Pons Sampietro əməkdaşlıqdan məmnuniyyət duyduqlarını və qarşılıqlı dialoqa xidmət edən demokratik dəyərlərin üstün tutulduğu parlament diplomatiyasının inkişafı ilə bağlı həyata keçirilən proseslərdə TÜRKPA-nın bundan sonrakı fəaliyyətinə də əllərindən gələn dəstəyi verəcəklərini bildirib. Baş katib, öz növbəsində qarşılıqlı fəaliyyət və layihələrdə birgə iştirakın çox vacib olduğunu vurğulayaraq bunun ümumi maraqlara xidmət edən əsas amillərdən biri olduğunu da qeyd edib.

***XQ***

# İlham Əliyevin tranzit diplomatiyası

**2025-ci il Cənubi Qafqazın geosiyasi xəritəsinə yeni anlayış gətirdi: TRIPP – “Tramp Beynəlxalq Sülh və Rifah Marşrutu”. Uzun illər “Zəngəzur dəhlizi” adı ilə müzakirə olunan layihə ABŞ-ın birbaşa təşəbbüsü ilə yenidən adlandırılmaqla regionun gündəminin ön cərgəsinə çıxdı. Layihə, əsası 1994-cü ildən bəri qurulan enerji-tranzit diplomatiyasının, 2020-ci il II Qarabağ müharibəsinin yaratdığı yeni statusun və Bakının regional inteqrasiya təşəbbüskarı roluna iddiasının məntiqi davamıdır. Eyni zamanda, TRIPP Avropa İttifaqı qarşısında ciddi sual qoyur: regional bağlantının yenidən formalaşdığı bir şəraitdə Aİ-nin strateji rolu necə qorunmalı, Azərbaycan-Ermənistan normallaşmasına dəstək necə balanslaşdırılmalıdır?**




Azərbaycanın xarici siyasət modeli siyasi təhlil ədəbiyyatında “kiçik dövlət – böyük strateji manevrlər” konsepti çərçivəsində təsvir edilir: kiçik dövlət manevr potensialını maksimumlaşdırır, regional tarazlığı qoruyur və beynəlxalq arenada funksional rolunu gücləndirir. Modelin üç təməl sütunu var: enerji və tranzit diplomatiyası, münaqişə təcrübəsi və çevik balanslaşdırma.

2003-cü ildən indiyədək bu strategiya üç mərhələdə inkişaf edib. 2003–2010-cu illər regional əməkdaşlıq, irimiqyaslı enerji infrastrukturunun – ilk növbədə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin – reallaşdırılması və təhlükəsizliyin möhkəmləndirilməsi ilə səciyyələnir. 2010–2016-cı illərdə ölkə daha çevik diplomatik mövqe tutaraq beynəlxalq forumlarda fəal iştirak edib, münaqişənin həllində suverenlik və ərazi bütövlüyü prinsiplərini mərkəzə qoyub. 2016–2023-cü illər isə köklü dönüş mərhələsidir: 2020-ci ilin İkinci Qarabağ müharibəsindən sonra Bakı yenidənqurma, regional əlaqələr və Türkiyə, Rusiya, Aİ və Çin arasında tarazlıq saxlayan praqmatik çoxvektorlu diplomatiyaya keçdi. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, Cənub Qaz Dəhlizi və Transxəzər Dəhlizi kimi layihələr ölkənin regional və qlobal nüfuzunu gücləndirib, diplomatik mövqeyini və iqtisadi inkişafını dəstəkləyib. Azərbaycanın əhəmiyyətli karbohidrogen ehtiyatları və Avropa ilə Asiya arasındakı strateji yerləşməsi onu Avropa İttifaqı ilə Rusiya arasında balans quran əsas enerji təchizatçılarından birinə çevirib. 2022-ci ilin iyulunda Aİ ilə imzalanmış Strateji Tərəfdaşlıq Memorandumu Azərbaycan qazının Avropaya təchizatının artırılmasını nəzərdə tuturdu və müharibədən sonrakı Avropa enerji böhranı şəraitində Bakının strateji dəyərini açıq şəkildə təsdiqlədi.

Nəqliyyat sahəsində Bakı Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu vasitəsilə Çindən Avropaya ən qısa dəmir yolu marşrutunun mərkəzi düyün nöqtəsi kimi iştirak edir. 2015-ci ilin dekabrında Prezidentin Çin səfərində “İpək Yolu İqtisadi Kəməri” üzrə anlaşma memorandumunun imzalanması bu istiqamətin təməlini qoyub. Rəsmi Bakının mövqeyinə görə, Azərbaycan inkişaf etmiş nəqliyyat-logistika infrastrukturuna malik etibarlı tranzit ölkə kimi Avrasiyada regional əməkdaşlığın inkişafında mühüm rol oynayır.

Müharibədən sonrakı mərhələ bu strategiyaya yeni ölçü əlavə etdi: post-münaqişə dövrünün yeni tranzit marşrutları Azərbaycanı regional inteqrasiyanın təşəbbüskarı və balanslaşdırıcı aktyor kimi mövqeləndirir. 2020-ci ilin 44 günlük müharibəsindəki qələbə ölkənin beynəlxalq imicini möhkəmləndirdi; Şuşa Bəyannaməsi ilə Türkiyə ilə rəsmiləşdirilmiş strateji müttəfiqlik, Türk Dövlətləri Təşkilatındakı fəal rol və Zəngəzur dəhlizinin türk dünyasının qlobal bazarlara çıxışının təminatı kimi dəyərləndirilməsi bu xəttin tərkib hissəsidir. Məhz bu kontekstdə Naxçıvan məsələsi xüsusi əhəmiyyət kəsb edir. Zəngəzur dəhlizi Azərbaycana Naxçıvana daha qısa və birbaşa yol təqdim etməklə ölkənin İrandan tranzit asılılığını azaldır və İstanbuldan Türküstanın ucqarlarına qədər fasiləsiz nəqliyyat əlaqəsi yaradır. Başqa sözlə, bu, Azərbaycanın ərazi bütövlüyü məntiqinin, türk dünyası inteqrasiyasının və tranzit dəyərinin kəsişmə nöqtəsində dayanan strateji tamamlanma aktıdır.

* * *

TRIPP-in tarixi kökləri müharibədən də əvvələ gedib çıxır. 2020-ci ilin fevralında – 44 günlük müharibədən aylar öncə – İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Bakı-Ərzurum-Naxçıvan qaz kəməri və dəmir yolu layihələrinə qarşılıqlı maraqlarını təsdiqləyən memorandum imzalayıblar. Yəni koridor ideyası müharibənin nəticəsi deyil; müharibə onu həyata keçirilə bilən etdi. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat 44 günlük müharibəni yekunlaşdırmaqla yanaşı, bölgədə qlobal və regional əməkdaşlıq üçün yeni imkanlar açdı. 2025-ci il bu ideyanın yeni mərhələyə keçdiyi il oldu. Mart ayında Qars-Naxçıvan dəmir yolu xəttinin tikintisinə başlanması barədə məlumatlar yayıldı. Avqust ayında isə ABŞ rəhbərliyinin təşəbbüsü ilə dəhliz TRIPP adını aldı. Layihənin məzmunu iki əsas istiqaməti əhatə edir: Araz çayı boyunca Ermənistan ərazisindən keçməklə Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında nəqliyyat əlaqələrinin qurulması və Naxçıvanla ölkənin digər regionları arasında yeni əlaqələrin yaradılması.

Bakı üçün TRIPP ərazi bütövlüyü məntiqinin nəqliyyat mərhələsidir. Naxçıvana birbaşa quru yolu ölkənin İran tranzitindən asılılığını azaldır, Azərbaycanın tranzit dəyərini artırır və onu regional inteqrasiyanın təşəbbüskarı kimi mövqeləndirir. Enerji ixracının Türkiyə istiqamətində diversifikasiyası, Zəngəzur vasitəsilə nəqliyyat şəbəkəsinin genişlənməsi və türk dünyası ilə inteqrasiya – bunların hamısı bir nöqtədə birləşir: Azərbaycanın coğrafi məhdudiyyətinin strateji üstünlüyə çevrilməsi. Uzun illər ərzində Bakı-Tbilisi-Ceyhan və Cənub Qaz Dəhlizi ilə sübut edilən bu model – infrastruktur vasitəsilə coğrafiyanı sərmayəyə çevirmək – TRIPP ilə növbəti, bəlkə də son mərhələsinə çatır.

Ankara üçün TRIPP ikiqat vacibdir. Birincisi, o, Türkiyənin çoxistiqamətli bağlılıq strategiyasının əsas daşıyıcılarından biridir – Ankara özünü Şərqlə Qərb arasında vasitəçilik edən “mərkəzi ölkə” kimi mövqeləndirir və bu statusu iki tranzit dəhlizi – TRIPP və İraq İnkişaf Yolu – vasitəsilə maddiləşdirməyə çalışır. İkincisi, Türkiyə Hindistan-Yaxın Şərq-Avropa İqtisadi Dəhlizi kimi rəqib layihələrin onu kənara qoymasından ciddi narahatdır; “Türkiyəsiz koridor ola bilməz” yanaşması məhz bu riskə cavabdır. Giriş-çıxış nöqtələrinin Azərbaycan və NATO üzvü Türkiyədə yerləşməsi də bu məntiqə uyğundur: marşrut Ankaranın tranzit şəbəkələrində “düyün nöqtəsi” statusunu təmin edir və onu Avrasiya logistikasının mərkəzi rolunda saxlayır.

TRIPP-in ən diqqətçəkən tərəfi onun Vaşinqton tərəfindən irəli sürülməsidir. Amerikanın marağı enerji iqtisadiyyatındadır: Beynəlxalq Enerji Agentliyinin 2025-ci il proqnozlarına əsasən, Avropanın 2030-cu ilə qədər qeyri-Rusiya qazına əlavə ehtiyacı ildə 20 mlrd kubmetr təşkil edəcək; Ermənistan-Türkiyə sərhədlərinin normallaşması isə Xəzər ehtiyatlarına çıxışı yaxşılaşdırmaqla transmilli enerji şirkətləri üçün idxal xərclərini 10–15 faiz azalda bilər. Başqa sözlə, TRIPP Vaşinqton üçün həm geosiyasi üstünlük, həm də iqtisadi səmərə mənbəyidir. TRIPP-in dəstəkçiləri sırasında Ermənistan hökumətinin yer alması ilk baxışda paradoksal görünə bilər, lakin məntiqlidir: layihə İrəvana regional izolyasiyadan çıxış, Türkiyə ilə əlaqələrin bərpası və iqtisadi inteqrasiya vəd edir. Avropa tədqiqatçıları da qeyd edir ki, TRIPP koridoru regional bağlantını yenidən formalaşdırdığı üçün Aİ Ermənistan-Azərbaycan normallaşmasını dəstəkləməklə yanaşı, öz strateji rolunu qorumalıdır.

TRIPP İlham Əliyevin xarici siyasət strategiyasının növbəti mərhələsidir. “Kiçik dövlət – böyük strateji manevrlər” modeli hər zaman Bakını enerji və tranzit resurslarını nüfuza çevirməyə sövq edib: Bakı-Tbilisi-Ceyhandan Cənub Qaz Dəh-



lizinə, Orta Dəhlizdən Zəngəzur/TRIPP-ə qədər uzanan xətt eyni strateji məntiqin halqalarıdır. Bu layihə ilə Azərbaycan Naxçıvana birbaşa çıxış əldə etməklə ərazi-strateji bütövlüyünü tamamlayır, İrandan tranzit asılılığını azaldır və post-münaqişə dövründə regional inteqrasiyanın təşəbbüskarı rolunu möhkəmləndirir.Lakin siyasi reallıq qeyri-müəyyənliklərlə doludur. TRIPP-in taleyi artıq təkcə Bakı və Ankaradan deyil, Vaşinqtonun öhdəliklərə sadiqliyindən, İrəvanın daxili tarazlığından, Moskvanın qırmızı xətlərindən və Brüsselin strateji seçimindən asılıdır. Bir məqam dəqiqdir: hansı adla olursa olsun – Zəngəzur dəhlizi, yoxsa TRIPP – bu koridor məsələsi onilliklər boyu Cənubi Qafqazın əsas geosiyasi mübahisə və yarış mövzusu olaraq qalacaq.

*__Şəbnəm ZEYNALOVA,__*
*__XQ-nin siyasi analitiki,__*
*__siyasi elmlər üzrə fəlsəfə doktoru,__*
*__dosent__*

---

# Siyasət, biznes və kilsə üçbucağı

## *İrəvanda məhkəmə birləşmiş caniləri ittiham edir*

**Ermənistanda cərəyan edən son proseslərə ayrı-ayrı məhkəmə işləri kimi deyil, ölkənin bugünkü siyasi mənzərəsini əks etdirən güzgü kimi baxmaq mümkündür. Bu mənzərədə hüquqi qiymətləndirmə ilə yanaşı, siyasi mövqelərin və ictimai reaksiyaların da özünəməxsus yeri var.**







Əlbəttə, söhbət sıradan cinayət işlərindən getmir. Son dövrdə tanınmış siyasi və ictimai fiqurların da adı müxtəlif məhkəmə işlərində hallanır. Bu sırada Ermənistanın ikinci prezidenti Robert Koçaryanın, Erməni Apostol Kilsəsinin başçısı və bütün ermənilərin ali patriarxı II Qareginin, habelə onunla birgə mühakimə olunan 6 yepiskopun, “Taşir” şirkətlər qrupunun rəhbəri, oliqarx-milyarder Samvel Karapetyanın, 2024-cü ildə Nikol Paşinyan hökumətinə qarşı etirazların əsas simalarından biri olmuş arxiyepiskop Baqrat Qalstanyanın məhkəmə prosesləri xüsusilə diqqət çəkir.

### Ohanyan da məhkəmə qapılarında

İndi onların sırasına daha birinin qatılacağı gözlənilir. Bu, 2008-2016-cı illərdə ölkənin müdafiə naziri olmuş Seyran Ohanyandır. Ermənistan İstintaq Komitəsinin məlumatına görə, keçmiş müdafiə naziri barəsində vəzifə səlahiyyətlərindən sui-istifadə ilə bağlı cinayət işi üzrə ilkin istintaq başa çatıb. İstintaqın versiyasına görə, Ohanyan hərbçilər arasında mənzil bölgüsü üçün müəyyən edilmiş qaydaya müdaxilə edib və Müdafiə Nazirliyinin Mərkəzi Mənzil Komissiyasının üzvlərinin köməyi ilə qurum əməkdaşlarından birinin mənzillə növbədənkənar təmin olunmasına şərait yaradıb. İş materiallarına əsasən, 2008-ci il iyulun 12-də Müdafiə Nazirliyinin inzibati aparatının daxili təhlükəsizlik şöbəsinin rəisi M.İ. mənzil məsələsi ilə bağlı 2 raport hazırlayıb. Onlardan biri inzibati aparatın rəhbərinə, digəri isə Seyran Ohanyana ünvanlanıb. Ohanyana göndərilən müraciətdə İrəvanda mənzil məsələsinin operativ həllinə ehtiyac olduğu vurğulanıb. İstintaqın məlumatına görə, Ohanyan həmin prosedurların tənzimlənməsində iştirak etmək üçün hüquqi əsaslara malik olmasa da, elə həmin gün komissiyaya mənzillə bağlı məsələnin operativ həll edilməsi barədə göstəriş verib. Nəticədə avqustun 11-də keçirilən komissiya iclasından sonra M.İ.-yə İrəvanda üçotaqlı mənzil verilib.

İstintaq Komitəsi hesab edir ki, qərar qəbul edilərkən nazirlə əməkdaş arasındakı şəxsi əlaqələr də nəzərə alınıb. Bununla da mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan və müvafiq növbədə 1 neçə il gözləyən digər şəxslərin hüquqlarının pozulduğu bildirilir. Məhkəmə qərarı əsasında Ohanyan barəsində vəzifəli şəxsin hakimiyyət və ya xidməti səlahiyyətlərindən sui-istifadə etməsi maddəsi ilə cinayət işi başlanıb.

### Karapetyanın işi uzanır

Bu arada Ermənistanın tanınmış biznesmenlərindən olan “Güclü Ermənistan” partiyasının lideri Samvel Karapetyanın işi üzrə növbəti məhkəmə iclasının təxirə salınması da gündəmdədir. Vəkillər qrupunun məlumatına görə, iclasın təxirə salınması barədə vəsatətlə prokuror çıxış edib. Növbəti məhkəmə iclası sentyabrın 11-nə təyin olunub. Onu da deyək ki, Antikorrupsiya Məhkəməsi iyulun 9-da Karapetyanın ev dustaqlığının müddətini daha 2 ay uzatmışdı. Növbəti iclasda da məhz onun ev dustaqlığının davam etdirilib-etdirilməməsi məsələsinə baxılmalı idi.

Karapetyana qarşı cinayət işi 2025-ci il iyunun 19-da başlanıb. Oliqarx hakimiyyəti ələ keçirməyə və ölkənin konstitusiya quruluşunu devirməyə açıq çağırışlarda ittiham olunaraq 2 aylıq həbs edilmişdi. Sonradan işə daha bir ittiham – çirkli pulların yuyulması əlavə olunub. 2026-cı ilin yanvarında isə məhkəmə onun barəsində həbs qətimkan tədbirini ev dustaqlığı ilə əvəz edib.

### Sarukyanın biznes imperiyası

Ermənistanda məhkəmə gündəminin digər tanınmış siması isə “Çiçəklənən Ermənistan” partiyasının lideri, oliqarx Qaqik Sarukyandır. Onun işi təkcə şəxsin özünə qarşı irəli sürülən ittihamlarla məhdudlaşmır. Proses onun biznes aktivlərinin və bu şirkətlərdə çalışan insanların gələcək taleyini də gündəmə gətirib.

Sentyabrın 3-də keçirilən məhkəmə iclası öncəsi Sarukyanın sözçüsü İveta Tonoyan bildirib ki, müvəkkilinə məxsus müəssisələrin fəaliyyəti hələ bərpa olunmayıb. Onun sözlərinə görə, hazırda yalnız dövlətin idarəçiliyinə keçən “Ararat” konyak-şərab-araq kombinatı və “Ararat-sement” fəaliyyət göstərir. “Şanqri-La” kazinosu, “Firon” restoranı, Saxkadzordakı restoranlar, “Multi Stone” və “Olimpavan” kimi müəssisələrin fəaliyyəti isə bərpa edilməyib.

Tonoyanın sözlərinə görə, xüsusilə “Ararat” kombinatında ixtisarların aparılması barədə məlumatlar daxil olur. Söhbət bir neçə onlarla təhlükəsizlik əməkdaşının işdən çıxarılmasından gedir.

### Koçaryan işi açıq müstəvidə

Ölkənin ikinci prezidenti Robert Koçaryanın işi isə digər proseslərdən fərqli olaraq daha açıq siyasi müzakirələrlə müşayiət olunur. Keçmiş prezidentin oğlu, parlamentin “Hayastan” fraksiyasının deputatı Levon Koçaryan atasına qarşı cinayət təqibinin siyasi və geosiyasi xarakter daşıdığını iddia edir.

Onun sözlərinə görə, prosesin əsas məqsədlərindən biri hakimiyyətə potensial siyasi müqavimət göstərə biləcək qüvvələri zəiflətməkdir. Levon hesab edir ki, atasının həbsi Ermənistan hakimiyyətinin Azərbaycan və Türkiyə ilə bağlı gələcək addımları fonunda siyasi meydanı “təmizləmək” cəhdi ola bilər.

Təbii ki, bunlar müdafiə tərəfinin siyasi qiymətləndirmələridir və məhkəmənin hüquqi mövqeyini əvəz etmir. Sadəcə, proses ətrafında yaranan müzakirələrin miqyasını göstərməsi baxımından diqqət çəkir.

### II Qareginin işi hakim önündə?

Bütün bu proseslər arasında xüsusi çəkisi olan başqa bir iş isə Erməni Apostol Kilsəsinin başçısı II Qaregin və 6 yepiskopla bağlıdır. Burada məhkəmə prosesi yalnız hüquqi müstəvidə deyil, kilsə ilə hakimiyyət arasındakı münasibətlər baxımından da diqqət çəkir.

İş üzrə ilk iclas avqustun 7-də Eçmiədzində keçirilib. II Qaregin məhkəmədə şəxsən iştirak edib. Lakin işə mahiyyəti üzrə baxılması mümkün olmayıb. Hakim Akop Manukyan özünə etiraz verib. Daha sonra iş hakim Serj Ruşanyana həvalə olunub. Avqustun 28-də Ruşanyan materialların İrəvanın ümumi yurisdiksiya məhkəməsinə göndərilməsi barədə qərar qəbul edib.

Nəticədə işi hakim Vaaqn Melikyanın araşdıracağı açıqlanıb. Bu arada Melikyanın adı əvvəllər də müxtəlif qalmaqallı məlumatlarda hallanıb. 2020-ci ildə Ermənistan mediasında hakimin Milli Təhlükəsizlik Xidmətinə çağırıldığı və keçmiş prezident Serj Sarkisyanın kürəkəni Mikael Minasyanın həbsi ilə bağlı ona təzyiq göstərilməyə çalışıldığı barədə məlumatlar yayılmışdı. Lakin həmin məlumatlar hakimə qarşı hər hansı hüquqi nəticə ilə yekunlaşmayıb.

* * *

Beləliklə, Ermənistanın məhkəmə gündəmində bir-birindən fərqli görünən, lakin ölkənin siyasi mənzərəsini müxtəlif tərəflərdən göstərən proseslər toplanır. Keçmiş müdafiə nazirinin illər əvvəl verdiyi qərar, iri biznesmenlərin fəaliyyəti, keçmiş prezidentin məhkəmə işi və kilsə rəhbərliyinə qarşı proses eyni hüquqi çərçivəyə sığmır. Lakin onların hamısı bir məqamda kəsişir: Ermənistan cəmiyyətində hüquq, siyasət, hakimiyyət və keçmişlə bağlı sualların cavabları getdikcə daha çox məhkəmə zallarında axtarılır. Məhz buna görə bu prosesləri yalnız ayrı-ayrı şəxslərin əməllərinin nəticəsi kimi qiymətləndirmək kifayət deyil.

Məhkəmə zalları həm də Ermənistanın bugünkü siyasi mənzərəsinin bir növ güzgüsünə çevrilib. Bu güzgüdə isə həm hüquqi iddialar, həm siyasi mövqelər, həm də cəmiyyətin müxtəlif təbəqələrinin hadisələrə münasibəti görünür.

*__Səxavət HƏMİD__*
*__XQ__*

# Torpaq altında fəlakət yuvası

## *Qarabağın bərpasının görünməyən cəbhəsi*

**Müharibənin ən ağır izləri həmişə dağıdılmış binalar, yararsız yollar və boş qalmış şəhərlər olmur. Bəzən ən təhlükəli miras gözlə görünmür. Torpağın altında gizlənən mina illərlə səssiz qala bilər, lakin bir insanın həyatını dəyişmək üçün saniyələr kifayətdir. Mina buna görə yalnız partlayıcı qurğu deyil, həm də torpağın iqtisadi və sosial həyatını iflic edən görünməz səddir. Bu səbəbdən Qarabağ və Şərqi Zəngəzurun bərpasından danışarkən ilk növbədə tikintidən deyil, torpağın təhlükəsizliyindən danışmaq lazımdır.**

Bakıda keçirilən IV Beynəlxalq Minatəmizləmə Konfransında səslənən fikirlər də diqqəti məhz bu məsələyə yönəltdi. Konfransın ikinci günündə mina təhlükəsi ilə üzləşmiş şəhərlərin bərpasına siyasətlərin inteqrasiyası, daha təhlükəsiz və səmərəli humanitar minatəmizləmə üçün texnologiya və innovasiyalar, eləcə də milli təcrübə və əldə olunan nəticələrə həsr olunmuş panel sessiyalar və təqdimatlar keçirildi.

Konfransda səslənən əsas mesaj ondan ibarət idi ki, müharibənin fiziki nəticələri insanların həyatını təhdid etməyə, iqtisadi fəaliyyətə mane olmağa və keçmiş məcburi köçkünlərin qayıdışını ləngitməyə davam etdiyi müddətdə sülhün nəticələrini tam hiss etmək mümkün deyil.



**Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi**



**Elçin Əmirbəyov** konfransda çıxışı zamanı bildirib ki, Azərbaycan üçün atəş səsləri kəsilsə də, minalar hələ də susmayıb. Onun sözlərinə görə, bu səbəbdən humanitar minatəmizləmə artıq yalnız humanitar vəzifə deyil, həm də sülh quruculuğunun ayrılmaz hissəsidir. Təhlükəsizliyi təmin olunmayan torpaq üzərində davamlı sülh qurmaq mümkün deyil. Əmirbəyov qeyd edib ki, 2025-ci il avqustun 8-də Azərbaycan və Ermənistan arasında Vaşinqtonda əldə olunan razılaşmalar region üçün yeni imkanlar yaradıb. Sülh sazişinin razılaşdırılmış mətninin paraflanması və Vaşinqton Birgə Bəyannaməsinin imzalanmasından sonra hərbi eskalasiya baş verməyib, ölkələr arasında dialoq, iqtisadi və nəqliyyat əlaqələrinin inkişafı istiqamətində proseslər davam edib. Lakin onun vurğuladığı kimi, sülh yalnız siyasi sənədlərlə məhdudlaşmamalı, yer üzündə, insanların gündəlik həyatında da özünü göstərməlidir. Azərbaycanda bunun qarşısındakı əsas maneələrdən biri isə torpağın altındakı mina təhlükəsidir.

Elçin Əmirbəyovun sözlərinə görə, 2020-ci il müharibəsindən sonra Azərbaycanda 437 nəfər mina partlayışlarının qurbanı olub. Ölkə ərazisinin 13 faizindən çoxunun mina və partlamamış hərbi sursatlarla çirkləndiyi, çirklənmiş ərazilərin 75 faizində təhlükənin hələ də qaldığı bildirilir. Hər yeni mina hadisəsi yalnız insan itkisi və ya xəsarətlə nəticələnmir. Bu hadisələr ailələrə psixoloji zərbə vurur, cəmiyyətdə təhlükəsizlik hissini sarsıdır və normal həyata qayıdış prosesinə mənfi təsir göstərir.

Mina təhlükəsi aradan qaldırılmadan yaşayış məntəqələrinin qurulması, yolların salınması, əkin sahələrinin istifadəyə verilməsi və insanların təhlükəsiz qayıdışının təmin olunması mümkün deyil. Bu baxımdan minatəmizləmə bərpa prosesinin ayrıca bir istiqaməti deyil, onun əsasını təşkil edən mərhələlərdən biridir. Çünki sülhün real nəticəsi yalnız siyasi razılaşmalarla deyil, insanların öz evlərinə qayıtması, uşaqların məktəbə təhlükəsiz getməsi, fermerlərin torpaqlarını becərməsi, sahibkarların fəaliyyət göstərməsi və icmaların yenidən canlanması ilə ölçülür.

E.Əmirbəyov beynəlxalq tərəfdaşlara minnətdarlığını bildirərək, mina təhlükəsi ilə mübarizəyə dəstəyin artırılmasının vacibliyini də vurğulayıb. Onun sözlərinə görə, bu sahədə maliyyələşmənin təxminən 95 faizi Azərbaycanın dövlət resursları, yalnız 5 faizi isə xarici mənbələr hesabına təmin olunur. Bu göstərici mina probleminin miqyasını və uzunmüddətli beynəlxalq dəstəyə olan ehtiyacı bir daha ortaya qoyur.

**Beynəlxalq Sülhə Dəstək Təlim Mərkəzinin direktoru Çarlz Lenjo Mvaziqenin** sözlərinə görə, məqsəd yalnız minaları təmizləmək deyil, əraziləri təhlükəsiz və dayanıqlı yaşayış məkanlarına çevirməkdir. Bunun üçün mina təhlükəsi şəhərsalma, infrastruktur, səhiyyə, ekologiya və iqtisadi inkişaf planlarında nəzərə alınmalı, dövlət qurumları arasında koordinasiya gücləndirilməlidir. Mvaziqe qeyd edib ki, ərazi minalardan təmizlənsə belə, dağıntılar, zədələnmiş kommunal xətlər və ekoloji risklər təhlükə yarada bilər. Buna görə bərpa




prosesi minatəmizləmə ilə məhdudlaşmamalıdır. Onun sözlərinə görə, pilotsuz uçuş aparatları, coğrafi informasiya sistemləri, məsafədən zondlama, sensorlar və digər müasir texnologiyalar prosesi sürətləndirə və təhlükəsizliyi artıra bilər. Lakin onların səmərəli tətbiqi hazırlıqlı kadrlar, düzgün prosedurlar, keyfiyyətə nəzarət və güclü institusional imkanlar tələb edir.

**Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziç** də Azərbaycanın mina təhlükəsinin aradan qaldırılması istiqamətində həyata keçirdiyi genişmiqyaslı işləri, xüsusilə ANAMA-nın fəaliyyətini yüksək qiymətləndirib. Onun sözlərinə görə, təhlükəsiz yaşayış məntəqəsi yalnız minalardan təmizlənmiş ərazi demək deyil. Əsas məqsəd insanların qorxmadan evlərinə qayıda, uşaqların məktəbə gedə, ictimai xidmətlərdən yararlana və icmaların gələcəyə inamla həyatlarını yenidən qura bildiyi məkan yaratmaqdır.

Kuyundziç Azərbaycanın təcrübəsində minatəmizləmənin qayıdış, yenidənqurma və uzunmüddətli regional inkişafla əlaqələndirilməsinin vacibliyini vurğulayıb. O, Aİ-nin "Team Europe" təşəbbüsü çərçivəsində Azərbaycana kollektiv dəstəyinin 22 milyon avroya çatdığını bildirib və bu sahədə uzunmüddətli tərəfdaşlığın davam etdiriləcəyini qeyd edib.

**ATƏT Katibliyi rəhbərinin müavini Keyt Fironun** sözlərinə görə, mina əleyhinə fəaliyyət artıq yalnız texniki və ya humanitar məsələ kimi qiymətləndirilə bilməz. Bu fəaliyyət təhlükəsizliyin təmin olunması, işğaldan azad edilmiş ərazilərin bərpası və dayanıqlı sülhün qurulması prosesinin ayrılmaz hissəsidir. Onun fikrincə, minatəmizləmə işləri bərpa və inkişaf planlarına sonradan əlavə olunan komponent deyil, məhz ilkin mərhələdən bu planların əsas istiqamətlərindən biri olmalıdır. Beynəlxalq dəstək isə milli imkanları əvəz etməməli, əksinə, onları daha da gücləndirməlidir.

"Minaya qarşı fəaliyyət ən böyük strateji əhəmiyyətini o zaman ortaya qoyur ki, ərazilərin istifadəyə qaytarılması təhlükəsizlik, bərpa və dayanıqlı sülh arasında körpüyə çevrilir. Bu yanaşma ATƏT-in təhlükəsizliyə hərtərəfli yanaşmasını əks etdirir və partlayıcı təhlükələrin aradan qaldırılmasını yalnız fiziki təhlükəsizliklə deyil, həm də iqtisadi bərpa, sosial sabitlik və uzunmüddətli dayanıqlı sülhlə əlaqələndirir", – deyə o bildirib.

Panel sessiyasında diqqətçəkən əsas məsələlərdən biri də mina əleyhinə fəaliyyətin gələcəyində müasir texnologiyaların roludur. Çünki minatəmizləmə yalnız torpağın üzərində görünən təhlükənin aradan qaldırılması deyil. Bu, hər qarış torpağın təhlükəsizliyinə əmin olmaq, riskləri dəqiq müəyyənləşdirmək və insanların həyatını qorumaq deməkdir. Məhz bu baxımdan innovativ texnologiyalar əməliyyatların daha təhlükəsiz, sürətli və effektiv həyata keçirilməsinə yeni imkanlar açır.

Lakin innovasiya yalnız yeni texniki vasitələrin istifadəsi ilə məhdudlaşmır. Əsl innovasiya düşüncə və yanaşmanın dəyişməsidir. Texnologiyaların əməliyyatların planlaşdırılması, məlumatların toplanması və təhlili, ərazilərin qiymətləndirilməsi, risklərin müəyyənləşdirilməsi və keyfiyyət təminatı proseslərinə inteqrasiyası mina əleyhinə fəaliyyətin səmərəliliyini əhəmiyyətli dərəcədə artıra bilər.

Bu imkanlardan tam yararlanmaq üçün isə texnologiyanın özü qədər insan kapitalı da vacibdir. İxtisaslı mütəxəssislərin hazırlanması, institusional imkanların gücləndirilməsi, texniki biliklərin artırılması və yerli potensialın inkişaf etdirilməsi uzunmüddətli nəticələrin əsasını təşkil edir. Çünki dayanıqlı minatəmizləmə yalnız xaricdən gətirilən texnologiya ilə deyil, həmin texnologiyanı mənimsəyən və inkişaf etdirən milli potensialla mümkündür.

Paneldə innovativ həllərin tətbiqinin davamlı maliyyə resursları tələb etdiyi də vurğulanıb. Yeni texnologiyaların hazırlanması, sınaqdan keçirilməsi və əməliyyatlara inteqrasiyası uzunmüddətli investisiya tələb edir. Bu baxımdan beynəlxalq donorların və investorların dəstəyi mühüm rol oynayır. Söhbət yalnız bu günün minalarından deyil, sabahın təhlükələrini daha sürətli və daha təhlükəsiz şəkildə aradan qaldıra biləcək imkanların yaradılmasından gedir. Əslində, minatəmizləmənin əhəmiyyəti təmizlənən ərazinin ölçüsü ilə deyil, həmin torpaqda yenidən qurulan həyatla ölçülür. Təmizlənmiş hər hektar yeni bir yol, yeni bir ev, yeni bir məktəb, yeni bir təsərrüfat və ən əsası, doğma yurda qayıdan bir insan deməkdir.

Bu mənada minatəmizləmə Böyük Qayıdışın görünməyən, lakin ən mühüm dayaqlarından biridir. İnsanların illər sonra doğma torpaqlarına qayıtması, evlərini yenidən qurması, təsərrüfat yaratması və gələcək planlarını həmin torpaqda qurması ilk növbədə təhlükəsizlikdən başlayır. Təhlükəsiz torpaq olmadan nə qayıdış mümkündür, nə iqtisadi dirçəliş, nə də davamlı sülh.

Ona görə də məqsəd sadəcə minalardan təmizlənmiş ərazi yaratmaq olmamalıdır. Əsas məqsəd müharibənin izlərini daşıyan torpağı yenidən həyat məkanına çevirməkdir – insanların yaşayacağı, işləyəcəyi, övladlarını böyüdəcəyi və gələcəyini quracağı təhlükəsiz məkana. Çünki müharibə torpaqda iz buraxır. Sülh isə həmin torpağı yenidən insana qaytarmalıdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Bakı konfransı dünyanı "mina savaşı"na çağırdı

*(əvvəli 1-ci səhifədə)*

Konfrans çərçivəsində açıqlanan statistik məlumatların təhlili dövlətin icra etdiyi strategiyanın effektivliyini anlamağa imkan yaradır. Yalnız 2025-ci il ərzində ölkə ərazisində 69 min 206 hektar sahə mina və partlamamış hərbi sursatlardan tam təmizlənib. Göstərilən nəticə indiyə qədər qeydə alınan ən yüksək illik göstərici sayılır. Ümumilikdə isə günümüzə qədər 298 min hektardan çox ərazi təhlükəli tullantılardan azad edilib, eyni zamanda 260 min 147 mina və partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı rəsmi müraciət prosesin konseptual əsaslarını formalaşdırır. Dövlət başçısının irəli sürdüyü tezislər problemin sadəcə texniki təmizləmə proseduru olmaqla məhdudlaşmadığını, əksinə, böyük fəlsəfi mahiyyət daşıdığını aydın göstərir. Müraciətdə vurğulanır ki, humanitar minatəmizləmə təhlükəsiz yaşayış məskənlərinin yaradılmasının mütləq təməlidir. Münaqişədən sonrakı dövrdə şəhərlərin bərpası binaların, yolların və sosial infrastrukturun yenidən qurulması ilə yanaşı, cəmiyyətdə təhlükəsizlik inamının yenidən bərqərar olunmasını tələb edir.

Respublikamız məlum çağırışın ən ağır təzahürü ilə üzləşib. 2020-ci ildə Vətən müharibəsinin başa çatmasından bu günə qədər mülki şəxslər, hərbçilər, minaaxtaranlar, media nümayəndələri və bərpa işlərində çalışan mütəxəssislər daxil olmaqla 437 vətəndaş mina terrorunun qurbanına çevrilib, nəticədə 73 nəfər həyatını itirib, 364 nəfər ağır bədən xəsarətləri alıb. Ermənistanın kütləvi minalama siyasəti başlayandan etibarən zərər çəkən insanların ümumi sayı 3500 nəfərdən çoxdur. Həlak olanlar arasında qadınların və uşaqların olması problemin humanitar miqyasını daha da kəskinləşdirir. İşğal dövründə Ermənistanın həyata keçirdiyi terror taktikası xüsusi qəddarlıqla müşayiət olunub.

İlkin hesablamalar təsdiq edir ki, respublika ərazisinin 13 faizindən çox hissəsi minaların, eləcə də müharibənin digər partlayıcı qalıqlarının təsirinə məruz qalıb. Ermənistanın təqdim etdiyi xəritələrin qeyri-dəqiq və natamam olması bərpa və xilasetmə missiyasının icrasını daha da çətinləşdirir. Aşkarlanan minalar yalnız keçmiş hərbi mövqelərlə məhdudlaşmır, həm də yolların kənarında, yaşayış massivlərinin yaxınlığında, qəbiristanlıqlarda, kənd təsərrüfatı sahələrində, meşə zolaqlarında və çay sahillərində quraşdırılıb.

* * *

Minatəmizləmə əməliyyatları milli inkişaf prioritetləri ilə sinxronlaşdırılmış şəkildə həyata keçirilir. Hökumətin planlarına əsasən, azad edilmiş torpaqlarda aparılan təmizləmə prosesi vahid master-plan əsasında tənzimlənir. Yolların salınması, çoxkilometrlik tunellərin qazılması, beynəlxalq hava limanlarının inşası, elektrik xətlərinin çəkilməsi layihələrinin hamısı mütləq şəkildə ilkin ekoloji və geoloji yoxlamalardan keçir. Mütəşəkkil yanaşma nəticəsində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində təsbit edilmiş hədəflərə çatmaq asanlaşır. Ekoloji bərpa, sosial reinteqrasiya və iqtisadi artım tam olaraq partlayıcılardan azad edilmiş coğrafiyada baş tutur.

Rəsmi statistika əldə olunan nailiyyətlərin miqyasını açıq nümayiş etdirir. İnsanların təhlükəsizlik təminatı isə bilavasitə minatəmizləmə qurumlarının fəaliyyətindən asılıdır. Tikilən hər yeni məktəb binası, istifadəyə verilən hər sənaye parkı qarış-qarış yoxlanılmış torpaqlar üzərində inşa edilir. İqtisadi fəaliyyətin, xüsusən kənd təsərrüfatı sektorunun, aqroparkların və alternativ enerji şəbəkələrinin dirçəldilməsi regionun ümumi inkişaf mexanizminə çevrilməsinə zəmin yaradır.

Maliyyələşmə məsələsi isə xüsusi və məqsədyönlü yanaşma tələb edir. Postmünaqişə dövründə xeyli dövlətlər beynəlxalq donor təşkilatlarından asılı vəziyyətə düşür. Azərbaycan isə fərqli iqtisadi model tətbiq edərək bərpa və təmizləmə prosesinin mütləq əksəriyyətini milli dövlət büdcəsi hesabına icra edir. Lakin çirklənmənin böyük miqyası, yenidənqurma prosesinin təcili xarakter daşıması və təhlükəsiz qayıdışın yüksək humanitar dəyəri beynəlxalq ictimaiyyətdən daha qətiyyətli, eyni zamanda praktiki dəstək tələb edir.



Göstərilən ehtiyacların qarşılanmasında uzunmüddətli qlobal tərəfdaşlıq əvəzolunmaz rol oynayır. Şübhəsiz, beynəlxalq tərəfdaşların qeyd edilən istiqamətdə fəallaşması son dərəcə əhəmiyyətlidir. Məsələn, Səudiyyə Ərəbistanı Krallığı tərəfindən minatəmizləmə əməliyyatları üçün ayrılan 3 milyon ABŞ dolları məbləğində dəstək qlobal həmrəyliyin real təzahürü kimi dəyərləndirilməlidir. Məlum maliyyə vəsaiti prosesin sürətlənməsinə, yeni texnoloji avadanlıqların alınmasına və xilasedici kadr potensialının gücləndirilməsinə mühüm töhfə verir. Xarici donorların müvafiq formatda iştirakı digər dövlətlər və beynəlxalq təşkilatlar üçün müsbət presedent formalaşdırır. Dünyada mövcud olan qlobal resurslar sülhün və dayanıqlı inkişafın təminatı olan minalarla mübarizə prosesinə cəlb olunmalıdır.

Bakı şəhərinin beynəlxalq səviyyədə minatəmizləmə fəaliyyətinin təşviqi istiqamətində irəli sürdüyü təşəbbüslər artıq qlobal rezonans doğurur. Təhlükəsiz və dayanıqlı məskunlaşmanın əhəmiyyəti paytaxtımızın uğurla ev sahibliyi etdiyi Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası zamanı qlobal müzakirələrin mərkəzində yer almışdı. Prosesin tədqiqi göstərir ki, rəsmi idarəetmə aparatı mövcud problemi hüquqi cəhətdən əsaslandırılmış qlobal inkişaf prioritetinə çevirməyi bacarıb. Ölkəmiz humanitar minatəmizləməni 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi elan etməklə, bu məsələnin beynəlxalq səviyyədə prioritet kimi tanınması istiqamətində ardıcıl və əzmkar fəaliyyətini davam etdirir. Tətbiq edilən mərkəzləşdirilmiş idarəetmə nəticəsində təhlükəsiz qayıdış həm sürətlənir, həm də büdcə vəsaitlərinin iqtisadi səmərəliliyi maksimum həddə çatır.

Bakı dialoqu göstərir ki, dünyada sülhün, eləcə də davamlı və dayanıqlı icmaların qurulması qəti şəkildə torpaqların partlayıcı maddələrdən tam təmizlənməsindən asılıdır. Qlobal ictimaiyyət mina terrorunun davamlı təhdidlərini zərərsizləşdirmək məqsədilə çevik struktur formalaşdırmağa borcludur. Təşkil edilən konfrans məhz sadalanan yüksək hədəflərə çatmaq naminə atılan strateji və ardıcıl addımdır.

Hökumətin uzaqgörən siyasəti, müasir texnologiyaların səmərəli tətbiqi və beynəlxalq dialoqun genişləndirilməsi nəticəsində vaxtilə həyat üçün təhlükə yaradan ərazilər tədricən yenidən insanların təhlükəsiz və firavan yaşayış məkanlarına çevrilir. Azərbaycanın keçdiyi ağır, lakin şərəfli bərpa yolu qlobal miqyasda davamlı sülhün, təhlükəsiz yaşayış mühitinin və dayanıqlı şəhərsalmanın formalaşmasına xidmət edən yeni yanaşmanın əsasını təşkil edir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

### *Ekspert rəyi*

**Umud MİRZƏYEV,**
**ANAMA yanında İctimai Şuranın sədri, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti**



Bakıda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və BMT-nin Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə keçirilən IV Beynəlxalq Minatəmizləmə Konfransı humanitar minatəmizləmə sahəsində mühüm beynəlxalq dialoqun davamıdır. Konfransın "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusu göstərir ki, əsas diqqət artıq yalnız minaların aşkarlanmasına deyil, təhlükəsiz torpaqların insanlara qaytarılmasına və bərpa prosesinə yönəlir.

Dünyanın 60 ölkəsindən 400-dən çox nümayəndənin iştirak etdiyi konfrans Azərbaycanın üzləşdiyi problemin miqyasını da diqqətə gətirir. Azərbaycan ərazisinin 13 faizdən çoxunun mina və partlamamış hərbi sursatlarla çirklənməsi bunun təkcə təhlükəsizlik deyil, həm də humanitar və sosial-iqtisadi çağırış olduğunu göstərir.

Görülən işlərin miqyası isə böyükdür. İndiyədək 300 min hektara yaxın ərazi mina və digər partlayıcı sursatlardan təmizlənib. Qarabağ və Şərqi Zəngəzurda Böyük Qayıdışın sürəti də torpaqların təhlükəsizliyindən asılıdır. Yeni şəhər və kəndlərin salınması, yolların, məktəblərin, xəstəxanaların və digər infrastrukturun qurulması yalnız təhlükəsiz ərazilərdə mümkündür. Buna görə minatəmizləmə bərpa prosesinin, sadəcə, bir istiqaməti deyil, onun başlanğıc nöqtəsidir.

Qurucusu olduğum Beynəlxalq Avrasiya Mətbuat Fondu 2000-ci ildən Azərbaycanın mina çirklənmiş ərazilərində fəaliyyət göstərir. 2002-ci ildən BAMF-ın İcma Mina Aksiyası Komandası humanitar minatəmizləmə prosesinə qoşulub. Bu illər ərzində 17 min hektardan artıq ərazi təmizlənib, bir milyondan çox insan mina təhlükəsi ilə bağlı maarifləndirilib. Təcrübə göstərir ki, mina yalnız torpaqda basdırılmış partlayıcı qurğu deyil. O, insanla onun həyat mənbəyi olan torpaq arasında maneədir. Buna görə minatəmizləmənin nəticəsi yalnız aşkar edilən minaların və təmizlənən hektarların sayı ilə ölçülməməlidir. Əsas nəticə həmin torpağın yenidən həyata qaytarılmasıdır.

Konfransda təhlükəsiz yaşayış məskənləri üçün standartların müəyyənləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Təhlükəsizlik minatəmizləmədən başlayaraq şəhərsalma, infrastruktur quruculuğu və insanların köçürülməsinə qədər bərpa zəncirinin əsas prinsipi olmalıdır.

Digər mühüm məsələ innovasiya və yeni texnologiyalardır. Dronlar, süni intellekt, coğrafi informasiya sistemləri, sensorlar və mexaniki minatəmizləmə vasitələri əməliyyatların imkanını genişləndirir. Azərbaycan üçün texnologiyanın əsas dəyəri təhlükəsizlik və sürətdir: mina təmizləyən insanların riskini azaltmaq, dəqiqliyi artırmaq və təhlükəsiz torpaqları insanlara daha tez qaytarmaq.

Konfransdan əsas gözləntilərdən biri də beynəlxalq dəstəyin konkret nəticələrə çevrilməsidir. Donor dövlətlər, BMT qurumları, beynəlxalq maliyyə institutları, qeyri-hökumət təşkilatları və özəl sektor daha effektiv əməkdaşlıq etməlidir. Beynəlxalq həmrəylik bəyanatlardan real maliyyə, texnologiya və institusional tərəfdaşlığa keçməlidir. Bütün bunların fövqündə insanın öz torpağında təhlükəsiz yaşamaq hüququ dayanmalıdır. Hər təmizlənən hektarın arxasında evinə qayıdan ailə, istifadəyə verilən yol, tikilən məktəb və yenidən həyata qayıdan kənd dayanır.

# Ümummilli lideri siyasi olimpə qaytaran yol

*Heydər Əliyev 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdi*

**Əslində, Ulu öndərin bir neçə qayıdışı olmuşdur. O, 20 Yanvar soyqırımına və Mixail Qorbaçovun antitürk siyasətinə etiraz etdiyinə, Sov.İKP sıralarından çıxdığına və ən yüksək dövlət vəzifələrindən istefa verdiyinə görə Moskvada ev dustağı kimi yaşayırdı. O böyük dövlət xadimi həmin təzyiqlərdən xilas olmağın yolunu Azərbaycana QAYITMAQDA görmüş və qayıtmışdı. Ancaq uzun illər yaşadığı və qurub yaratdığı paytaxtda ona "yer tapılmamış", Naxçıvana QAYITMALI olmuşdu. Qısa müddətdən sonra səbatsız və səriştəsiz iqtidarın uçurumun kənarına gətirdiyi ölkəmizin ziyalıları çıxış yolunu Heydər Əliyevə müraciətdə görmüş və onu Bakıya dəvət etmişdilər. Nəticədə, Ulu öndərin növbəti QAYIDIŞI baş tutmuşdu.**



Amma bu qayıdışların hamısı fiziki məna kəsb edirdi. Ümummilli liderimizin siyasi qayıdışı isə 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə Ali Məclisin Sədri seçilməsi idi. Tarixçilərin fikrincə, həmin faktla da Ümummilli liderin ölkədə siyasətə qayıdışının təməli qoyulmuşdu. Nəticədə, öncə qədim Naxçıvanda milli qurtuluşun, milli dövlətçiliyin təməli qoyulmuş, sonra isə – 1993-cü ilin yayından etibarən ümumiyyətlə, ölkəmizdə xilaskarlıq, qurtuluş və vətəndaş müharibəsinin qarşısının alınması istiqamətində titanik addımlar atılmışdır.

Müdriklərin fikrincə, böyük şəxsiyyətlərin dünyaya gəlişi sakit, idarəçiliyə gəlişi mərhələli, idarəçilikdən gedişi xarizmatik, siyasi hakimiyyətə yenidən qayıdışı isə möhtəşəm olur. Bu möhtəşəm qayıdış heç də həmişə yox, yalnız tarixin gedişatının dəyişdiyi məqamlarda baş verir. Ümummilli lider Heydər Əliyevin dövlətçilik fəaliyyətinə nəzər saldığımız zaman biz bu mərhələləri açıq-aydın görürük.

Bu, bir danılmaz faktdır ki, Ümummilli liderin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik tarixi hadisə idi. Dünyanın iki nəhəng dövlətindən biri kimi tanınan Sovet İttifaqının rəhbərlərindən biri olmuş, uzun illər Azərbaycan Respublikasına məharətlə rəhbərlik etmiş Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsi milli dövlətçilik tariximizin ən mühüm hadisəsi, xalqımızın itməkdə olan ümidlərinin dirçəlməsi və gələcəyə inamının artması baxımından möhtəşəm dönüş idi.

Həmin dönüşü Ulu öndərin özü bu şəkildə dilə gətirmişdi: "Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. ...Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".

O da fəxrlə yada salınmalı faktdır ki, Ulu öndər Ali Məclisin Sədri kimi yorulmaq bilmədən çalışmış, düşmən təcavüzünə məruz qalan, blokada şəraitində yaşayan Naxçıvanın, ilk növbədə, müdafiə qabiliyyətini gücləndirmişdi. 1991-ci il sentyabrın 7-də Ali Məclis Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul etmiş, həmin qərar Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərin başlanğıc nöqtəsi olmuşdu.

Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla isə Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların yüz faiz muxtar respublikada saxlanması təmin olunmuşdu. Əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və Ulu öndərə sonsuz inamı nəticəsində muxtar respublikada Milli Ordu yaradılmış, Naxçıvanın müdafiə potensialı gücləndirilmiş, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası məhz həmin illərdə Naxçıvanda qoyulmuşdu. Təsadüfi deyil ki, ilk milli hərbi paradımız da 1992-ci il oktyabrın 9-da Naxçıvanda keçirilmişdi. Həmin illərlə bağlı məxsusi olaraq yada salınmalı faktlardan biri də Heydər Əliyevin Ali Məclisin Sədri olarkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi idi. Məhz onun təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəyliyi və Birlik Günü haqqında" Qərar qəbul edilmişdi.

Yaxud, Ulu öndərin həmin illərdə mühasirə şəraitində yaşayan Naxçıvanı məhrumiyyətlərdən qurtarmaq məqsədi ilə (1992-ci ildə) qardaş Türkiyə Cümhuriyyətinə və qonşu İran İslam Respublikasına səfərlər etməsi, keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalanması heç zaman unudulmayacaq tarixi faktlar idi. Nəticədə, hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulmuşdu.

**Cəmi altı il Azərbaycan Heydər Əliyevsiz qalmışdır və bu altı il bizim üçün faciəvi, böhranlı, utancverici illər kimi tarixə düşüb. Torpaqlar işğal altına düşdü, bir-birini dəyişən antimilli hökumətlər faktiki olaraq ancaq öz şəxsi maraqlarını qorumağa çalışırdılar – həm sovet dövründə, həm müstəqillik dövründə.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Naxçıvan Muxtar Respublikasının adından sovet və sosialist sözlərinin çıxarılması da, 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması da Ulu öndərin adı ilə bağlıdır. Həmin tarixi faktları xatırlayanda və bugünkü Azərbaycanın dünya miqyaslı uğurlarına nəzər salanda Ümummilli liderin məşhur tezislərini yada salmaq zərurəti yaranır. O, deyirdi: "Biz Azərbaycanda demokratik respublika, vətəndaş cəmiyyəti quraraq, sivilizasiyalararası cəmiyyət uğrunda mübarizə apararaq, ümumi dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından istifadə olunarsa, Azərbaycan həm tam müstəqil dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik, hüquqi, ümumbəşəri dəyərlər əsasında qurulan demokratik bir cəmiyyət olacaqdır".

Diqqət yetirin: "Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm müasir potensialı olduqca böyükdür". Bu gün artıq həmin potensial haqqında "güman edilmir". Çünki həmin potensial artıq nəinki Azərbaycanın, hətta Cənubi Qafqazın yeni reallıqlarını yaratmışdır. Bugünkü Azərbaycanın hansı guşəsinə baxırsan bax, orada mütləq Heydər Əliyev siyasətinin izlərini görürsən.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Naxçıvandan başlayan xilaskarlıq missiyası

**Azərbaycanın müasir tarixində elə hadisələr var ki, onların əsl mahiyyəti zaman keçdikcə daha aydın görünür. 3 sentyabr 1991-ci il də belə tarixi günlərdəndir. Həmin gün ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Bu tarixi hadisədən 35 il keçir.**

Həmin dövrdə Naxçıvan son dərəcə mürəkkəb siyasi, iqtisadi və hərbi şəraitdə yaşayırdı. Ermənistanın təcavüzü, blokada vəziyyəti, enerji və ərzaq çətinlikləri, nəqliyyat əlaqələrinin məhdudluğu muxtar respublikanın qarşısında ciddi problemlər yaradırdı. Belə bir şəraitdə Heydər Əliyevin siyasi iradəsi, dövlətçilik təcrübəsi və uzaqgörənliyi Naxçıvanın taleyində həlledici amilə çevrildi.

Ulu öndərin Naxçıvandakı siyasi fəaliyyəti milli dövlətçilik düşüncəsinin bərpası istiqamətində mühüm addımlarla səciyyələnirdi. 17 noyabr 1990-cı ildə onun təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvanda dövlət bayrağı kimi qəbul edilməsi, muxtar respublikanın adından "Sovet Sosialist" sözlərinin çıxarılması müstəqillik yolunda atılmış tarixi addımlar idi. Naxçıvan bununla milli dövlətçilik ideyasının siyasi iradəyə çevrildiyi məkana çevrildi.

20 Yanvar faciəsinə verilən siyasi qiymət də bu iradənin mühüm göstəricisi idi. 21 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarla 20 Yanvar hadisələrinə ilk siyasi-hüquqi qiymət verildi. Heydər Əliyevin hazırladığı bu qərar milli yaddaşın qorunması, faciənin mahiyyətinin açılması və tarixi ədalətin müdafiəsi baxımından mühüm əhəmiyyət daşıyırdı.

3 sentyabr 1991-ci ildən sonra Naxçıvanın müdafiəsinin möhkəmləndirilməsi, dövlət idarəçiliyinin təkmilləşdirilməsi, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və blokadanın ağır nəticələrinin aradan qaldırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Dövlət Müdafiə Komitəsinin yaradılması və keçmiş sovet hərbi hissələrinin Naxçıvandan çıxarılması muxtar respublikanın təhlükəsizliyinin təmin olunması baxımından mühüm addımlar oldu.

Heydər Əliyevin siyasi fəaliyyətində Naxçıvanın geostrateji mövqeyi də xüsusi yer tuturdu. Muxtar respublikanın Türkiyə və İranla əlaqələrinin genişləndirilməsi həm iqtisadi çətinliklərin aradan qaldırılması, həm də Naxçıvanın regional və beynəlxalq əlaqələrinin gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyırdı.



1992-ci il mayın 28-də Araz çayı üzərində Naxçıvanı Türkiyə ilə birləşdirən Sədərək–Dilucu "Ümid körpüsü"nün açılması bu siyasətin ən yaddaqalan nəticələrindən biri oldu. Körpünün açılışında Türkiyənin Baş naziri Süleyman Dəmirəl və Heydər Əliyevin iştirakı Azərbaycan–Türkiyə münasibətlərinin tarixində mühüm hadisəyə çevrildi. Ümid körpüsü yalnız nəqliyyat vasitəsi deyildi; o, iki qardaş ölkəni, ortaq tarixi, dili və mənəvi dəyərləri birləşdirən rəmzə çevrildi.

Bu siyasət Naxçıvanın Türk dünyası ilə əlaqələrinin genişlənməsinə yeni imkanlar yaratdı. Eyni zamanda, İran İslam Respublikası ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi muxtar respublikanın blokada şəraitindən çıxmasında mühüm rol oynadı. Heydər Əliyevin 1992-ci ildə İrana səfərləri zamanı aparılan danışıqlar və əldə olunan razılaşmalar nəticəsində enerji, nəqliyyat, ticarət və digər sahələrdə əməkdaşlığın əsasları möhkəmləndirildi. Beləliklə, Naxçıvanın hər iki qonşu dövlətlə əlaqələrinin inkişafı onun təcrid vəziyyətinin xilasına ciddi töhfə verdi.

Ulu öndərin Naxçıvan rəhbərliyi dövründə qəbul olunan qərarlar arasında 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi və Birliyi Gününün təsis edilməsi ilə bağlı təşəbbüs də xüsusi yer tutur. 1991-ci il dekabrın 16-da Ali Məclisin qəbul etdiyi qərar milli həmrəyliyin siyasi ideyaya çevrilməsinin mühüm ifadəsi oldu. Bu təşəbbüs sonralar bütün dünyada yaşayan azərbaycanlıların birlik və həmrəylik duyğularının möhkəmlənməsinə xidmət edən ümummilli bayrama çevrildi. Həmin qərar göstərirdi ki, Heydər Əliyevin dövlətçilik konsepsiyası yalnız Naxçıvanın gündəlik problemləri ilə məhdudlaşmır, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların vahid milli ideya ətrafında birləşdirilməsini də strateji məqsəd kimi qarşıya qoyurdu. Bu baxışın nəticələri bu gün də Azərbaycanın milli siyasətində özünü aydın göstərir. Bu, Ulu öndərin siyasi uzaqgörənliyinin daha bir mühüm tarixi göstəricisi və milli iradənin təntənəsi idi.

1991–1993-cü illər Naxçıvan üçün yalnız ağır sınaqlar dövrü deyildi. Bu illər milli dövlətçilik ideyasının praktik siyasətə çevrildiyi, müstəqil Azərbaycanın gələcək siyasi kursunun mühüm əsaslarının formalaşdığı mərhələ idi. 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması da bu siyasi prosesin mühüm nəticələrindən biri kimi tarixə düşdü.

1993-cü ildə Azərbaycanın dövlətçiliyi ciddi təhlükələrlə üzləşəndə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Naxçıvanda formalaşmış dövlətçilik xəttinin ümumrespublika miqyasında davamı oldu. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan sabitlik və inkişaf yoluna çıxdı, dövlət institutları möhkəmləndirildi, ölkənin beynəlxalq mövqeyi gücləndirildi.

Bu gün həmin siyasi kurs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın iqtisadi və hərbi qüdrətinin artması, beynəlxalq nüfuzunun möhkəmlənməsi, ərazi bütövlüyünün və suverenliyinin bərpası Ulu öndərin müəyyən etdiyi dövlətçilik strategiyasının müasir mərhələdəki parlaq nəticələridir.

Prezident İlham Əliyevin Naxçıvana göstərdiyi xüsusi diqqət və qayğı da bu siyasətin davamlılığının mühüm göstəricisidir. Muxtar respublikada nəqliyyat, enerji, infrastruktur, sosial və iqtisadi layihələrin həyata keçirilməsi Naxçıvanın inkişaf perspektivlərini genişləndirir. Naxçıvanın gələcək inkişafına hesablanan layihələr, yeni istehsal və sosial obyektlərin yaradılması qədim diyarın müasir inkişaf xəttinə inteqrasiyasını sürətləndirir.

Beləliklə, 3 sentyabr 1991-ci ildən keçən 35 il bir tarixi həqiqəti təsdiqləyir: Naxçıvanda atılan siyasi addımlar yalnız həmin dövrün problemlərinin həlli ilə məhdudlaşmadı. Bu addımlar Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə və gələcək inkişafına aparan böyük yolun mühüm mərhələsinə çevrildi.

Ulu öndər Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti göstərdi ki, ən mürəkkəb şəraitdə belə uzaqgörən siyasi strategiya, qətiyyətli idarəçilik və milli dövlətçilik iradəsi tarixin istiqamətini dəyişə bilər. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin siyasi xəttin yeni mərhələdə uğurla davam etdirilməsi isə Heydər Əliyev irsinin canlılığının və siyasi kursun tarixi təntənəsinin ifadəsidir.

Naxçıvandan başlayan böyük dövlətçilik yolu bu gün də davam edir və doğma Azərbaycanımızı daha parlaq gələcəyə aparır.

***Süsənbər AĞAMALIYEVA,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***Naxçıvan Dövlət Universitetinin əməkdaşı***

## Prezident İlham Əliyevin mina təhlükəsi ilə bağlı müraciəti Moldova mediasında




**Moldovanın nüfuzlu "Noi.md" xəbər portalı Azərbaycan Prezidenti İlham Əliyevin "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının iştirakçılarına müraciətinə geniş yer ayırıb.**

Məqalədə dövlətimizin başçısına istinadla yazılır ki, Vətən müharibəsinin bitdiyi 2020-ci ildən indiyədək mülki şəxslər, hərbçilər, minaaxtaranlar, jurnalistlər və yenidənqurma işlərində iştirak edən şəxslər də daxil olmaqla, 437 Azərbaycan vətəndaşı mina və partlayıcı sursat hadisələrinin qurbanı olub, nəticədə 73 nəfər həyatını itirib, 364 nəfər ağır yaralanıb. Ümumilikdə, Ermənistanın Azərbaycana qarşı təcavüzü başlayandan bəri 3 min 500-dən çox vətəndaşımız minalardan zərər çəkib. Onların arasında uşaqlar, qadınlar və digər mülki şəxslər də var ki, bu gizli təhlükə onların həyatına faciəvi təsir edib.

Məqalədə daha sonra Prezident İlham Əliyevin müraciətindəki fikirlərə istinadla yazılıb ki, ilkin hesablamalara görə, Azərbaycan ərazisinin 13 faizindən çoxu mina və partlamamış sursatların təsirinə məruz qalıb. İşğal zamanı dağıdılmış şəhərlər və kəndlər Böyük Qayıdış Proqramı çərçivəsində yenidən qurulur, müasir infrastruktur, yollar, tunellər, hava limanları, enerji obyektləri, məktəblər, xəstəxanalar, mədəniyyət abidələri və yaşayış məntəqələri bərpa olunur. Bu siyasətin praktik nəticələri artıq göz qabağındadır. Bugündək, təxminən, 40 min keçmiş məcburi köçkün azad edilmiş ərazilərdə evlərinə qayıdıb.

*XQ*

## Qərb mediasının yalan və böhtanları yolverilməzdir

**Mənzil-qərargahı Polşada yerləşən "Nexta" kanalı sentyabrın 2-də Azərbaycanın Goranboy rayonunun Nizami kəndi yaxınlığında baş vermiş yanğın hadisəsi ilə bağlı subyektiv mülahizələrə əsaslanan, məsələni dövlətlərarası siyasi münasibətlər fonunda təqdim etməyə çalışan və ictimai rəyi çaşdırmağa yönəlmiş məlumat yayılıb. Təhlillər göstərir ki, baş verənlər vahid mərkəzdən idarə olunan hibrit informasiya kampaniyasının tərkib hissəsidir. Özünün informasiya mühitindən kənar qüvvələri daim hibrit müharibədə ittiham edən Qərb mediasının özü Azərbaycana qarşı təşkil olunmuş dezinformasiya kampaniyası aparır.**




Bu fikirlər Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin bəyanatında açıqlanır.

Bəyanatda deyilir: "Bu fakt bir daha göstərir ki, regionda qonşu dövlətlər arasında münasibətlərin normallaşması, sabitliyin və firavanlığın möhkəmlənməsi müəyyən dairələrin maraqlarına cavab vermədiyindən ölkəmizin informasiya məkanını çirkləndirmək və cəmiyyətdə süni təşviş yaratmaq məqsədi daşıyan klassik dezinformasiya halları intensivləşib.

Ümumi informasiya mühitinin monitorinqi və təhlili göstərir ki, son dövrlər bir sıra Qərb media resurslarında Azərbaycana qarşı həqiqətə uyğun olmayan məlumatların yayılması kampaniyası müşahidə olunur. Xüsusilə, Böyük Britaniyanın "The Independent", "The Guardian" qəzetlərində və BBC teleradio və yayım şirkətində, ABŞ-ın CNN telekanalında, Fransanın "Le Monde" qəzetində, Polşanın TVP telekanalı və digər resurslarda yayılan materiallardakı aşkar birtərəfli yanaşma və əsassız mülahizələr Azərbaycanın beynəlxalq imicini hədəf alan informasiya hücumunun tərkib hissəsidir.

Bu qəbildən olan fərziyyə və iddiaların yayılması informasiya manipulyasiyasının açıq təzahürü kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ölkəmizin suverenliyinə, daxili və xarici siyasətinə, eləcə də beynəlxalq nüfuzuna kölgə salmaq məqsədi daşıyan bu kimi halların araşdırılması və dezinformasiya cəhdlərinin qarşısının alınması istiqamətində lazımi tədbirlər görməkdə davam edəcək".

*XQ*

# Nikol Paşinyanın anti-Rusiya mesajları davam edir

*Ermənistanın Baş naziri Bişkekdə demədiklərini İrəvanda söylədi*

**Ermənistanın Baş naziri Nikol Paşinyan dünən brifinqdə səsləndirdiyi fikirlərlə növbəti anti-Rusiya demarşına imza atdı. Sentyabrın 1-də Prezident Vladimir Putinlə keçirdiyi görüşə fokuslanmış Nikol, hətta Bişkekdə dilə gətirmədiklərini də dedi. Məsələn, o bildirdi ki, Ermənistan Avropa İttifaqına üzvlük prosesinin başlanması haqqında qanundan imtina etmək niyyətində deyil. Həm də ona görə ki, qanun təşəbbüsü Ermənistanın vətəndaş cəmiyyətindən qaynaqlanır.**



"Bu qanunun qəbulu düzgün addım idi. Hazırda gedən prosesi də müsbət qiymətləndirirəm. İndi kim deyir ki, "Bu Ermənistan kimə lazımdır? Onun gedəsi yeri yoxdur" (Belarus Prezidenti Aleksandr Lukaşenkonun növbəti qalmaqallı bəyanatını nəzərdə tutur – red.). Halbuki qanunun qəbulundan əvvəl də belə bəyanatlar səsləndirilirdi", – deyən erməni hökumət rəhbəri əlavə edib ki, ölkəsinin xarici siyasətdə ciddi uğurlar qazanmasında sözügedən qanunun da köməyi olub. Ən başlıcası isə Paşinyan vurğulayıb: "Bizə tərəfdaşlardan deyən var ki, "bəlkə onu (qanunu – red.) ləğv edəsiniz". Mən isə daim cavab verirəm ki, bu, mümkün deyil. Çünki söhbət yalnız parlamentin siyasi iradəsindən deyil, həm də Ermənistan xalqının iradəsindən gedir".

Paşinyan anti-Rusiya demarşı baxımından daha iki məqamın üzərində dayandı ki, onlardan sonra söz açacağıq. Hələlik isə deyək ki, yuxarıda diqqətə çatdırdığımız fikirlərinə nəzərən Nikol ölkəsinin Aİ yolçuluğunu, bir növ, müqəddəs vəzifəyə çevirir. Xatırladaq ki, onun Bişkekdə Prezident Putinlə subliminal mübahisəsində başlıca motiv də Ermənistanın bu yolçuluğunun Rusiyanın hakim rol oynadığı Avrasiya İqtisadi İttifaqında təmsilçiliklə uzlaşmaması olmuşdu. Daha doğrusu, Kreml rəhbəri bu məqamı qabartmış və demişdi ki, Aİ ilə AİI-nin standartları bir-birindən tamamilə fərqlidir. Putin, eyni zamanda, İrəvanı tez bir zamanda təşkilatlar arasında seçimə, seçimi referendum keçirməklə gerçəkləşdirməyə çağırmışdı. Paşinyan Rusiya liderinin söhbəti nəyə çəkdiyinin fərqinə varmış və Ermənistanın AİI-dən çıxmaq niyyəti güdmədiyini, üstəlik, AİI-nin sənədlərində üzv dövlətin qurumdan xaric edilməsinə dair hansısa prosedurun yer almadığını vurğulamışdı. Yəni, o, İrəvanın təşkilatdan uzaqlaşdırılmasını siyasi qalmaqala çevirəcəyinin anonsunu vermişdi. Erməni lider həmçinin bildirmişdi ki, indilik Aİ ilə AİI arasında seçim zərurəti yoxdur və əgər belə bir zərurət yaransa, İrəvan onun referendumla, yaxud digər yollarla dəyərləndirilməsi məsələsini nəzərdən keçirəcək.

Ümumən, Putinin şəxsində Rusiyanın mövqeyi belədir ki, İrəvan AİI-nin dividendlərini Aİ yolçuluğu naminə xərcləməməlidir. Kremlin barəsində söz açdığımız tez bir zamanda seçim məntiqi də buna əsaslanır. Paşinyanın baxışı isə ondan ibarətdir ki, Ermənistan AİI-də qala-qala da Aİ-yə doğru can ata bilər. O, brifinqdə məsələnin üzərinə bir qədər fərqli şəkildə gəlib. Nikol bildirib ki, AİI-nin heç bir üzv dövləti quruma sədaqət andı içməyib və öz iradəsini sərbəst şəkildə ifadə etmək hüququna malikdir: "Kim deyib ki, AİI-yə üzv bütün dövlətlər sədaqət andı içiblər və bu təşkilatın tərkibində bütün mövcudluqları boyu qalacaqlar? Bəli, qərar vermək üçün müddət müəyyənləşdirilib. Əgər biz çıxmağın lehinə qərar versək, bunun baş verməsindən 6 ay əvvəl struktur məsələ barədə məlumatlandırılmalıdır. Biz də bildirmişik ki, bu məntiqə uyğun hərəkət edir və bu reallıqdan çıxış edirik. Ona görə də mövqeyimiz belədir və bu mövqeni daha aydın və qəbuledilən etmək üçün rusiyalı tərəfdaşlarımızla ardıcıl şəkildə işləyirik".

Göründüyü kimi, Paşinyan söhbəti Ermənistanın AİI-dən uzaqlaşdırılmasının yolverilməzliyi üzərinə gətirir. Bu yanaşma özündə konflikt məntiqini daşıyır. Onun AİI-yə üzv dövlətlərin öz iradəsini sərbəst ifadə etmək hüququ ilə bağlı fikrinə gəlincə, Baş nazir rəhbərlik etdiyi hökumətin ixrac bazarlarının şaxələndirilməsini dövlət strategiyasına çevirdiyini açıqlayıb və bildirib ki, Rusiya Ermənistandan məhsulların idxalına qoyulan məhdudiyyətləri aradan qaldırsa belə, həmin strategiya davamlı olacaq: "Düşünürəm ki, hətta AİI çərçivəsində bütün problemlər aradan qaldırılsa belə, şaxələndirmə bizim strategiyamızdır. Heç nəyə baxmayaraq, biz bu istiqamətdən kənara çıxmamalıyıq".

Beləliklə, Paşinyan Rusiyanın Ermənistan məhsullarına qoyduğu embarqodan qətiyyən çəkinmədiyini vurğulayır. O, hətta, yaranmış problemin daxili imkanlar hesabına həllini tapacağına əminliyini də bildirir. Söhbət hansı daxili imkanlardan gedir, bu, qeyri-müəyyəndir. Çünki Aİ bazarları hələ Ermənistanın üzünə açıq deyil. Rusiyanın timsalında AİI bazarı isə İrəvan üçün bu ilin mayından bağlıdır. Sən demə, erməni məhsulları standartlara cavab vermirmiş və sair ilaxır. Aydındır ki, məsələ siyasi mahiyyət daşıyır. Kreml Aİ-yə can atan Ermənistanı, bir növ, cəzalandırır. Putin-Paşinyan görüşündən sonra isə Rusiya mediası ən böyük cəza barədə söz açıb. Belə görünür, İrəvanın AİI-dən çıxarılması məsələsi qətiləşməkdədir. Bu barədə məşhur "Kommersant" nəşri də yazıb. Rusiya Baş nazirinin müavini Aleksey Overçuk isə Şərq İqtisadi Forumu çərçivəsindəki çıxışında Aİ-yə üzvlük məsələsini Ermənistanın özünün həll etməli olduğunu bildirsə də, diplomatik şəkildə hədə-qorxu gəlməyi də yaddan çıxarmayıb: "Üzvlük məsələsi İrəvanın şəxsi işi və suveren hüququdur. Bizim hüququmuz isə Ermənistanın Aİ ilə yaxınlaşması halında itirəcəyi güzəştlərlə bağlı məsələləri həll etməkdir".

İndi isə Paşinyanın anti-Rusiya demarşı baxımından vəd etdiyimiz növbəti iki məqamın üzərində dayanaq. Hiss olunur ki, Nikol bu məqamları təsadüfən qabartmır. Söhbət onun Gümrüdəki Rusiya hərbi bazasının çıxarılması və Ermənistandakı Atom Elektrik Stansiyası ilə bağlı dediklərindən gedir. Paşinyan birinci məsələyə dair Prezident Putinlə heç bir müzakirənin aparılmadığını vurğulayıb: "Bu müddət ərzində biz Ermənistanda yerləşən Rusiyanın 102-ci hərbi bazası məsələsini bir dəfə də olsun gündəmə gətirməmişik. Lakin demək olmaz ki, biz onun mövcudluğunu həyati əhəmiyyətli sayırıq. Əgər Rusiya hərbi bazanı Ermənistan Respublikasından çıxarmaq qərarına gəlsə, biz buna etiraz etməyəcəyik. Amma qalmaq istəyini ifadə etsə, bunun da müzakirəsinə hazırıq".

Bu ilin iyununda Rusiya XİN-dən bazanın çıxarılması ilə bağlı İrəvandan heç bir siqnalın alınmadığı bildirilsə də, qurum rus hərbçilərini Ermənistanın və bütövlükdə Cənubi Qafqazın təhlükəsizliyinin əsas elementlərindən biri kimi qələmə vermişdi. Bəli, Paşinyan, faktiki olaraq, bu təqdimatın əleyhinədir, Putin isə məsələyə sanki loyal yanaşır. Hərçənd, Rusiya liderinin mövzuya dair "erməni cəmiyyətinin iradəsi" məntiqinin arxasında nəyin dayandığını müəyyənləşdirmək çətindir. O, Aİ-AİI dilemması ilə yanaşı, Gümrüdəki 102-ci hərbi bazanın çıxarılması ilə bağlı da referendum və ya ona bənzər nədənsə söz açsa, heç təəccüblənməmək olar.

Əlbəttə, sözügedən hərbi bazanın Ermənistan ərazisində qalması və ya qalmaması ölkənin suveren hüququdur. Hərçənd, görünən budur ki, Paşinyan bu hüquqdan istifadəni, bir növ, ehtiyat variant olaraq saxlayır. Yəni, əgər AİI müstəvisində İrəvana qarşı sərt addımlar atılsa, Nikol variantdan yararlanacaq. Onun "bu müddət ərzində Ermənistanda yerləşən Rusiyanın 102-ci hərbi bazası məsələsini bir dəfə də olsun gündəmə gətirməmişik" fikri belə deməyə əsas yaradır. Sadə məntiq də bunu deyir. Bir halda ki, İrəvan Moskvanın hakim rol oynadığı iqtisadi inteqrasiya modelindən uzaqlaşdırılır, nəyə görə Kremlin təhlükəsizlik sistemində qalmalıdır? Qalmamalıdır və məsələnin daha bir göstəricisi Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə ziddiyyətləridir. Yəni ölkə Moskvanın yaratdığı və idarə etdiyi qurumu özünün təhlükəsizliyi baxımından səmərəli görmür və mövcud məqamı durmadan açıqlayır.

Paşinyanın anti-Rusiya demarşı baxımından ikinci məqama, yəni Ermənistandakı Atom Elektrik Stansiyası məsələsinə gəlincə, Nikol bu məsələ ilə bağlı razılığa gəlindiyini açıqlayıb. O bildirib ki, bu ay "Rosatom"un rəhbəri Aleksey Lixaçovu ölkəsində gözləyir. Gözləyir ki, o, Rusiyanın Ermənistanda yeni atom elektrik stansiyasının tikintisi ilə bağlı irəli sürəcəyi təklifləri təqdim etsin. Amma bir nüans var. "Mən əvvəllər də demişəm ki, bu məsələ bizim üçün geosiyasi seçim deyil. Bizim üçün ən yaxşı qiymət-keyfiyyət nisbəti lazımdır. Kim daha yaxşı təklif verəcəksə, həmin təklifin ardınca gedəcəyik", - deyən Paşinyanın hansı tərəfin təklifini daha məqbul sayacağı indidən aydındır. Ukrayna müharibəsi səbəbindən çətin duruma düşmüş Moskvanın Nikolun "qiymət-keyfiyyət nisbəti"nin tələblərinə uyacağı real görünmür.

**Ə.CAHANGİROĞLU**
*XQ*

# Səhiyyə sistemi islahatların yeni mərhələsində

*Tibb işçilərinin əməkhaqlarının artırılması yüksək xidmətə qoyulan sərmayədir*



**Ölkəmizdə səhiyyə sisteminin inkişaf etdirilməsi, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, son illərdə səhiyyə işçilərinin əməyinin stimullaşdırılması və sosial təminatının gücləndirilməsi istiqamətində mərhələli tədbirlər həyata keçirilib. 2023-cü il yanvarın 1-dən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin aylıq vəzifə maaşları artırılıb, 2025-ci ildə minimum əməkhaqqının artırılması ilə əlaqədar tarif maaşlarında növbəti artımlar həyata keçirilib. Bununla yanaşı, səhiyyə sistemində ayrı-ayrı kateqoriyalar üzrə çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə diferensial yanaşmalar tətbiq olunub. Bu çərçivədə Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evlərinin işçilərinin tarif maaşlarına vəzifələrdən asılı olaraq 1,5–3 dəfə artım əmsalları tətbiq edilib.**

Bu fikirləri Azərbaycan Respublikası Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədri, TƏBİB-in Müşahidə Şurasının üzvü Elnara Muradova səsləndirib.

O bildirib ki, bu ardıcıl sosial siyasətin davamı olaraq Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən irəli sürülən tibb işçilərinin maddi rifahının yaxşılaşdırılması, onların əməyinin yüksək qiymətləndirilməsi və səhiyyə sistemində insan kapitalının gücləndirilməsi məqsədilə TƏBİB-in tabeliyində çalışan tibb işçilərinin əməkhaqlarının artırılması təşəbbüsünü Prezident İlham Əliyevin müsbət qarşılayaraq icrası ilə bağlı müvafiq tapşırıq verməsi dövlətimizin tibb işçilərinin əməyinə verdiyi yüksək dəyərin və onların sosial rifahına göstərdiyi davamlı diqqətin növbəti ifadəsidir: "Yeni əməkhaqqı qaydaları 2026-cı il sentyabrın 1-dən tətbiq olunur və TƏBİB-in tabeliyindəki tibb müəssisələrində çalışan 72 min 212 tibb işçisini əhatə edəcək. Əməkhaqqı artımlarının vəzifə, ixtisas, iş yükü, fəaliyyət göstəriciləri və regionlarda mövcud kadr təminatı nəzərə alınmaqla fərdiləşdirilməsi nəzərdə tutulur. Xüsusilə ilkin səhiyyə, təcili tibbi yardım, anesteziologiya-reanimatologiya xidmətləri, eləcə də regionlarda kadr çatışmazlığı müşahidə edilən dar ixtisaslar üzrə çalışan həkimlər üçün nəzərdə tutulan əlavə stimullaşdırıcı mexanizmlər peşənin cəlbediciliyinin artırılması, regionlarda kadr təminatının yaxşılaşdırılması və əhalinin keyfiyyətli tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır".

Elnara Muradova, həmçinin vurğulayıb ki, Səhiyyə İşçiləri Həmkarlar İttifaqı tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə, onların əməyinin layiqincə qiymətləndirilməsinə və rifahının yüksəldilməsinə xidmət edən bu mühüm qərarı yüksək qiymətləndirir: "Ölkə rəhbərliyinə səhiyyə işçilərinə göstərilən davamlı diqqət və qayğıya görə dərin təşəkkürümüzü bildiririk. İnanırıq ki, tibb işçilərinin əməyinə verilən dəyər onların sosial rifahının yaxşılaşdırılması ilə yanaşı, səhiyyə sisteminin dayanıqlılığının, tibbi xidmətlərin keyfiyyətinin və bütövlükdə əhalinin sağlamlığının təmin olunmasına qoyulan mühüm sərmayədir".

*XQ*

# Avtobuslarda sərnişindaşıma "brutto müqaviləsi" sisteminə keçir

**Hazırda dünyanın bir çox ölkəsində sərnişinlərə yüksək səviyyədə və keyfiyyətli xidmət göstərilməsi məqsədilə "brutto müqaviləsi" modelindən geniş istifadə olunur. Məlumat üçün bildirək ki, bu model ictimai nəqliyyat sektorunda tətbiq olunan və daşıyıcı şirkətlərə sərnişin sayına görə deyil, qət edilən məsafəyə (kilometrə) və xidmətin keyfiyyətinə görə ödəniş edilməsini nəzərdə tutan tənzimləmə modelidir.**



Sözügedən modelin əsas prinsiplərindən biri gəlirlərin mərkəzləşdirilməsindən ibarətdir ki, bu da sərnişinlərdən yığılan gediş haqlarının birbaşa tənzimləyici qurumun hesabına daxil olmasından ibarətdir. Həmin qurum isə daşıyıcı şirkətə əvvəlcədən təsdiqlənmiş cədvəl və qət edilən məsafə qarşılığında vəsait ödəyir.

"Brutto müqaviləsi" sisteminin əsas üstünlüklərindən biri də ondan ibarətdir ki, sərnişin az olan axşam saatlarında və ya az istifadə edilən marşrutlarda belə avtobusların marşrut üzrə hərəkəti davam edir. Bu zaman qrafikə və qaydalara ciddi nəzarət olunur, avtobusların sayı, hərəkət intervalı və keyfiyyət meyarları əvvəlcədən dəqiq müəyyənləşdirilir, sürücülər planlı və nizamlı işləməyə stimullaşdırılır. Beləliklə, sərnişin azlığından asılı olmayaraq günün istənilən saatında fasiləsiz nəqliyyat xidməti təmin olunur.

Ölkəmizdə də bu mütərəqqi modelin tətbiqi istiqamətində lazımi işlər görülüb. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən beynəlxalq məsləhətçi şirkət cəlb edilməklə Bakı şəhərinin inzibati ərazisinin və Abşeronun avtobus marşrut şəbəkəsinin qiymətləndirilməsi həyata keçirilib. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi isə Bakı və Abşeron ərazisində ictimai nəqliyyat xidmətlərinin keyfiyyətini davamlı olaraq yüksək səviyyədə saxlanılması və avtobus parkının yenilənməsi üçün dayanıqlı maliyyələşdirmə mexanizmini formalaşdırmaq məqsədilə "brutto müqavilə" sisteminin tətbiqi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirib.

Nəhayət, 2026-cı il iyulun 31-də Nazirlər Kabineti "Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımaları həyata keçirən daşıyıcılar tərəfindən məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin göstərilməsinə görə ödənilən subsidiyanın hesablanması və ödənilməsi Qaydası"nın təsdiqi ilə bağlı qərar qəbul edib.

Bugünlərdə isə ölkəmizdə "brutto müqaviləsi" modelinin tətbiqinə başlanılıb. İlkin olaraq 130, 205, 211, 500 və 503 nömrəli müntəzəm marşrutlar bu sistemə qoşulub. Tələblərə uyğun olaraq digər marşrutların da tezliklə bu sistem əsasında fəaliyyət göstərəcəyi gözlənilir.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin məlumatına görə, sərnişindaşımada tətbiq olunan bu yenilik Bakı və Abşeron ərazisində ictimai nəqliyyat xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, eləcə də avtobus parkının yenilənməsinin davamlı maliyyələşdirmə mexanizminin yaradılması baxımından mühüm əhəmiyyət daşıyır. Belə ki, "brutto müqaviləsi" modelinə əsasən, artıq daşıyıcılara qət edilən məsafəyə və xidmətin keyfiyyətinə görə ödənişlər ediləcək.

Qurumdan sorğumuza cavab olaraq bildirildi ki, yeni model marşrut üzrə avtobusların sayı, hərəkət intervalı, qət ediləcək məsafə və digər xidmət göstəricilərinin əvvəlcədən müəyyənləşdirilməsini, daşıyıcıya isə bu tələblərə uyğun göstərdiyi xidmətə görə ödəniş ediləcəyini nəzərdə tutur. Beləliklə, sərnişin sayının az olduğu saatlarda, o cümlədən axşam saatlarında da avtobusların sərnişinlərə xidmət göstərməsi və qrafikə riayət etməsi təmin olunacaq.

Eyni zamanda, bu model sərnişinlər üçün daha müntəzəm, etibarlı və proqnozlaşdırılan ictimai nəqliyyat xidməti formalaşdırmağa imkan verəcək. Bu da daşıyıcıların yalnız gəlirli marşrutlara üstünlük verməsinin qarşısını alacaq və şəhərətrafı azrentabelli marşrutlarda da xidmət səviyyəsinin yüksəldilməsinə şərait yaradacaq.

"Brutto müqaviləsi" modeli daşıyıcıların fəaliyyətinə daha sistemli nəzarət imkanları da yaradır. Belə ki, müəyyən edilmiş keyfiyyət tələblərinin pozulması halında müqavilə çərçivəsində maliyyə və digər təsir mexanizmləri tətbiq ediləcək. Yaradılmış xüsusi proqram təminatı vasitəsilə daşıyıcıların göstərdikləri xidmətin keyfiyyətinin ölçülməsi və xidmətin təşkilinə nəzarət təmin ediləcək. Yeni model, həmçinin daşıyıcıların maliyyə dayanıqlığını və uzunmüddətli planlaşdırma imkanlarını artıracaq. Bu isə avtobus parkının yenilənməsinə, müasir və ekoloji təmiz nəqliyyat vasitələrinin alınmasına, texniki xidmətin yaxşılaşdırılmasına və xidmət keyfiyyətinə daha çox investisiya yatırılmasına imkan verəcək.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

***Ekspert rəyi***

**Eldəniz CƏFƏROV,**
**avtomobil nəqliyyatı üzrə ekspert**



Nazirlər Kabinetinin bu qərar əsasında məsafə əsaslı subsidiyalaşdırma mexanizminin və "brutto müqaviləsi" modelinin tətbiqinə başlanması ictimai nəqliyyat sistemində mühüm institusional dəyişiklikdir. Bunu, sadəcə, daşıyıcılara ödəniş mexanizminin dəyişdirilməsi kimi deyil, həm də ictimai nəqliyyatın kommersiya fəaliyyətindən xidmət modelinə keçidi istiqamətində mühüm addım kimi qiymətləndirmək lazımdır. Bu modelin Azərbaycanda tətbiqini ictimai nəqliyyatın idarə edilməsində müasir və sistemli mərhələyə keçid hesab etmək olar.

Düşünürəm ki, bu sistemdə subsidiyanın yalnız qət edilən məsafə ilə deyil, xidmətin keyfiyyəti ilə əlaqələndirilməsi daha məqsədəuyğun olardı və yəqin ki, gələcəkdə belə də olacaq. Əgər daşıyıcıya "neçə kilometr məsafə qət etdin" sualı ilə yanaşı, "necə xidmət göstərdin" sualı da veriləcəksə, bu model, həqiqətən, ictimai nəqliyyatda yeni dövr yarada bilər. Şübhə etmirəm ki, növbəti mərhələdə ölkəmizdə "brutto müqaviləsi" modelinin kilometr əsaslı ödənişdən tədricən keyfiyyət əsaslı ödəniş modelinə keçməsi də mümkün olacaq.

Xarici təcrübəyə nəzər saldıqda görürük ki, belə bir model Avropa şəhərlərində ictimai nəqliyyat xidmətlərinin satın alınması və maliyyələşdirilməsində geniş istifadə olunur. Daşıyıcılar şəhər tərəfindən müəyyən edilmiş xidmət standartlarına uyğun olaraq nəqliyyat xidmətləri göstərir, dövlət isə marşrutların planlaşdırılmasını və nəqliyyat siyasətini həyata keçirir. Həmçinin daşıyıcıya göstərdiyi nəqliyyat xidmətinin keyfiyyət göstəricilərinə görə bonus və ya cərimə mexanizmləri tətbiq olunur. Bu təcrübə göstərir ki, "Gross Cost" və ya "brutto müqaviləsi" modelinin uğuru yalnız daşıyıcıya qət etdiyi məsafəyə görə ödəniş edilməsindən ibarət deyil. Əsas məsələ xidmətin dəqiq standartlaşdırılması, ölçülməsi və nəticəyə əsaslanan ödəniş mexanizminin qurulmasıdır.

Yeni modelin daşıyıcı üçün ən böyük üstünlüklərindən biri gəlir və maliyyə risklərinin azalmasıdır. Əgər hazırkı sistemdə şirkətin gəliri əsasən sərnişin sayından asılıdırsa, sərnişin axınının azalması birbaşa onun maliyyə vəziyyətinə təsir edir. Yanacaq qiymətlərinin, əməkhaqqının, ehtiyat hissələrinin və texniki xidmət xərclərinin artması fonunda bu risk böyüyür. Yeni sistemə əsasən isə şirkət əvvəlcədən müəyyən edilmiş xidmət həcminə uyğun olaraq daha proqnozlaşdırılan gəlir əldə edir. Bu, daşıyıcıya uzunmüddətli planlaşdırma imkanı yaradır və avtobus parkının yenilənməsinə, sürücülərin əmək və iş şəraitinin yaxşılaşdırılmasına rahat investisiya qoymağa şərait yaradır. Başqa sözlə, gəlirlərin daha dəqiq planlaşdırılması investisiya imkanlarının genişlənməsi deməkdir.

Sərnişin baxımından isə ən mühüm dəyişiklik avtobus xidmətinin sərnişin sayından az asılı olmasıdır. Avtobusların sərnişin sayına deyil, qrafikə uyğun işləməsi vətəndaşların mənzil başına daha tez çatmasına şərait yarada bilər. Məsələn, saat 22:00-da marşrut üzrə sərnişin sayı azdırsa, daşıyıcı üçün reyslərin sayını azaltmaq və ya intervalları artırmaq artıq əvvəlki qədər iqtisadi motivasiya yaratmayacaq.

Əgər həmin reys müqavilədə nəzərdə tutulubsa, xidmət göstərilməlidir. Bu da sərnişin üçün daha dəqiq intervallar, daha az gözləmə müddəti və daha proqnozlaşdırılan xidmət deməkdir. Bütün bu sistemə nəzarət, eyni zamanda, sərnişinlərə təhlükəsiz və keyfiyyətli xidmətin göstərilməsi xüsusi proqram təminatı vasitəsilə həyata keçiriləcək. Məsələn, ictimai nəqliyyat vasitələrinin, o cümlədən avtobusların real vaxt rejimində izlənməsi təmin olunacaq. Sistem avtobusun harada olduğunu, qrafikdən nə qədər geri qaldığını, neçə kilometr məsafə qət etdiyini, müəyyən edilmiş marşrut üzrə hərəkət edib-etmədiyini, dayanacaqlarda dayanıb-dayanmadığını və sərnişinlərə necə xidmət göstərildiyini müəyyən etməyə imkan verəcək.

Elektron bilet sistemi, kameralar və rəqəmsal məlumatların inteqrasiyası nəticəsində hər bir marşrut üzrə faktiki xidmətin keyfiyyətini ölçmək mümkün olacaq. Nəticədə, ikitərəfli müqavilələr vasitəsilə ictimai nəqliyyatın yalnız maliyyələşmə mexanizmi deyil, həm də xidmət göstərmə sistemi dəyişdiriləcək. Bu modelin əsas məqsədi daha çox sərnişin cəlb etmək və onlara daha keyfiyyətli xidmət göstərməkdir. Bir sözlə, yeni sistem həm nəzarət mexanizmlərini gücləndirəcək, həm sərnişin məmnuniyyətini artıracaq, həm də ictimaiyyətin nəqliyyat sisteminə etimadının möhkəmlənməsinə şərait yaradacaq.

**"Azərbaycanda infrastrukturun inkişafı, elektromobillik və bərpa olunan enerjinin saxlanılması həlləri" mövzusunda keçirilən vebinar keçirilib. Vebinarda ölkəmizin enerji sisteminin inkişafı ilə bağlı görülən işlər barədə və digər məsələlər ətrafında məlumat verilib.**

# Azərbaycan Almaniyanın enerji marağında

İlk olaraq, Azərbaycan Almaniyanın Enerji Həlləri Təşəbbüsünün 2026–2027-ci illər üzrə prioritet bazarları siyahısına daxil edilməsi ilə bağlı müzakirə təşkil olunub. Bu barədə Bərpa Olunan Enerji Akademiyasının (RENAC AG) beynəlxalq ticarətə dəstək şöbəsinin direktoru Lora Şarlax məlumat verib.

Onun sözlərinə görə, 20 ildən artıqdır fəaliyyət göstərən təşəbbüsün əsas məqsədi qabaqcıl enerji texnologiyaları vasitəsilə yeni bazarların öyrənilməsində Almaniyanın kiçik və orta müəssisələrinə dəstək olmaq və qlobal iqlim mühafizəsinə töhfə verməkdir. Təşəbbüs enerji istehsalı, "yaşıl hidrogen", geotermal texnologiyalar, enerji infrastrukturu və enerji səmərəliliyi daxil olmaqla geniş istiqamətləri əhatə edir.

L.Şarlax bildirib ki, təşkilat 80-dən çox ölkədə fəaliyyət göstərir və dünyanın müxtəlif regionlarında 150-yə yaxın layihə həyata keçirir. Onun sözlərinə görə, Azərbaycan və Mərkəzi Asiya dövlətləri 2026–2027-ci illər üçün hədəf bazarlar sırasına daxil edilib.

Alman–Azərbaycan Xarici Ticarət Palatasının (AHK Azerbaijan) maraqlı tərəflərlə əlaqələr və tərəfdaşlıq şöbəsinin rəhbəri Yuliya Eqel bildirib ki, səfər çərçivəsində Azərbaycanın Energetika Nazirliyinin nümayəndələri ilə görüşün keçirilməsi və birgə fəaliyyət imkanlarının müzakirəsi nəzərdə tutulur.

Onun sözlərinə görə, Azərbaycan Cənubi Qafqazın ən böyük iqtisadiyyatına malik ölkəsi olmaqla yanaşı, yüksək iqtisadi artım dinamikası nümayiş etdirir. Qeyri-neft-qaz sektorunda İKT, turizm və nəqliyyat əsas hərəkətverici qüvvələr kimi qiymətləndirilir.

Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Hidrogen və yaşıl texnologiyalar şöbəsinin müdiri Fuad Müştaqov bildirib ki, Azərbaycanın Çinin Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu (EPPEI) ilə apardığı birgə tədqiqat ölkənin enerji infrastrukturu üzrə inkişaf yol xəritəsinin hazırlanmasına imkan verəcək.

Onun sözlərinə görə, aprelin 6-da EPPEI ilə enerji şəbəkəsinin hərtərəfli təhlilinə dair saziş imzalanıb. Tədqiqat çərçivəsində generasiya və iqtisadi dispetçerləşdirmənin modelləşdirilməsi üçün PLEXOS, şəbəkənin statik və dinamik dayanıqlığının qiymətləndirilməsi üçün isə "DIgSILENT PowerFactory" proqramlarından istifadə edilir. Tədqiqat 22 müxtəlif ssenarini əhatə edir.

O bildirib ki, Azərbaycan hazırda Milli Hidrogen Strategiyasının həyata keçirilməsi planını da hazırlayır. Norveçin "DNV Energy Systems" şirkəti tərəfindən aparılan tədqiqat əsasında hazırlanacaq plan 9 əsas istiqaməti əhatə edəcək.

"SOCAR Green" şirkətinin Texnologiyalar və innovasiyalar departamentinin direktoru Elçin Tarquliyev isə bildirib ki, Azərbaycanda bərpa olunan enerji mənbələri üzrə hibrid obyektlər konsepsiyası üzərində aktiv iş aparılır. Onun sözlərinə görə, ölkədə Batareya Enerji Saxlanc Sistemlərinin (BESS) inteqrasiyasının ilkin mərhələsi həyata keçirilir. Hazırda hər biri 125 MVt gücündə iki layihə reallaşdırılıb və həmin sistemlər şəbəkə operatorunun mülkiyyətində və idarəçiliyindədir. O, həmçinin Azərbaycanda hər biri 200 MVt gücündə nəzərdə tutulan üç ofşor külək layihəsinin ilkin qiymətləndirmə mərhələsində olduğunu bildirib. Onun sözlərinə görə, ilkin proqnozlara əsasən, 2040-cı ilədək Azərbaycanda ofşor külək enerjisi istehsalının gücü təxminən 6–7 QVt-a çata bilər. Beynəlxalq Maliyyə Korporasiyasının qiymətləndirməsinə əsasən, Azərbaycanın dəniz külək enerjisi üzrə texniki potensialı 150 QVt-dan çoxdur, kommersiya baxımından reallaşdırıla bilən potensial isə ilkin hesablamalara görə təxminən 38 QVt təşkil edir.



Vebinarda Almaniyanın "Allianz Trade" ixrac-kredit agentliyinin Azərbaycandakı bərpa olunan enerji layihələrinin maliyyələşdirilməsinə yanaşması da açıqlanıb.

Agentliyin Afrika, Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya bölməsinin anderrayteri Annika Rixter-Raxman bildirib ki, Azərbaycanda bərpa olunan enerji layihələri üçün təqdim edilən sığorta təminatın həcmində sabit limit müəyyən edilməyib.

A.Rixter-Raxmanın sözlərinə görə, Almaniya təchizatçılarından mal və xidmətlər alan Azərbaycan şirkətləri üçün uzunmüddətli kreditləşmə imkanları mövcuddur. Standart kreditlər üzrə ödəniş müddəti 15 ilədək, ekoloji və "yaşıl" layihələr üzrə isə 22 ilədək ola bilər.

O qeyd edib ki, "yaşıl" layihələrdə Almaniya komponentinin payına dair tələblər də daha çevikdir. Belə layihələrdə Almaniya iştirakının minimum həddi 30 faiz təşkil edir, standart sövdələşmələrdə isə bu göstərici 51 faizdir.

Beləliklə, vebinarda səsləndirilən açıqlamalar Azərbaycan-Almaniya enerji əməkdaşlığının bərpa olunan enerji, enerji saxlanc sistemləri, elektromobillik, rəqəmsallaşma və infrastruktur istiqamətlərində genişləndirilməsi üçün yeni imkanların formalaşdığını göstərib.

***NA BDALOV***
***XQ***

## Ermənistana 989 ton dizel göndərilib



**Azərbaycandan Ermənistana növbəti tədarük həyata keçirilib. Dünən 17 çən – 989 ton olan dizel yanacağı Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə göndərilib.**

Qeyd edək ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 55 min tondan çox taxıl, 9 min tona yaxın gübrə, 1414 ton propan, 133 ton alüminium , 1114 ton kömür və 334 ton taxta göndərilib.

Eyni zamanda, indiyədək Azərbaycandan Ermənistana 15 min tona yaxın dizel, 5 min tona yaxın Aİ-92 və Aİ-95 benzini ixrac olunub.

*XQ*

# Neft Fondunun səhmlərdən gəliri 11 milyard dollara çatıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) inkişaf etmiş ölkələrdə kotirovka olunan səhmlər üzrə portfelinin cari dəyəri bu ilin ilk yarısında 18 milyard ABŞ dollarına çatıb.**

Bu barədə Fonddan bildirilib ki, 2025-ci ilin sonunda portfelin cari dəyəri 16,5 milyard dollar olub. Beləliklə, 2026-cı ilin ilk yarısında portfelin cari dəyəri 1,5 milyard dollar və ya 9,1 faiz artıb.



30 iyun 2026-cı il tarixinə ARDNF-nin bu istiqamətdə investisiya etdiyi vəsait 7,1 milyard dollar təşkil edib. Portfelin yarandığı tarixdən əldə olunan gəlir isə 10,9 milyard dollara çatıb və gəlirlilik 370 faiz olub.

Müqayisə üçün, 2025-ci ilin sonunda əldə olunan gəlir 9,4 milyard dollar, gəlirlilik isə 330 faiz təşkil edirdi. Bu baxımdan, ilin ilk yarısında yığılmış gəlir 1,5 milyard dollar və ya təxminən 16 faiz artıb.

Qeyd edək ki, ARDNF səhm investisiyalarında əsasən passiv idarəetmə strategiyasından istifadə edir və "MSCI World" indeksini izləyir. İndeks 23 inkişaf etmiş ölkənin 11 sektoru üzrə 1 283 şirkətin səhmlərini əhatə edir.

*XQ*

# Alternativsiz gələcək – rəqəmsal dünyaya keçid

## *Azərbaycan iqtisadiyyatı qlobal texnoloji yenilikləri sürətlə mənimsəyir*

**Dünyada iqtisadi inkişafın yeni mərhələsi rəqəmsal texnologiyaların sürətlə tətbiq edilməsi, məlumatların iqtisadi resursa çevrilməsi, istehsal proseslərinin avtomatlaşdırılması və süni intellektin qərarvermə mexanizmlərinə qovuşması ilə müəyyən olunur. Eyni zamanda, bu gün rəqəmsallaşma ayrı-ayrı müəssisələrin və ya şirkətlərin fəaliyyətinin təkmilləşdirilməsində müsbət rol oynamaqla yanaşı, milli iqtisadiyyatların rəqabət qabiliyyətini müəyyənləşdirən strateji amil kimi dəyərləndirilir.**



Azərbaycan da qlobal texnoloji transformasiya prosesindən kənarda qalmır. Son illər ölkədə rəqəmsal iqtisadiyyatın formalaşdırılması, dövlət idarəçiliyində rəqəmsal həllərin genişləndirilməsi, sahibkarlıq subyektlərinin yeni texnologiyalara çıxışının asanlaşdırılması, süni intellekt imkanlarından istifadənin diqqət mərkəzində saxlanılması və sənayedə "Sənaye 4.0" yanaşmalarının tətbiqinə üstünlük verilməsi istiqamətlərində mühüm addımlar atılır.

Bu prosesin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, rəqəmsal transformasiya artıq yalnız informasiya-kommunikasiya texnologiyaları sektorunun inkişafı ilə məhdudlaşmır. Eyni zamanda, onun təsir dairəsi iqtisadiyyatın ənənəvi sahələrini də əhatə edir. Sənaye müəssisələrində istehsalın avtomatlaşdırılması, banklarda süni intellekt əsaslı risk qiymətləndirilməsi, kənd təsərrüfatında peyk və dron məlumatlarının dəqiq təhlilinin aparılması, su ehtiyatlarının rəqəmsal idarə olunması, səhiyyədə məlumat əsaslı xidmət və "ağıllı şəhər" modelləri tətbiqinin diqqətdə saxlanılması bunun konkret nümunələridir.

### 30 faizlik səmərə iksiri

İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin ("4SİM") həyata keçirdiyi "Rəqəmsal İqtisadiyyatın İnkişafına Dəstək Proqramı" sənayedə rəqəmsallaşmanın transformasiyası baxımından xüsusi önəm daşıyır. Sənədin əsas məqsədi yerli müəssisələrin texnoloji hazırlıq səviyyəsinin qiymətləndirilməsi, onların rəqəmsal transformasiya ilə bağlı bacarıqlarının artırılması və qabaqcıl texnologiyaların istehsal proseslərinə inteqrasiyasına dəstək göstərilməsidir.

Proqram çərçivəsində respublikamızın müxtəlif bölgələrində istehsal müəssisələri olan, eləcə də Bakı və Sumqayıt şəhərlərində iki bazası fəaliyyət göstərən "METAK" ticarət və sənaye şirkəti artıq texniki xidmətlərin göstərilməsi, eləcə də təmir prosesləri ilə bağlı rəqəmsallaşma layihələrini uğurla başa çatdırıb, istehsalın avtomatlaşdırılmasına və real vaxt rejimində idarə olunmasına imkan verən yeni texnoloji həllərin tətbiqinə başlayıb.

"4SİM"in yaydığı məlumata görə, polad boru və profil istehsalı sahəsində səmərəli fəaliyyət göstərən bu müəssisə proqramın pilot mərhələsindən etibarən rəqəmsallaşma təşəbbüsünə qoşulub. "SİM"in dəstəyi ilə burada aparılan diaqnostika nəticəsində texnoloji transformasiya üzrə prioritet istiqamətlər müəyyənləşdirilib, fərdiləşdirilmiş yol xəritəsi hazırlanıb və istehsal proseslərinin mərhələli rəqəmsallaşdırılmasına başlanılıb.

Hazırda şirkətdə polad boru və profil istehsalında soyutma, yağlama və filtrasiya prosesinin avtomatlaşdırılması üzrə yeni həll tətbiq olunur. Bunun nəticəsində istehsalda istifadə edilən məhlul sərfinin 30 faizədək azaldılması, boşdayanmaların və texniki xidmət xərclərinin aşağı salınması, avadanlıqların istismar müddətinin uzadılması və məhsul keyfiyyətinin yüksəldilməsi gözlənilir.

Xatırladaq ki, İqtisadiyyat Nazirliyinin dəstəyi ilə icra olunan "Rəqəmsal İqtisadiyyatın İnkişafına Dəstək Proqramı" təkcə sözügedən ticarət və sənaye şirkətinin işilə məhdudlaşmır. Proqramın icrası respublikadakı digər yerli müəssisələrin fəaliyyətini də əhatə edir. Bu, texnoloji transformasiyanın sürətləndirilməsi, qabaqcıl texnologiyaların tətbiqinin genişləndirilməsi və onların rəqabət qabiliyyətinin artırılması məqsədi daşıyır.

Bütün bunlarla bərabər, proqram çərçivəsində müəssisələrin texnoloji hazırlıq səviyyəsi qiymətləndirilir, transformasiya üzrə prioritet istiqamətlər müəyyənləşdirilərək fərdiləşdirilmiş yol xəritələri hazırlanır və müvafiq texnoloji həllərin tətbiqinə dəstək göstərilir. Proqram sənaye müəssisələrində "Sənaye 4.0" yanaşmalarının tətbiqinin genişləndirilməsinə və ölkədə rəqəmsal iqtisadiyyatın inkişafına töhfə verməyi hədəfləyir. Bu yanaşma, eyni zamanda, müasir sənayedə geniş yayılan proqnozlaşdırıcı texniki xidmət modelinə uyğun gəlir.

Ənənəvi yanaşmada isə avadanlıq ya müəyyən müddətdən sonra planlı şəkildə təmir olunur, ya da nasazlıq yarandıqdan sonra müdaxilə edilir. Rəqəmsal sistemlər isə avadanlığın iş rejimi haqqında məlumatların davamlı təhlilini aparmaqla nasazlığın başvermə ehtimalını əvvəlcədən müəyyənləşdirməyə imkan verir. Beləliklə, müəssisə həm gözlənilməz dayanmalardan, həm də əlavə təmir xərclərindən qorunur.

Eyni zamanda, texnologiyanın tətbiq edilməsi həm müəssisənin, necə deyərlər, müasir görünməsini, həm də müsbət iqtisadi göstəricilərin qeydə alınmasını şərtləndirəcək.

İstehsal xərclərinin azalması isə məhsulun maya dəyərinin aşağı düşməsinə və onun bazardakı rəqabət qabiliyyətinə müsbət təsir göstərəcək. Başqa sözlə, bir müəssisədə tətbiq edilən rəqəmsal həll son nəticədə digərinin daxili səmərəliliyinin gerçəkləşməsinə, yerli məhsulun həm daxili, həm də xarici bazarlardakı mövqeyinin güclənməsinə xidmət edəcək.

### Bank sektoru "süni intellekt"ləşib

Rəqəmsal transformasiyanın növbəti və daha mürəkkəb mərhələsi süni intellekt texnologiyalarının geniş tətbiqidir. Belə ki, əgər əvvəlki mərhələdə əsas məqsəd məlumatların elektronlaşdırılması və proseslərin avtomatlaşdırılması idisə, indiki süni intellekt mərhələsində isə sistemlərin həmin məlumatları təhlil etməsi, nəticə çıxarması, proqnoz verməsi və müəyyən qərarların qəbuluna dəstək göstərməsi ön plana keçir. Bir sözlə, bu dəyişiklik iqtisadiyyatın bütün sahələrində yeni imkanlar yaradır.

Maliyyə sektorunda kredit risklərinin qiymətləndirilməsi, kiberdələduzluğun aşkarlanması, müştəri davranışları təhlilinin aparılması və fərdiləşdirilmiş xidmətlərin göstərilməsi də süni intellektin iqtisadi səmərə yarada biləcəyi istiqamətlərdir. Azərbaycanın bank sektorunda baş verən proseslər də bu tendensiyanın ölkəmizə artıq daxil olduğunu göstərir.

Azərbaycan Beynəlxalq Bankının (ABB) fəaliyyətində süni intellektin tətbiq edilməsi xüsusi diqqət çəkir. Adıçəkilən maliyyə qurumunda sözügedən istiqamətdə həyata keçirilən layihələr bu baxımdan mühüm önəm daşıyır. Bankda ağır hesablama əməliyyatları üçün nəzərdə tutulan və 8 müasir qrafik prosessorunu birləşdirən yüksək performanslı server platformasının quraşdırılması süni intellekt infrastrukturunun yaradılması baxımından mühüm addımdır. Belə infrastrukturun əhəmiyyəti təkcə texniki imkanlarla ölçülmür. Böyük dil modelləri, sənəd analizi, geniş həcmli məlumatların emalı, çatbotlar, səsli köməkçilər və digər süni intellekt tətbiqləri üçün yüksək hesablama gücü tələb olunur.

Məlumatların ölkə daxilində yerləşən infrastrukturda emal olunması isə maliyyə sektoru üçün ayrıca əhəmiyyət daşıyır. Çünki bankların sərəncamında olan məlumatların mühüm hissəsi kommersiya baxımından həssasdır. Bu səbəbdən yerli süni intellekt infrastrukturunun formalaşdırılması həm texnoloji müstəqillik, həm də məlumat təhlükəsizliyi baxımından önəmli üstünlüklər yaradır.

ABB-nin açıqladığı məlumata görə, hazırda bankda 86-dan çox istifadəçi təcrübəsi üzrə 180-dən çox tətbiqi reallaşdırılan süni intellekt modeli əsasında 50 milyon manatdan çox müsbət maliyyə təsiri formalaşıb. Bu rəqəmlər süni intellektin artıq nəzəri və perspektiv istiqamət olması ilə bərabər, eyni zamanda, düzgün tətbiq edildiyi halda konkret iqtisadi nəticələr yarada biləcəyini göstərir.

### Rəqəmsallaşmada "canlı kapital"

Süni intellektin tətbiqi bu gün bank sektoru ilə yanaşı, iqtisadiyyatın digər sahələrində də diqqət mərkəzində saxlanılır. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın üzvü, Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Abbasovun sözlərinə görə, məşğulluğun böyük hissəsini əhatə edən kənd təsərrüfatında peyk və dron görüntülərini emal edən "ağıllı aqrar" sistemlər torpağın rütubətini, məhsuldarlığını və bitki xəstəliklərini erkən mərhələdə aşkarlamağa imkan verir. Ən əsası isə qlobal su qıtlığı fonunda regional su istifadəçiləri birliklərinin yenidən qurulması, suvarma sistemlərinin avtomatlaşdırılması və su ehtiyatlarının rəqəmsal, ədalətli paylanmasında süni intellektin tətbiqi su israfçılığının qarşısını almağa mühüm təsir göstərir.

Elvin Abbasovun bildirdi ki, bu məsələdə digər mühüm istiqamət dövlət idarəçiliyi, bələdiyyələrin rəqəmsallaşması və "Ağıllı şəhər/kənd" modelləridir. "Smart Municipality" platformalarında infrastruktur xərclərinin optimallaşdırılması, nəqliyyat axınının tənzimlənməsi, tullantıların idarə olunması və ictimai xidmətlərin rəqəmsal paylanılması dataya əsaslanan süni intellekt alqoritmləri ilə həyata keçirilməlidir. Bu yanaşma həm büdcə vəsaitlərinə ciddi qənaəti gerçəkləşdirir, həm də vətəndaş məmnuniyyətini və şəffaflığı artırır.

O, söhbətində maliyyə-bank sahəsi və səhiyyə ekosisteminin süni intellekt texnologiyalarının aktiv fəaliyyət zonasına çevrilməsinin də zəruri olduğunu diqqətə çatdırdı. Eyni zamanda, bank sektorunda böyük verilənlər (Big Data) vasitəsilə kiberfırıldaqçılıq hallarının real vaxt rejimində qarşısının alınması ilə milli rəqəmsal arxitekturanın təhlükəsizliyinin möhkəmləndirildiyini vurğuladı. Səhiyyədə isə fərdi tibbi məlumatların analizinin, eləcə də evdə tibbi qulluq xidməti göstərən startap platformalarında logistikanın, habelə pasiyent-tibb bacısı koordinasiyasının süni intellekt ilə qurulmasının əhalinin sağlamlıq keyfiyyətini kökündən dəyişdirdiyini xatırlatdı.

Rəqəmsal transformasiyanın uğuru təkcə yeni serverlərin, proqramların və avadanlıqların alınmasından asılı deyil. Burada ən vacib məsələ həmin texnologiyalardan istifadə edə biləcək insan kapitalının formalaşdırılmasıdır. Başqa sözlə, süni intellekt mühəndisləri, data analitikləri, kibertəhlükəsizlik mütəxəssisləri, avtomatlaşdırma mühəndisləri və rəqəmsal idarəetmə üzrə peşəkarlardan ibarət yeni iqtisadiyyatın əsas kadr potensialı yaradılmalıdır.

Bu baxımdan ali məktəblər, peşə təhsili müəssisələri, tədqiqat mərkəzləri və biznes arasında əməkdaşlığın gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Rəqəmsal iqtisadiyyat quruculuğunda əsas hədəflərdən biri də Azərbaycanı texnologiyaları xaricdən hazır formada alan ölkədən həmin texnologiyaları yerli mütəxəssislərlə inkişaf etdirən və ixraca yönəldə bilən ölkəyə çevrilməkdir.

Respublikamızın son illər həyata keçirdiyi iqtisadi siyasətin əsas istiqamətlərindən biri də qeyri-neft-qaz sektorunun inkişaf etdirilməsi və iqtisadiyyatın şaxələndirilməsidir. Bu prosesin növbəti mərhələsində rəqəmsallaşmanın xüsusi rol oynayacağı gözlənilir. Çünki rəqəmsal texnologiyalar iqtisadiyyatın ayrı-ayrı sahələrini bir-birindən təcrid olunmuş şəkildə deyil, vahid ekosistem kimi inkişaf etdirməyə imkan verir.

Müasir sənaye müəssisəsi rəqəmsal bank xidmətlərindən istifadə edir, bank süni intellekt vasitəsilə istehsal müəssisəsinin maliyyə risklərini qiymətləndirir, aqrar şirkət peyk məlumatlarından yararlanır, logistika operatoru süni intellektlə marşrut qurur, dövlət qurumu da bütün bu proseslərin rəqəmsal platformalar üzərindən daha səmərəli koordinasiyasını həyata keçirir. Azərbaycanın qarşısında isə bu resursdan səmərəli istifadə etməklə məhsuldarlığı yüksəltmək, xərcləri azaltmaq, yerli məhsulların rəqabət qabiliyyətini artırmaq və yeni texnoloji bizneslərin formalaşmasına şərait yaratmaq kimi önəmli vəzifələr durur.

***Vaqif BAYRAMOV***
***XQ***

# 430 kilometrlik Zəfər marafonu

## *Qarabağ qazisi Firuz Əlizadə yayın qorabişirənində bu qədər yolu piyada qət edib*




**Dövlət Neft Şirkətinin mühəndisi, Birinci Qarabağ müharibəsi veteranı Firuz Əlizadə uzun illər ürəyində yaşatdığı arzunu bugünlərdə gerçəkləşdirib. Bakıdakı Şəhidlər xiyabanından mədəniyyət paytaxtımız Şuşaya qədər 430 kilometrlik məsafəni 9 gün 4 saata piyada qət edib.**

Firuz Əlizadə söhbət zamanı Şuşa yürüşünə Şəhidlər xiyabanından başlamasının təsadüfi olmadığını, bu müqəddəs məkanın Azərbaycan xalqının milli yaddaşında xüsusi yer tutduğunu, burada uyuyan şəhidlərin ölkəmizin müstəqilliyi və azadlığı uğrunda mübarizə rəmzinə çevrildiyini dedi. O, Qarabağ yürüşünün Şuşada başa çatmasını isə bu qala şəhərin düşmən əsarətindən xilas edilməsi ilə Vətən tariximizin qəhrəmanlıq salnaməsinə daha parlaq bir səhifə yazılması və qədim yurd yerimizin azadlığı uğrunda 30 illik ölüm-dirim mübarizəsinin son akkordu olması ilə əlaqələndirdi.

Bildirdi ki, Birinci Qarabağ müharibəsində onunla döyüşənlərin, şəhid olanların və sağlamlığını itirən qazilərin arzusu – düşmən işğalında saxlanılan qədim yurd yerlərimizin işğalçıdan geri alınması 2020-ci ildə müzəffər Ordumuzun parlaq qələbəsi ilə gerçəkləşdi. Azərbaycanın gənc nəsli 44 günlük bu savaşda misilsiz qəhrəmanlıq və şücaət göstərərək tarixi Zəfərin qazanılmasında əsas hərəkətverici qüvvə kimi diqqət çəkdi.

Müharibə veteranı yol boyu gördüklərindən də ətraflı danışdı. Bu gün işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələrinin Azərbaycanın gələcəyinə, sabitliyə və dayanıqlı inkişafa yönələn strateji xəttin bir hissəsi olduğunu vurğuladı. O, bu torpaqların artıq yalnız xatirələrin deyil, həm də yeni imkanların, innovasiyaların, sosial və iqtisadi dirçəlişin məkanı olduğunu, qurulan hər bir infrastrukturun və icra edilən hər bir sosial layihənin əsasında böyük bir ideyanın – bütün xalqın gücünü və birliyini əks etdirən dirçəliş ruhunun dayandığını, milli kimliyimizin, tarixi ədalətin və dövlətimizin suverenliyinin möhtəşəm təntənəsi, gələcəyə inamın, əzmin və ümummilli birliyin parlaq ifadəsi olduğunu söylədi.

**Firuz Əlizadə sonda Şuşa təəssüratını XQ-yə belə açıqladı:**

– Əzəli-əbədi yurd yerimiz olan Şuşanı 28 ildən çox əsarətdə saxlayan erməni işğalçıları onun simasını dəyişməyə cəhd göstərib, xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirib. Amma bu, Şuşanı sındırmayıb, əyməyib. Dövlətimizin başçısının vurğuladığı kimi, mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirməyə gücü çatmayıb.

Doğma torpağın hər qarışı, hər bir şəhər və kəndi bizim üçün əzizdir. Amma alınmaz qala, Qarabağın tacı sayılan Şuşanın tariximizdə öz yeri var. Bu qala şəhəri həm də mədəniyyətimizin beşiyidir. Prezident İlham Əliyevin Şuşanı rəsmən Azərbaycanın Mədəniyyət Paytaxtı elan etməsi isə onun tarixi- mənəvi dəyərlərindən qaynaqlanır.

***V.BİNYATOĞLU***
***XQ***

*Qarabağ əsilzadələri*

# Şuşanın təməlini qoyan nəsillərdən biri – Şirinbəyovlar

## *İbrahimxəlil xan onların babasına “bəy” titulu vermişdi*

**Bu şöhrətli nəslin əsil-nəcabəti neçə-neçə görkəmli şəxsiyyətin ulu babası, Qarabağda baş verən ictimai-siyasi, tarixi hadisələrin şahidi və fəal iştirakçısı Əlinağı bəyə gedib çıxır. Onun atası Şuşa qalasının təməl daşlarını qoyanlardan və ilk sakinlərindən olub, ömrü boyu şəhərin əvvəlinci məhəlləsində – Çuxur məhəllədə yaşayıb, qalanın xarici və daxili düşmənlərdən qorunmasında dəfələrlə iştirak edib, igid və cəsur döyüşçü kimi ad çıxarıb, Şuşanın inkişaf edib böyüməsində xüsusi rolu olub. Və məhz bu misilsiz xidmətlərinə, vətəndaşlıq keyfiyyətlərinə görə Qarabağ hakimi İbrahimxəlil xan Cavanşir ona “bəy” titulu verib.**




Əlinağı bəyin oğlu Şirin bəy XVIII yüzilliyin sonlarında (1794) Şuşada dünyaya göz açıb. Təxminən, 80 il ömür sürüb, böyük bir sülaləyə başçılıq edib, nəslin ağsaqqalı olub. İbtidai dini təhsillə kifayətlənməyib, Qurani-Kərimlə bərabər, yazı-pozu işlərini də mükəmməl öyrənib. Dövrün aparıcı peşələrindən sayılan və şuşalıların daha çox həvəs və meyil göstərdikləri ticarəti seçib, bütün həyatı boyu bu sahə ilə məşğul olub. Həm bəy adını kişi kimi, qürurla daşıyıb, həm də Qarabağda ticarət işlərinin təşkilatçılarından və əsl bilicilərindən hesab olunub.

Şirin bəyin Şuşada təkrarolunmaz tikinti üslubu ilə seçilən, şəhərə xüsusi memarlıq gözəlliyi və görünüşü verən, eləcə də cürbəcür cizgiləri, daxili zənginliyi və zahiri gözəlliyi ilə məhəllənin bəzəyinə çevrilən möhtəşəm və gözəgəlimli, topdağıtmaz ikimərtəbəli imarəti vardı. Bina Qarabağ xanlarının yaşadıqları Çuxur məhəllə ilə Qurdlar məhəlləsinin kəsişdiyi yerdə – Xanlıq qapısının düz ağzında tikilmişdi. İmarət bir tərəfdən Allahverənli Salman bəyin, o biri yandan Hacı İbrahimin mülklərinə söykənirdi. Qarşıda isə Məşədi Murtuzanın (müğənni Bülbülün atasının) evi yerləşirdi.

Şuşalı zövqünün gözəlliyini, özəlliyini, rəngarəngliyini özündə əks etdirən və uzaqdan daha əzəmətli, möhtəşəm, gözəgəlimli, cazibədar görünən bu maraqlı və orijinal bina 19-cu yüzilliyin 70-ci illərində inşa edilmişdi. Tikintidə yerli materiallardan – çaylaq daşından, çiy və bişmiş kərpicdən, yonulmuş sal daşlardan istifadə olunmuşdu. Binanın iri bişmiş kərpicdən naxışlarla bəzədilmiş tağlı darvazası, geniş eyvanı, bağ-bağatı vardı.

İmarətin hər iki mərtəbəsində 40-45 kvadratmetr sahəsi olan böyük bir otaq və mətbəx, yuxarı mərtəbəsindəki otağın qarşısında geniş artırma vardı. Yay vaxtı gecələr bütün ailə burada yatırdı. Mətbəxin qarşısında isə yaşıllığa bürünmüş səfalı həyətə baxan eyvan vardı. Həyətdə çoxlu meyvə və bəzək ağacları (3 tut, 1 armud, 1 alma, 1 gavalı, 1 yasəmən) əkilmişdi. Evin hasarlarının dibində isə hər mövsümdə qoxusu bütün məhəlləni bürüyən bənövşələr açırdı...

Şirin bəy ömür-gün yoldaşı Tükəzban xanımla birlikdə bu ocaqda 5 oğul, 1 qız övladı böyüdüb boya-başa çatdırıblar: Hüseyn bəy (1829), Həsən bəy (1834), Tağı bəy (1843), Məhəmməd bəy (1846), Zeynalabdin bəy (1848) və Ayna xanım (məşhur həkim Əbdülkərim bəy Mehmandarovun anası). Ailənin böyük övladı Hüseyn bəy mədrəsə təhsili görüb, gəncliyində müsəlmanların daha çox üz tutduqları Məkkəni ziyarət etdiyinə görə “hacı” titulu alıb. Bir müddət atasının peşəsini davam etdirib, sonralar Qarabağ və Mil düzlərində hektarlarla pambıq sahəsi icarəyə götürüb. Uzun müddət kənd təsərrüfatı işləri ilə məşğul olub. 1896-cı ildə kiçik qardaşı Zeynalabdin bəylə birlikdə “Govurarx” kanalını müqavilə ilə 33 illiyə icarəyə götürüb. Şirinbəyovlar nəslinin bütün kişi üzvləri kimi o da “kavaler” ləqəbi daşıyıb, bütün Qarabağda “Kavalerli Hüseyn” kimi tanınıb.

Şirin bəyin ikinci oğlu Həsən bəy İraqa səfərlərinin birində İmam Hüseynin qəbrini ziyarət etdiyinə görə “Kərbəlayı” adı qazanıb. XIX əsrin 70-ci illərində dövlətdən qaçaq düşüb, böyük ad-san sahibi olub, igidliyi ilə elinə, obasına, nəslinə, kökünə başucalığı gətirib. Mənfur ermənilərə, qaniçən rus məmurlarına, həm də onlara quyruq bulayan “sapı özümüzdən olan baltalar”a qarşı amansız olub, ömrünün sonunadək belə ünsürlərlə mübarizə aparıb. Demək olar ki, həyatının çox hissəsini həbsxanalarda keçirib.

Həsən bəyin 6 oğlu olub: Ağalar bəy (təvəllüdü 1869), Yusif bəy (1871), Xanlar bəy (1874), Bəylər bəy (1877), Cəmil bəy (1882) və Şamil bəy (1884). Onun bəzi törəmələri sonralar Həsənov familiyasını götürüblər.

Şirin bəyin 3-cü oğlu Tağı bəydir. Atası evini övladları arasında bölüşdürəndə mülkün üçdəbir hissəsi ona düşüb. Tağı bəy də həyatını ticarətlə bağlayıb. Böyük qardaşı Həsən bəy kimi başı çox bəlalar çəkib, ömrünün bir çox illərini sürgündə və qazamatda keçirib, bir müddət Qarabağdan uzaqlarda yaşayıb, təsadüfi düşmən gülləsinə tuş gəlib.

Məhəmməd bəy ailədə 6 övladın 4-cüsü idi. Həyatda onun da bəxti gətirməyib. Böyük qardaşları Həsən bəy və Tağı bəy kimi qaçaq həyatı yaşayıb. Xalq qəhrəmanı Qaçaq Nəbinin əməl yoldaşı, sirdaşı, dostu olub, igidlikdə heç də ondan geri qalmayıb, bir an da olsa, əlindən tüfəng düşməyib, ölənə qədər çar üsul-idarəsinə qarşı vuruşub. Dəfələrlə həbsxanaya düşüb, soyuq Sibirdə sürgün həyatı keçirib, həm də “Sufi” təxəllüsü ilə yazıb-yaradıb. İranda səfərdə ikən xəyanətin qurbanı olub.

Şirinbəyovlar Qarabağda igidlikdə, vurub-tutmaqda, namus-qeyrətdə ad çıxarmışdılar. Onlar həm də “tacirlər ailəsi” kimi tanınırdılar.

XIX əsrin 60-70-ci illərində Şuşanın təsərrüfat həyatında aparıcı rol oynayan daxili və xarici ticarətin inkişafı burda peşəkar tacirlər zümrəsinin çoxalmasına səbəb olub. Qala zəngin və alıcılıq qabiliyyəti güclü olan ticarət mərkəzi kimi Cənubi Qafqazın məşhur şəhərlərindən birinə çevrilib. Təsadüfi deyildi ki, bütün Zaqafqaziyada “bəylər şəhəri” kimi tanınan Şuşa həm də “tacirlər şəhəri” statusu almışdı.

Həm daxili, həm də xarici ticarət işləri ilə məşğul olan Şirinbəyovların tacir övladlarının çalışqanlığı və işgüzarlığı sayəsində əhali xeyli varlanmış, özləri isə mal ticarət dövriyyəsi olanların siyahısına düşmüşdülər. Alış-verişi həmişə düz və təmiz olan, hər şeyi ustalıqla qızıla çevirməyi bacaran Şirinbəyovlar fəaliyyət dairələrini getdikcə genişləndirərək müxtəlif ölkələrlə işgüzar əlaqələr yaratmış, şəhərdə ticarəti, demək olar ki, öz əllərinə almışdılar.

Şəhərin mərkəzi küçələri boyu, xüsusilə də, “Böyük bazar”la “Bazarbaş”nı birləşdirən “Rastabazar”da Şirinbəyovların istənilən malı tapmaq mümkün olan dükanları sıralanmışdı. Burda xırdavat mallarından tutmuş ət-süd məhsulları, quru meyvələr, baqqal malları, gil qablar, qızıl-gümüş məmulatları, ipək və sair satılırdı. Bunların çoxu, əsasən, İrandan və Rusiyadan gətirilir, bəzi hallarda isə Bakı və Tiflis bazarlarından alınan mallar Şirinbəyovların vasitəsilə İrana aparılırdı.

Şuşa tacirləri arasında rəqabət getdikcə artırdı və nəticədə bu nəslin tacir övladları daha da varlanırdılar. Şirinbəyovlar Qarabağdan başqa vilayətlərə barama, müxtəlif növ parçalar, bazar iqtisadiyyatının əsasını təşkil edən xalı-xalça aparırdılar. Ən çox işbirliyi qurduqları yerlər isə Təbriz, Bakı, Vladiqafqaz, Aşqabad idi. Ümumiyyətlə, İran və Rusiya ilə ticarət şəbəkələrinin genişlənməsində, mal dövriyyəsinin artmasında, Şuşanın ticarət şəhəri kimi tanınmasında bu nəslin nümayəndələri çox mühüm rol oynamışlar. Təsadüfi deyildi ki, XIX əsrin 70-80-ci illərində Şirinbəyovlar nəslinin nümayəndəsi Tağı bəy “II dərəcəli gildiya” şəhadətnaməsi almışdı.

Şirinbəyovların övladları bütün həyatlarını ticarətlə bağlamış, bu sahənin inkişafı və çiçəklənməsi yolunda böyük zəhmətə qatlaşaraq adlarını Qarabağın iqtisadi tarixinə pozulmaz hərflərlə yazmışlar. Bu nəslin Şirin bəylə başlanan ticarət işlərini sonralar Zülfüqar bəy, Muxtar bəy, Azad bəy, Səməd bəy, Həsən bəy, Tağı bəy, Zeynalabdin bəy, Məhəmməd bəy kimi nümayəndələri öz ata-baba peşələrini layiqincə davam etdirmişlər.

Şirinbəyovlar şəhərin ziyalı-dövlətli adamları kimi bütün varlıqları ilə çalışırdılar ki, vətənləri Şuşa nəinki ticarət şəhəri, həm də Qarabağın mədəni mərkəzi kimi də tanınsın, məşhurlaşsın, şöhrət tapsın...

Ümumiyyətlə, Şirinbəyov övladları maarif, mədəniyyət, ədəbiyyat, səhiyyə və xalq təsərrüfatının müxtəlif sahələrində yüksək mövqe tutmuşlar. Nəslin məşhur nümayəndələri - Mehdi Hüseynin “Yeraltı çaylar dənizə axır” və Süleyman Vəliyevin “Düyünlər” əsərlərinin baş qəhrəmanı, Azərbaycanın ilk radio diktorlarından biri Ənvər Həsənov, ilk azərbaycanlı alpinist Kamal Həsənov, hərbi təyyarəçi Bəhram Şirinbəyov, aktyor Arif Həsənov, jurnalist Faiq Şirinbəyov, kinorejissor Rüfət Həsənov, rejissor Cəmil Şirinbəyov adlarını Azərbaycan tarixinə yazmışlar.

Mühacir tarixçi-alim, hüquqşünas Qara Hüseynov (Hüseyn Baykara), pedaqoq, 30-cu illər repressiyasının qurbanı Surxay Hüseynov, müəllim Əsəd İbrahimov, millət vəkili Toğrul İbrahimli, mərhum idman və gənclər naziri Azad Rəhimov, iqtisadiyyat sahəsində görkəmli mütəxəssis, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri Rüfət Mahmud və onlarca başqaları bu qollu-budaqlı sülalənin ana xətti üzrə davamçılarıdır.

***Vasif QULİYEV,***
***“Şuşa” qəzetinin baş redaktoru,***
***Əməkdar jurnalist***

***Redaksiyadan:*** *Şirinbəyovlar nəslinin görkəmli nümayəndələrindən biri – erməni daşnakların qətlə yetirdiyi Tağı bəy Şirinbəyovun faciəli tarixçəsini oxucularımıza “XQ”nin növbəti sayında təqdim edəcəyik.*

*Turan elləri*

# Turizm türk dövlətlərini daha da yaxınlaşdırır

**Azərbaycan təbii gözəllikləri, modern turizm infrastrukturu, əhalisinin ənənəvi qonaqpərvərliyi ilə böyük turizm potensialına malik ölkələrdəndir. Bu önəmli sahə dövlətin daim diqqət mərkəzindədir. Bu il avqustun 20-də, Prezident İlham Əliyev Azərbaycanda turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramının təsdiq edilməsi ilə bağlı sərəncam imzalayıb. Bununla da, ölkənin turizm sektorunda keyfiyyətcə yeni mərhələnin başlanması üçün geniş imkanlar yaranıb.**

## *Bu sahədə birgə səylər böyük gələcək vəd edir*

Proqramda yerli və xarici sərmayələrin təşviqi, qanunvericiliyin təkmilləşdirilməsi, hava nəqliyyatının turizmin inkişafına töhfəsinin artırılması və digər mühüm istiqamətlər üzrə davamlı işlərin görülməsi nəzərdə tutulub. Sənədə əsasən, 2030-cu ilə qədər Azərbaycana gələn turistlərin sayının 4 milyona çatdırılması proqnozlaşdırılır. Proqramın uğurla icra olunması ölkədə on minlərlə yeni iş yerlərinin açılmasına, əhalinin rifah halının yaxşılaşmasına, büdcə gəlirlərinin artmasına şərait yaradacaq.

Turizm qeyri-neft sektorunun inkişafına mühüm töhfə verməklə bərabər, ölkələrarası mədəni əlaqələrin güclənməsi üçün də geniş imkanlar açır. Bu gün bütün dünyada, xüsusilə Türk Dövlətləri Təkilatına (TDT) üzv ölkələrdə Azərbaycana səfər etmək, ölkəmizi yaxından tanımaq, eyni zamanda, Naftalan və digər populyar sağlamlıq mərkəzlərinin xidmətindən faydalanmaq istəyənlərin sayı artır. Ölkəmiz artıq geniş bir coğrafiyada yeni turizm mərkəzi kimi tanınır. Yeri gəlmişkən, Azərbaycan Turizm Bürosunun (ATB) təşkilatçılığı ilə 21-27 avqust tarixlərində Qazaxıstan və Özbəkistanda tanıtım xarakterli silsilə tədbirlər keçirilib.

Büronun mətbuata açıqlamasında qeyd olunur ki, “Azərbaycan Hava Yolları” QSC (AZAL) daxil olmaqla, 8 yerli turizm sənayesi nümayəndəsinin iştirakı ilə həyata keçirilən proqram Çimkent, Almatı, Astana və Daşkənd şəhərlərini əhatə edib. Qazaxıstan və Özbəkistanda keçirilən toplantılarda, ümumilikdə, 400-dən çox turizm agentliyi, turoperator, aviaşirkət, hotel, media qurumu və digər turizmlə əlaqəsi olan sahələrin nümayəndələri iştirak ediblər. Azərbaycanın zəngin turizm imkanları, bu sahədəki son yeniliklər və müxtəlif turizm məhsulları barədə təqdimatlar olub. İştirakçılara Xəzər dənizi sahilində yerləşən istirahət, dağ-xizək mərkəzləri, sağlamlıq turizmi, qastronomiya, macəra və aktiv istirahət, mədəni turizm imkanları, eləcə də ölkəmizin müasir turizm infrastrukturu haqqında məlumat verilib.

Silsilə toplantılar çərçivəsində keçirilən işgüzar görüşlər Qazaxıstan və Özbəkistanın turizm sənayesi nümayəndələri ilə azərbaycanlı tərəfdaşlar arasında əməkdaşlıq perspektivlərinin və birgə layihələrin icra olunması imkanlarının müzakirəsi üçün platforma rolunu oynayıb. Həmçinin Azərbaycanın zəngin mədəniyyəti, milli mətbəxi və ənənəvi rəqsləri təqdim olunub.

Qeyd edək ki, bu ilin yanvar-iyul aylarında Qazaxıstandan Azərbaycana səfər edənlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 5,5 faiz artaraq 62 min 79 nəfərə çatıb. Özbəkistandan Azərbaycana təşrif buyuran turistlərin sayı isə 40,2 artaraq 42 min 288 nəfər təşkil edib. Beynəlxalq tədqiqatlara əsasən, Mərkəzi Asiya son vaxtlar dünyada turizm sahəsində sürətlə inkişaf edən regionlardan birinə çevrilib. Özbəkistan isə hazırda Mərkəzi Asiyada turizmin inkişafına görə birinci yerdədir.

Turizm böyük gəlirlər deməkdir. Ötən il Mərkəzi Asiya ölkələri beynəlxalq turizmdən 9,9 milyard dollar gəlir əldə edib ki, bu da əvvəlki illə müqayisədə 26,4 faiz artım deməkdir. Bu məbləğin, təxminən, yarısı (4,8 milyard dollar) Özbəkistanın payına düşüb və ölkə turizm xidmətləri üzrə regionda liderliyə yüksəlib.

Ümumdünya Səyahət və Turizm Şurasının qiymətləndirmələrinə görə, Özbəkistan Mərkəzi Asiya ölkələrindən gələn səyahətçilər üçün ən populyar istiqamətdir və regiondakı bütün turist səfərlərinin 25 faizini təşkil edir. Bu siyahıda Özbəkistandan sonrakı yerləri Qazaxıstan (23 faiz), Qırğızıstan (18 faiz) tutur. Ekspertlər Özbəkistanın bu sahədəki lider mövqeyini bu ölkədə turizm infrastrukturunun sürətli inkişafı, viza qaydalarının sadələşdirilməsi, nəqliyyat şəbəkəsinin modernləşdirilməsi, həmçinin Səmərqənd, Buxara, Xivə və Daşkənd kimi populyar turizm mərkəzlərinin beynəlxalq səviyyədə təşviqi ilə əlaqələndirirlər.

Qardaş Türkiyənin turizm sahəsindəki zəngin təcrübəsini öyrənmək və ondan faydalanmaq TDT-yə üzv dövlətlər üçün böyük önəm kəsb edir. Məlumdur ki, Türkiyə hazırda ölkəyə gələn turistlərin sayına görə dünyada beşinci yerdədir. Tarixdə müasir Türkiyə ərazisində bir neçə sivilizasiya mövcud olub. Əlamətdar haldır ki, türklər bunlara yad mədəniyyətlər kimi baxmırlar, əksinə, qədim maddi-mədəniyyət abidələrinin qorunub saxlanılması üçün ən zəruri işlər həyata keçirirlər.

Konkret misal çəkmək istərdik. Məlum olduğu kimi, qədim Troya şəhərinin xarabalıqları Türkiyənin şimal-qərbində, Çanaqqala vilayətində yerləşir. Bəllidir ki, hələ eramızdan əvvəl VIII əsrdə dahi yunan şairi Homer özünün “İliada” əsərində Troya müharibəsini geniş təsvir və tərənnüm etmişdir. O vaxt bəzi həqiqətlər miflərə çevrilib. Beləliklə, bu sirli şəhər özündə 5 min 600 illik sivilizasiya hekayətini hifz edir.

Arxeoloqlar daim qədim Troyanın sirlərini öyrənməyə can atıblar. Onlar şəhərin dağıntıların altında qalan sirlərinin açılması üçün gərgin səylər göstərirlər. Ankarada ingilis dilində nəşr olunan “The Sabah Daily Newspaper” qəzeti bugünlərdə yazıb ki, Troya xarabalıqlarında aparılan yeni qazıntılar zamanı qədim Roma imperiyasının yaranma mifologiyasında xatırlanan 2 minillik Roma dövrünə aid küçə aşkar edilib.

Troya şəhəri 1998-ci ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Tarix boyu müharibələr, yanğınlar və zəlzələlər səbəbindən dəfələrlə dağıdılaraq yenidən qurulan bu qədim şəhər hər il minlərlə yerli və xarici turisti özünə cəlb edir. Hazırda sözügedən arxeoloji ərazini ziyarət edənlər, 2019-cu ildə açılan, 2 minə yaxın eksponatın nümayiş olunduğu Troya Muzeyini də görmək imkanına malikdirlər.

Qazıntı işlərinə rəhbərlik edən həmyerlimiz, professor Rüstəm Aslan jurnalistlərə açıqlamasında bildirib ki, bu il onlar artıq həmin küçənin arxeoloji əraziyə aparan hissəsini üzə çıxarmağa müvəffəq olublar. Xatırladaq ki, qədim Roma dövründə Troya çox böyük şəhərə çevrilmişdi. Professor bunun səbəbini belə izah edib: “İmperator Avqust eramızdan əvvəl 20-ci ildə Troyaya səfərindən sonra maliyyə dəstəyi və digər vasitələrlə şəhəri gücləndirmişdi. Bunun səbəbi, bildiyimiz kimi, Avqustun dahi şair Vergiliyə “Eneida” əsərini yazmağı tapşırması idi.



Məlum olduğu kimi, “Eneida”da sonuncu troyalı yandırılıb məhv edilmiş şəhəri tərk edir və qərbə doğru yola düşür; o, atası Anxizi kürəyində daşıyır, ata oğlunun əlindən tutur və nəhayət, eramızdan əvvəl 776-cı ildə Roma şəhərinin əsasını qoyur. Bir daha xatırladaq ki, Roma İmperiyası özünün yaranma mifologiyasını Troya üzərində qurmuşdu. “Hər kəs bu şəhərin tarixindən və onun qalıqlarından ilham alırdı,” – deyə Rüstəm Aslan bildirib. Məhz buna görə də “imperator Avqustdan sonrakı dövrdə bura gəlməyən, demək olar ki, heç bir Roma əsgəri, yüksək çinli əyanı, siyasətçisi və ya sənətkarı qalmamışdı.”

Arxeoloqlar əmindirlər ki, qazıntı işləri aparılan küçə şəhərin məhz Roma dövrünə aiddir və təxminən e.ə. 20-ci illərdən başlayaraq eramızın 500-cü ilinədək istifadədə olub. Tarixi mənbələr bizim eranın VI əsrində həmin ərazidə iki güclü zəlzələnin baş verdiyini və bundan sonra şəhərin yenidən qurulduğunu göstərir.

Yeri gəlmişkən, bugünlərdə Çanaqqala Bələdiyyəsi tərəfindən 63-cü Beynəlxalq Troya Festivalı keçirilib. Əfsanəvi Troya xarabalıqları arasında təşkil olunan festivala çox sayda qonaq və turist təşrif buyurub.

Mərasimdə çıxış edən Çanaqqala meri Məhərrəm Erkek Troya şəhəri ilə bağlı arxeoloji izlərin, sadəcə, bir yaşayış məskəni deyil, bəşəriyyətin ortaq yaddaşı olduğunu vurğulayıb: “Bu torpaqlarda Homeri oxumaqdan daha çox onu, sanki, canlı olaraq eşidir və hiss edirik; çünki Troya, sadəcə, daşlardan ibarət deyil. Troya bəşəriyyətin öz hekayəsini danışdığı ilk böyük səhnədir. Bəlkə də elə buna görə Troyanı hələ də özümüzə bu qədər yaxın hiss edirik”.

Məhərrəm Erkekin fikrincə, “sülh şəhəri” olan Çanaqqala qədim Troyanın festival ənənəsini bərpa və davam etdirməklə faktiki olaraq bütün dünyaya “Qoy sülh mədəniyyətimiz olsun!” sülh mesajı ünvanlayır.

Bu məqamda dahi Mövlanəni necə xatırlamamaq olar. Böyük mütəfəkkir deyirdi:

***Gəl-gəl, yenə gəl! Nə olursan ol, yenə də gəl.***
***İstər xristian, istər məcusi, istər bütpərəst ol.***
***Bizim dərgahımız ümidsizlik dərgahı deyil.***
***Tövbəni yüz dəfə pozmuş olsan belə, yenə gəl.***

***P.S.*** *Bu gün yalnız Türkiyə deyil, bütün türk dövlətləri turizmin inkişafına böyük önəm verir və təkcə türk ellərindən deyil, dünyanın hər yerindən arzuolunan qonaqları – turistləri qəbul etməyə hazırdır. Bu istiqamətdə TDT-yə üzv dövlətlərdə görülən işlər artıq öz bəhrəsini verir. Ümid edirik ki, yaxın gələcəkdə türk elləri bu sahədə daha böyük uğurlar qazanacaqlar.*

***Məsaim ABDULLAYEV***
***XQ***

*Maral Rəhmanzadə – 110*

# Azərbaycan rəssamlığının qadın tacidarı

**Azərbaycan təsviri sənətindən söz açarkən istedadlı fırça ustası, məhsuldar yaradıcılığı ilə diqqəti cəlb edən Xalq rəssamı Maral Rəhmanzadə barədə danışmamaq qeyri-mümkündür. Şərq aləmində qadın sənətkarlara çox az rast gəlmək olar. Lakin Azərbaycanda yaradıcılığı yüksək dəyər qazanmış Məhsəti Gəncəvi, Sara Xatun, Heyran xanım, Xurşidbanu Natəvan kimi qadın sənətkarlar az olmayıb. Bu sıraya XX əsrdə yaşamış Qeysər Kaşıyeva, Maral Rəhmanzadə, Vəcihə Səmədova, Xalidə Səfərova, Zivər Məmmədova, Münəvvər Rzayeva, Həyat Abdullayeva, Elmira Hüseynova və başqa qadın rəssam və heykəltəraşları da daxil etmək olar.**



Maral Yusif qızı Rəhmanzadə Mərdəkan qəsəbəsində sənətkar ailəsində dünyaya göz açıb. Onun atası zərgər idi. Demək olar ki, M.Rəhmanzadənin sənətə marağı erkən yaşlarından atasının yanında çalışdığı, ona kömək etdiyi vaxtlardan yaranmışdı. Rəssamın özü bunu belə xatırlayırdı: “Altı-yeddi yaşım var idi, atam Mərdəkandakı evimizdə öz iş otağında zinət əşyalarına müxtəlif naxış vurarkən məni də öz yanında əyləşdirərdi. Mənə kağız-qələm verib, qızıl və ya başqa metal üzərində balıq, gül-çiçək, gün, ay-ulduz rəsmlərini çəkdirərdi.”

Maral Rəhmanzadə 1930-cu ildə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbinə qəbul olunmuş və burada böyük həvəslə sənətin incəliklərinə yiyələnmişdir. 1933-cü ildə ali təhsilini başa vuraraq elə həmin il V.İ.Surikov adına Mosva Dövlət Rəssamlıq İnstitutuna daxil olmuş, burada V.Serov, L.A.Bruni, V.A.Favorski və digər tanınmış rəssamlardan sənətinin sirlərini öyrənmişdir. Maral Rəhmanzadə Moskvda əfsanəvi fırça ustası Səttar Bəhlulzadə ilə birgə təhsil almışdır. Gənc rəssam tələbəlik illərindən sərgilərdə iştirak etmiş, əsərləri yerli və dünyanın müxtəlif şəhərlərində təşkil edilən beynəlxalq sərgilərdə nümayiş olunmuşdur.

Maral Rəhmanzadə sənət aləminə qrafika sahəsində yaratdığı əsərlərlə gəlmişdir. Lakin təkcə qrafika ustası deyil, həm də istedadlı rəngkar kimi də şöhrət qazanmışdır.

Rəssamın ilk əhatəli qrafika işi “Köhnə və yeni Azərbaycan” silsiləsidir. Burada rəssam köhnəliklə yenilik arasındakı “qarşıdurma”nı təsviri sənətin dili ilə ifadə etmişdir. Maral xanım gərgin yaradıcılıq axtarışları və davamlı müşahidələri nəticəsində topladığı materiallar əsasında bu gün də öz aktuallığını itirməyən son dərəcə bədii əhəmiyyətli əsərlər ərsəyə gətirmişdir. Onun yaradıcılığının səciyyəvi xüsusiyyətləri kimi məzmun-forma dolğunluğu, ahəngdarlığı, kompozisiya bitkinliyi, lakonikliyi, obrazların bədii ifadəliliyi, milli-etnoqrafik xüsusiyyətlərin mahiranə Brüsseldə, sonralar Praqa, Pekin, London və digər nüfuzlu şəhərlərdə nümayiş olunmuşdur. Bu seriya rəssamın gərgin fiziki və zehni zəhməti hesabına ərsəyə gəlmişdir. Sahildən uzaqlarda, Xəzərin coşqun ənginliklərində çalışan neftçilərin gündəlik iş şəraiti ilə tanış olmaq, onları yaxından müşahidə etmək yaradıcı rəssam üçün nə qədər vacib idisə, dənizin coşqun dalğala-



rını, şahanə mənzərəsini, ləpələrin şairanə ritmini, qağayıların romantik uçuşunu, dəniz sərhədlərinin mavi səma ilə qovuşduğu mənzərəni izləmək və müşahidə etmək də rəssam üçün bir o qədər vacib idi.

Bu seriyaları yaratmaqla Maral Rəhmanzadə özünü Azərbaycan qrafika sənətinin ən öncül cərgələrində dayandığını sübut etmişdir. Təsadüfi deyil ki, ölkəmizdə ilk Xalq rəssamı fəxri adına layiq görülmüş sənətkar Maral Rəhmanzadə olmuşdu. O, respublikamızın müxtəlif dilbər guşələrində, səfalı yerlərində tez-tez ezamiyyətlərdə olur, təbiətin ecazkar gözəlliklərini yorulmadan vəsf edirdi. Onun məşhur dağ kəndi Xınalığa həsr etdiyi işlərini, ümumilikdə, bu seriyanı rəssamın yaradıcılığının incisi hesab etmək olar. Xınalıq kəndinin özünəməxsus fakturasını, təbii xüsusiyyətlərini, adət-ənənələrini, etnoqrafiyasını məharətlə və xüsusi zövqlə təsvir etmişdir.

*Arazı ayırdılar!*
*Qan ilə doyurdular.*
*Mən səndən ayrılmazdım,*
*Zülm ilə ayırdılar...*

El-obamızın dilindən səslənən bayatıdakı həsrət dolu mənalı ifadənin tam təəssüratı rəssamın “Bizim sərhəddə” seriyasına daxil olan əsərlərindən sezilir. Rəssamın “Qadınlar” linoqravüründə bir neçə qadın fiquru əks olunmuşdur. Kompozisiyada obrazların geyimlərindəki ornamentlərin ritmik təkrarından ustalıqla istifadə edilmişdir. Rəssam yenə də qəhrəmanların daxili mənəvi aləmini siluetlərin lirik ifadə həlli ilə yekunlaşdırmışdır.

Maral Rəhmanzadə yaradıcılığında iki istiqaməti paralel aparmışdır. O, bir tərəfdən müasir sənət priyomlarından, digər tərəfdən milli sənət ənənələrinin spesifik xüsusiyyətlərindən məharətlə istifadə etmiş, nəticədə bu iki istiqaməti bədii təxəyyülü ilə ümumiləşdirərək öz üslubunu yaratmağa nail olmuşdur.

Rəssam bir neçə ədəbi nümunələrə də misilsiz bədii tərtibat vermiş, illüstrasiyalar çəkmişdir. Buna misal olaraq C.Cabbarlının əsərlərinə, “Azərbaycan nağılları” kitabına, M.S.Ordubadinin “Qılınc və qələm” romanına, M.Füzulinin qəzəllərinə, Heyran xanımın poeziyasına, N.Gəncəvinin “Leyli və Məcnun” poemasına, Ş.İ.Xətainin “Dəhnamə”sinə və digər ədəbi nümunələrə aid qrafik əsərləri qeyd etmək olar.

Maral Rəhmanzadə “Avtoportret”, “Neft daşları”, “Bayıl”, “Quba rayonu”, “Xınalıq küçələri”, “Lənkəranda payız”, “Göy-göl”, “Naxçıvan sililəsindən”, “Dağlar”, “Əlincə qalası”, “Naxçıvan motivi”, “Naxçıvan mənzərəsi” və s. maraqlı rəngkarlıq əsərləri də yaratmışdır.



təcəssümü, kolorit zənginliyi və digər cəhətləri qeyd etmək olar.

“Köhnə və yeni Azərbaycan” “Qadınlar müharibə illərində”, “Azərbaycan neftinin tarixi” və s. silsilələrdə rəssam həyat həqiqətlərinin yaddaqalan epizodlarını zərif sənətkar təxəyyülündən keçirməklə bədii lövhələr yaratmışdır.

Rəssam bu işlərində qədim şərq mədəniyyətinin zəngin rəngarəngliyi ilə süslənmiş bənzərsiz memarlıq incilərini, xalqımızın milli adət-ənənələrini, müharibənin dəhşətli reallıqlarını, Azərbaycan qadınının mənəvi-əxlaqi incəliklərini təsviri sənətin imkanları və bənzərsiz çalarları ilə təcəssüm etdirmişdir. Onun “Bizim Xəzərdə”, “Sosialist Bakısı”, “Sumqayıt - Rustavi”, “Çexoslovakiyada”, “Mənim vətənim”, “Azərbaycan qadınları”, “Mənim bacım”, “Bizim sərhəddə”, “Qadın ili” və s. linoqravür seriyaları təsviri sənət tariximizə daxil olmuşdur.

“Bizim Xəzərdə” seriyalı avtolitoqrafiyasından olan rəngli işləri 1958-ci ildə

Rəssamın “Xonça aparırlar” əsərində dağların zirvəsində salınmış Xınalıq kəndinin tikililəri fonunda bir dəstə milli geyimli qız-gəlinləri xonçalarla təsvir olunmuşdur. Əsərin bədii ifadə və emosional təsir yükünü obrazların lirik axıcı siluetləri daha da artırır. Bu xüsusiyyətləri “Dağların başında”, “Dağ kəndi Xınalıq. Atlılar” və s. əsərlərə də şamil etmək olar.

Maral Rəhmanzadənin Naxçıvana, Lənkərana, Qubaya səfərləri zamanı yaratdığı əsərlər də diqqəti cəlb edir. Rəssamın “Naxçıvan gözəlləri” əsərinin kompozisiyanı üç xanım fiquru təşkil edir. Onların biri kəlağayıda, digər ikisi isə zəngin ornamentli çadrada təsvir edilmişdir. Ümumiyyətlə, rəssamın obrazlar qalereyasında qadınlar üstünlük təşkil edir.

Maral Rəhmanzadə “Bizim sərhəddə” seriyası ilə nisgilli Araz çayının sahilindən qərib-qərib baxan dağların, bir milləti ikiyə bölən Xan Arazın “qan” axan sularının bədii ifadə gücü ilə öz yurddaşlarının ağrılarına şərikliyini bölüşmüşdür:

Hələ orta əsrlərdən Naxçıvan diyarı səyyahların diqqətini çəkmişdi. Naxçıvanın iqlimi, təbii özünəməxsusluqları, vüqarlı dağları, milli adət-ənənələri və s. cəhətləri bir çox rəssamlarımızın əsərlərinin sevimli mövzusuna çevrilmişdir. B.Kəngərli, S.Bəhlulzadə, T.Salahov, T.Nərimanbəyov, K.Xanlarov, M.Rəhmanzadə və başqa rəssamlarımızın yaratdıqları bədii dəyərli əsərləri buna misal göstərmək olar. Maral Rəhmanzadə tarixi Əlincə qalasının yerləşdiyi dağın əzəmətli təsvirini və günəşin şüalarına bələnmiş koloritini mahiranə rəssam qəlbi ilə bədiiləşdirmişdir.

Rəssamın yaradıcılığı yüksək qiymətləndirilmiş, 1964-cü ildə Xalq rəssamı, 1965-ci ildə Dövlət mükafatı laureatı, 1998-ci ildə isə “Şöhrət” ordeni ilə təltif edilmişdir.

Xalq rəssamı M.Rəhmanzadə kimi sənətkarların yaradıcılığı xalqımızın tükənməyən mənəvi sərvətidir.

***Əsəd QULİYEV,***
***sənətşünas,***
***Azərbaycan Rəssamlar İttifaqının üzvü***

*Tələbə adınız mübarək!*

**Gənclik şəhəri Sumqayıt bir çox sahələrdə olduğu kimi, təhsildə də nümunə göstərir. Artıq neçə illərdir ki, ali məktəblərə qəbulun nəticələrinə görə ölkə üzrə ən yüksək göstəricilərə bu şəhərin yetirmələri nail olurlar.**

# Sumqayıt bu il də tələbə qəbulunda liderdir



Həm Sumqayıt təhsil işçilərinin ənənəvi sentyabr konfransında, həm də yüksək balla tələbə adını qazanan məzunlarla şəhər rəhbərliyi arasında keçirilən görüşdə bu barədə iftixarla danışılıb və gənclərə ölkəmizin inkişafı naminə gələcək fəaliyyətlərində daha böyük nailiyyətlər arzulanıb.

Abşeron-Xızı Regional Təhsil İdarəsi Sumqayıt şəhər təhsil sektorunun müdiri İman Ağayevin bildirdiyinə görə, burada yüksək akademik göstəricilərin formalaşması, ilk növbədə, ölkə rəhbərliyinin bu sahəyə olan diqqət və qayğısının nəticəsidir:

– Builki qəbul imtahanlarında 237 məzunumuz 600-dən yüksək bal, o cümlədən 91 məzunumuz 650 və daha çox bal toplayıb. Ümumi nətəcələrə görə, II və III qruplarda 35 nömrəli tam orta məktəbin məzunu Zamin Kərimov və 12 nömrəli tam orta məktəbin məzunu Fidan Hüseynzadə 690 bal toplayaraq ölkə üzrə yüksək nəticə göstəriblər.

Görüşün sonunda ali təhsil müəssisələrinə yüksək balla qəbul olunan məzunlara qiymətli hədiyyələr, səmərəli pedaqoji fəaliyyət göstərən bir qrup təhsil işçisinə isə fəxri fərmanlar təqdim olunub.

Ənənəvi sentyabr konfransında qeyd edilib ki, şagirdlərin beynəlxalq və respublika səviyyəli müsabiqə və olimpiadalarda qazandıqları uğurlar, eləcə də akademik nəticələrdə müşahidə olunan müsbət dinamika fərəh doğurur. İcra başçısının 1-ci müavini Teymur Səmədov bildirib ki, onun özü də vaxtilə təhsil sahəsində çalışdığı üçün qazanılan hər bir uğurun hansı zəhmətlər bahasına başa gəldiyini yaxşı bilir və davamlı olmasını arzulayır.

Sumqayıt şəhər 35 nömrəli tam orta məktəb ən yüksək nəticələri olan təhsil ocaqlarındandır. Bu il məktəbin 22 məzunu 600-dən, 8 məzunu isə 650-dən yuxarı bal toplayıb. İki sinfin məzunları qəbulda 100 faiz nəticəyə nail olublar. Şagirdlərdən ikisi xüsusi uğurlarına görə qızıl ni-



şan alıb. Abituriyentlər arasında ATU-ya, ADA Universitetinə, Bakı Ali Neft Məktəbinə daxil olanlar çoxdur.

IV qrupda isə Sumqayıt Şəhər Təbiət Elmləri Təmayüllü Gimnaziyanın məzunu Samir Tağızadə maksimum – 700 bal toplayıb. Həmin gimnaziyanın məzunu Aysu Əliyeva 693,6 balla fərqlənib. Əli Məmmədzadə isə 2-ci mərhələdə 400 balla lider olub. Xüsusilə vurğulamaq istərdim ki, II, III və IV ixtisas qrupları üzrə ölkə səviyyəsində Sumqayıt məktəblərinin məzunları ən yüksək nəticələrlə yenə də önə çıxıblar.

Öyrəndik ki, Sumqayıtın təhsil uğurlarında fənn olimpiadaları və müsabiqələrinin də böyük rolu olub. Belə ki, respublika olimpiadalarının finalında 40 medal (5 qızıl, 16 gümüş, 19 bürünc) əldə edilib. Abşeron-Xızı regionu üzrə 74 qalibin 40-ı, yəni 54 faizi Sumqayıt məktəbliləridir. Fənn müsabiqəsində 45 medal qazanılıb (13 qızıl, 13 gümüş, 19 bürünc). Təmsilçimiz Lütfi Zadə Riyaziyyat-Məntiq Olimpiadasında, “Sabahın alimləri” müsabiqəsində və “Zəkaların mübarizəsi”ndə də qalib gələrək yüksək mükafatlara sahib olub.

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək nəticə göstərən məzunlarla Sumqayıt Dövlət Dram Teatrında keçirilən görüşdə şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov, Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva və digər natiqlər ali təhsil müəssisələrinə qəbulun nəticələrini təqdir ediblər. İcra başçısı yüksək nəticə göstərərək ali təhsil müəssisələrinə qəbul olunan gəncləri, onların valideynlərini və müəllimlərini səmimi-qəlbdən təbrik edib, məzunlara gələcək həyatlarında və təhsillərində uğurlar arzulayıb.

Qeyd olunub ki, təhsil hər bir dövlətin və cəmiyyətin gələcəyini müəyyənləşdirən mühüm sahələrdən biridir. Azərbaycanda bu sahənin inkişafına göstərilən dövlət qayğısı, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir təhsil infrastrukturunun yaradılması gənclərin bilikli, savadlı və vətənpərvər şəxslər kimi formalaşmasına geniş imkanlar açır. Yüksək nəticələr Sumqayıtın təhsil ənənələrinin və şəhərin intellektual potensialının növbəti göstəricisidir.

Qabaqcıl təhsil ocaqlarından biri də N.Tusi adına 12 nömrəli məktəbdir. Bu məktəbin riyaziyyat-iqtisadiyyat təmayüllü sinfinin bütün məzunları tələbə adını qazanıblar. Digər sinfin 30 məzununun 26-sı məktəbi qızıl nişanla bitirərək ali məktəblərə qəbul edilib.

Təbiət elmləri təmayüllü gimnaziyanın məzunu olan əkiz bacı-qardaş İnci və Həmid Mursaquliyevlər yüksək balla eyni ali məktəbə – Tibb Universitetinin tibb fakültəsinə qəbul olunublar. Bu, həm ailə, həm də gimnaziya kollektivi üçün qürurverici uğurdur. Həmid jurnalistlərlə söhbət zamanı dedi:

– Bacım blok imtahanından 400, mən isə 390 bal toplamışam. Ümumi nəticələrimiz 690,2 və 667 baldır. İnci qəbul imtahanlarına daha ciddi hazırlaşırdı, üstəlik, məni də məcbur edirdi ki, gecə-gündüz oxuyum. Nəticə sevindirici oldu. Yəqin ki, universitetdə də eyni qrupa düşəcəyik.

Onu da deyək ki, məzunlar arasında doğma şəhərdəki ali təhsil ocağına – Sumqayıt Dövlət Universitetinə (SDU) daxil olanlar da az deyil. Ümumiyyətlə, son 5 ilin rəqəmləri SDU-ya marağın artdığını göstərir. Bu il universitetə 2090 tələbə qəbul olunub. 2021–2022-ci tədris ilində bu göstərici 1217 nəfər idi. Başqa sözlə, 71,7 faiz artım əldə edilib. Bu isə təhsil müəssisəsinə olan tələbatın, marağın və etimadın göstəricisidir.

SDU-nun tələbəsi adını qazananlardan biri də Yağmur Əlizadədir. O dedi:

– Doğma şəhərimizdəki perspektivli universitetin tələbəsi olmaq həm şərəfdir, həm də rahatlıq baxımından əlverişlidir. Öyrəndiyimə görə, burada tədrisin keyfiyyəti, professor-müəllim heyətinin səviyyəsi çox yüksəkdir. İnfrastruktur və tələbə xidmətləri paralel inkişaf edib, ixtisasların əmək bazarına uyğunluğu ciddi nəzərə alınır. Ona görə də SDU-nu seçdim.

Tələbə adını qazanan bütün gəncləri təbrik edirik!

***Əli NƏCƏFXANLI***
***XQ***

# Brüsseldə səssiz hakimiyyət savaşı

## *Kallas Avropa diplomatiyasını kimdən qoruyur?*

**Brüsseldə zahirən sakit görünən, lakin Avropa İttifaqının gələcəyi baxımından kifayət qədər ciddi nəticələr doğura biləcək hakimiyyət mübarizəsi gedir. Bu dəfə səbəb Aİ-nin xarici siyasətinin kimin nəzarətində olacağı və onun hansı mexanizmlərlə formalaşdırılacağıdır. Aİ-nin baş diplomatı Kaya Kallas Fransa və Almaniyanın Avropa Xarici Fəaliyyət Xidmətinin (EEAS) yenidən qurulmasını nəzərdə tutan planlarına qarşı pərdəarxası mübarizəyə başlayıb.**



Kallas üzv dövlətlərin paytaxtları ilə fəal təmaslar qurur, alternativ islahat modellərinin hazırlanmasına çalışır. O, Aİ diplomatik xidmətinin yeni baş katibi Kaysa Ollonqreni də prosesə cəlb edir. İlk baxışdan baş verənləri Kallasın şəxsi səlahiyyətlərini və siyasi çəkisini qorumaq cəhdi kimi qiymətləndirmək mümkün olsa da, məsələ daha dərindir.

### Bəs, problemin kökü nədir?

Aİ qlobal güc olmaq iddiasındadır, amma xarici siyasətdə çox vaxt vahid mövqe ortaya qoymaqda çətinlik çəkir. Dünyanın əsas geosiyasi oyunçuları bəzən dəqiqələrlə ölçülən sürətlə qərarlar qəbul etdiyi halda, Brüsseldə 27 ölkənin razılığını gözləmək Aİ-nin əl-qolunu bağlayır. Yekdillik prinsipi bunun ən böyük səbəblərindən biridir. Xarici və təhlükəsizlik siyasətində bir ölkənin etirazı bütöv mexanizmi bloklayır. Macarıstanın Ukrayna məsələsində dəfələrlə Aİ daxilində problem yaratması sistemin zəifliyini açıq şəkildə nümayiş etdirib. Bu səbəbdən Paris və Berlin hesab edir ki, problem sistemdədir və sistem dəyişməlidir.

Kallas isə başqa fikirdədir. O problemi müqavilələrdə və institusional quruluşda yox, onların tətbiq edilməməsində görür. Əslində, Kallasın arqumentinin müəyyən məntiqi var. Çünki yeni qurum yaratmaq və ya mövcud qurumun strukturunu dəyişmək siyasi iradə problemini avtomatik həll etmir. Əgər 27 üzv dövlətin maraqları bir-birindən kəskin şəkildə fərqlənirsə, Brüsseldə qurulan ən müasir diplomatik mexanizm belə onların hamısını eyni mövqeyə gətirə bilməz.

### Avropa Komissiyası amili

Məsələnin ən həssas nöqtəsi məhz burada başlayır. Fransa-Almaniya planı EEAS əməkdaşlarının böyük hissəsinin Avropa Komissiyasına inteqrasiyasını nəzərdə tutur. Formal baxımdan məqsəd xarici siyasət mexanizmini daha səmərəli etməkdir. Lakin belə bir dəyişiklik nəticəsində AK-ın xarici siyasətdə rolu əhəmiyyətli dərəcədə



arta bilər. Bu isə Kallasın mövqeyini zəiflətmək gücünə malikdir. Hazırda Aİ-nin xarici siyasət mexanizmi bir qədər mürəkkəb quruluşa malikdir. Kallas üzv dövlətlərin təmsil olunduğu Aİ Şurası ilə işləyir, EEAS isə eyni zamanda, Komissiya ilə koordinasiya edir. Sözügedən modelin öz çatışmazlıqları olsa da, müəyyən mənada, müxtəlif Aİ institutları arasında balans yarada bilir. EEAS-ın Komissiyaya daha sıx inteqrasiyası isə həmin balansı dəyişə bilər.

Bunun başqa bir səbəbi də geosiyasi reallığın sürətlə dəyişməsidir. Rusiya-Ukrayna müharibəsi Avropanın təhlükəsizlik arxitekturasını dəyişib. ABŞ-ın Avropaya münasibəti əvvəlki kimi proqnozlaşdırılan deyil. Tramp administrasiyasının Avropadan daha çox məsuliyyət tələb etməsi Aİ ölkələrini öz təhlükəsizlik imkanlarını yenidən düşünməyə məcbur edir. Bunun üzərinə Çin faktorunu və Yaxın Şərqdəki qeyri-sabitliyi də əlavə etdikdə mənzərə daha aydın görünür. Aİ artıq iqtisadi nəhəng olmaqla kifayətlənə bilməz. Birlik güclü qlobal aktor olmaq istəyirsə, daha vahid xarici siyasət yürütməlidir. Daha vahid xarici siyasət üçün isə üzv dövlətlərin fərdi veto imkanlarının müəyyən qədər məhdudlaşdırılması və qərarların daha sürətli qəbul edilməsi tələb olunur. Bu halda milli suverenlik məsələsi yenidən gündəmə gəlir.

### Mərkəzləşmə, həqiqətən, çıxış yoludurmu?

İqtisadiyyatda, miqrasiya siyasətində, müdafiədə və indi də xarici siyasətdə eyni sual müxtəlif formalarda qarşımıza çıxır. Brüssel daha çox səlahiyyət istəyir, digər paytaxtlar isə həmin səlahiyyətlərin nə qədərinin mərkəzə ötürülməli olduğunu müzakirə edirlər. Fransa və Almaniyanın EEAS-la bağlı təşəbbüsünü də bu prosesdən ayrı təsəvvür etmək olmaz. Əgər xarici siyasət Komissiyanın nəzarətinə daha çox keçərsə, bu, Aİ-nin daha sürətli qərar qəbul etməsinə kömək edə bilər.

Yazının əvvəlində qeyd etdik ki, Kallas prosesə yeni baş katib Kaysa Ollonqreni də cəlb edib. Kallas Ollonqren vasitəsilə Aİ paytaxtlarında alternativ islahat ideyalarını müzakirə etməklə Fransa-Almaniya planının qarşısına başqa model qoymağa çalışır. Doğrusu, Kallasın addımı siyasi baxımdan daha ağıllı strategiyadır. Çünki islahatlara qarşı çıxmaq Kallası dəyişiklikləri əngəlləyən siyasətçi vəziyyətinə sala bilərdi.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*

**Xəyal BƏŞİROV,**
**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri**



Əslində, bu, uzun müddətdir ki, Avropa İttifaqı daxilində həm dövlətlər arasında, həm də institutlar arasında mövcud olan fikir ayrılıqlarının və mübarizənin göstəricisidir. “Brexit”dən, yəni Böyük Britaniyanın Aİ-dən çıxmasından sonra Almaniya ilə Fransa arasında liderlik uğrunda mübarizə gedir. Bu mübarizədə onlar hətta bir çox hallarda Aİ-nin özünün və bütövlükdə təşkilatın maraqlarını belə qurban verməyə hazır olduqlarını nümayiş etdirirlər. Məsələn, Fransanın Aİ çərçivəsində Azərbaycana münasibətdə atdığı addımları görürük. Hətta Fransanın və bəzi digər dövlətlərin Avropa Komissiyasından fərqli mövqe ortaya qoyduğunun da şahidi oluruq. Avropa Şurasında, Avropa Şurası Parlament Assambleyasında və yaxud Avropa Parlamentində də fərqli münasibətlərin şahidi oluruq. Xüsusilə xarici siyasət məsələlərində, yəni hazırda müzakirə etdiyimiz Avropa Xarici Fəaliyyət Xidmətinin muxtariyyətinin mümkünlüyü ilə bağlı məsələdə faktiki olaraq bu fikir ayrılıqlarını görmək mümkündür.

Aİ dünyada, bəlkə də, yeganə təşkilatdır ki, dövlətlərə xas olan demək olar ki, bütün əlamətləri özündə cəmləşdirir. Ordu istisna olmaqla. Çünki ordu məsələsində NATO mövcuddur və NATO hərbi blok olduğuna görə Aİ ayrıca ordu yaratmaq niyyətini uzun müddət ortaya qoymayıb. Amma faktiki olaraq Aİ dövlətlərə xas olan demək olar ki, bütün xüsusiyyətləri özündə ehtiva edir. Bu, xüsusilə xarici siyasət məsələsində özünü daha aydın göstərir. Məsələn, biz uzun müddət Avropa Komissiyasının xarici siyasət üzrə ali nümayəndəsi, yəni bu sahəyə rəhbərlik edən şəxsin Cozef Borrellin mövqeyini görmüşük. O, bir çox hallarda Aİ-nin və Avropa Komissiyasının maraqlarını ayrı-ayrı qüvvələrin və ya dövlətlərin maraqlarına qurban verməkdən çəkinməyən siyasətçilərdən biri kimi çıxış edirdi. Düşünürük ki, məhz bu fikir ayrılıqlarının istiqamətlərindən və ya təzahür formalarından biri də budur. Hesab edirik ki, artıq Aİ-də fikir ayrılıqlarının və uçurumların dərinləşməsi ciddi parçalanmalara gətirib çıxara biləcək təhlükə yaradıb. Məhz buna görə də sözügedən istiqamətdə müəyyən addımlar atılır.

Hüquqi baxımdan, yekdillik prinsipinin müəyyən məsələlərdə ixtisaslı səs çoxluğu ilə əvəzlənməsi mümkündür. Lakin bunun Aİ-dəki institutlar arasında mövcud fikir ayrılıqlarına və səlahiyyət balansındakı fərqliliklərə nə dərəcədə təsir göstərə biləcəyi hələ də sual olaraq qalır. Bunun nəticəsini isə zaman göstərəcək. Prosesin reallaşması üçün müəyyən dövlətlər, Aİ-nin ayrı-ayrı üzvləri və ya institutlar səviyyəsində öz iddialarından, ambisiyalarından müəyyən qədər geri çəkilməli, kompromisə getməlidirlər ki, lazımi prosedurları həyata keçirmək mümkün olsun.

---

**Yaxın gələcəkdə mobil telefonlar bizə peşəkar maliyyə məsləhətçisinin xidmətlərinə yaxın səviyyədə kömək təklif edə biləcək. Süni intellekt şirkətləri analiz edəcək, investisiya risklərini izah edəcək, kredit və büdcə hesablamaları aparacaq.**

# Süni intellektin maliyyə xidmətlərindən necə faydalanmaq olar?



Amma maraqlı sual budur: hamımız eyni maliyyə biliyinə çıxış əldə etsək, niyə hamımız eyni dərəcədə varlanmayacağıq?

Təsəvvür edin ki, 2 insan eyni Sİ sistemindən istifadə edir və eyni investisiya məsləhətini alır. Birinin investisiya etmək üçün 1000 manatı, digərinin isə 100 min manatı var. Hər ikisi 8 faiz gəlir əldə etsə, biri 80 manat, digəri 8 min manat qazanacaq. Yəni eyni bilik eyni sərvət yaratmır.

Maliyyə məsləhətinin demokratikləşməsi artıq başlayıb. Böyük Britaniyanın “Financial Conduct Authority” qurumunun 2026-cı il araşdırmasına görə, 18–40 yaşlı az təcrübəli investorların hər beşindən dördü investisiya ilə bağlı Sİ-dən istifadə edib. Respondentlərin 56 faizi isə bu alətlərə etibar etdiyini bildirib.

Generativ Sİ artıq “Bu şirkət nə qədər risklidir?”, “Kreditimi əvvəl bağlayım, yoxsa investisiya edim?” kimi suallara saniyələr ərzində cavab verə bilir. Bir neçə il əvvəl belə fərdi maliyyə izahları müəyyən xərc tələb edirdi. İndi isə bilik sürətlə ucuzlaşır və daha çox insana çatır.

Amma məlumatın əlçatan olması sərvətin artması demək deyil. Bunun üçün aşağıda sadaladığımız məqamlara diqqət yetirmək vacibdir.

Birincisi, kapitaldır. Sİ sizə yaxşı investisiya strategiyası göstərə bilər, amma investisiya etmək üçün pulunuz yoxdursa, həmin bilik gəlirə çevrilmir. Buna görə gələcəkdə əsas üstünlük yalnız “kim daha çox bilir?” sualı ilə deyil, “kim bildiyini tətbiq etmək üçün kifayət qədər kapitala sahibdir?” sualı ilə müəyyən edilə bilər.

İkincisi, gəlir və davranışdır. İnsan maliyyəni yaxşı başa düşə bilər, amma gəlirinin, demək olar, hamısı gündəlik xərclərə gedirsə, investisiya üçün pul qalmır. Üstəlik, bilmək hələ etmək demək deyil. Sİ insana emosional qərarlardan qaçmağı deyə bilər. Amma bazar kəskin düşəndə insan qorxub bütün investisiyasını satırsa, bilik davranışa çevrilmir.

Üçüncüsü, risk götürmək imkanıdır. Sabit gəliri və ehtiyat fondu olan insan bazarın aşağı düşməsini gözləyə bilər. Sabah həmin pula ehtiyacı olan insan isə eyni riski götürə bilməz. Deməli, Sİ hamıya eyni bazarı izah edə bilər, amma hamı üçün eyni qərar düzgün deyil.

Dördüncüsü, bazara çıxışdır. Sİ müxtəlif investisiya imkanlarını izah edə bilər, amma onların hamısı hər kəs üçün açıq deyil. Bəzi investisiyalar yalnız müəyyən gəliri və ya sərvəti olan şəxslər üçün əlçatandır. Yəni məlumata çıxışla investisiya imkanına çıxış eyni şey deyil.

Beşincisi, Sİ-nin özüdür. Süni intellekt yaxşı məlumatı sürətlə yaydığı kimi, səhv məlumatı da yaya bilər. FCA-nın 2026-cı il araşdırmasına görə, gənc investorların 44 faizi yanlış olaraq Sİ tərəfindən verilən maliyyə məlumatlarının tənzimləndiyini düşünürdü. Bu, insanın Sİ cavabını yoxlamadan maliyyə qərarı verməsi riskini artırır.

Azərbaycan üçün də mövzu artıq uzaq gələcək deyil. Ölkədə 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası qəbul edilib. Mərkəzi Bankın strategiyasında rəqəmsal maliyyə, maliyyə savadlılığı və kapital bazarlarının inkişafı prioritet istiqamətlərdəndir. Yerli banklarda da Sİ istifadəsi artır.

Məncə, növbəti böyük mərhələ Sİ-nin bankların daxili işini yaxşılaşdırmaqdan çıxaraq insanların şəxsi maliyyəsini idarə etməsinə kömək etməsi olacaq.

Təsəvvür edin ki, bank tətbiqi sizə sadəcə kredit təklif etmir, əksinə, deyir: “Ehtiyat fondunuz hazırkı xərclərlə yalnız iki aya kifayət edir”, “Portfelinizin 70 faizi eyni sektordadır” və ya “Bu investisiya sizin risk səviyyənizə uyğun görünmür”.

Bu halda Sİ məhsul satan alətdən şəxsi maliyyə naviqatoruna çevrilir.



Amma əsas həqiqət dəyişmir. Sİ kasıb insana maliyyəni milyonçuya izah etdiyi qədər yaxşı izah edə bilər. Eyni bazar analizini və eyni prinsipləri verə bilər. Amma onun yerinə kapital yaratmayacaq, gəlirini artırmayacaq və maliyyə şoklarını aradan qaldırmayacaq.

Ona görə də Sİ dövründə əsas fərq bəlkə artıq “kim daha çox bilir?” olmayacaq. Çünki məlumat getdikcə daha ucuz və əlçatan olacaq.

Fikrimizcə, əsas sual bu olacaq: – Kim həmin biliyi real nəticəyə çevirə bilir?

Sİ maliyyə biliyini demokratikləşdirə bilər. Amma sərvəti demokratikləşdirmək üçün təkcə ağıllı alqoritmlər kifayət deyil. Bunun üçün insanların qənaət edə biləcəyi gəliri, kapitala çıxışı və maliyyə intizamı da olmalıdır.

Gələcəyin əsas sualı bəlkə də belə olacaq: “Kim bildiyini kapitala, intizama və zamana çevirə bilir?”

***Nazim AĞAZADƏ,***
***Süni intellekt məhsulları və rəqəmsal transformasiya üzrə aparıcı məhsul sahibi və ekspert, Sİ əsaslı bilixhub.com platformasının həmtəsisçisi və təlimçi***

---

## *Bir abzas - bir xəbər*

### İsrail 5 məhbusu Livana təhvil verir



İsrail rəsmi Vaşinqtonun vasitəçiliyi ilə Təl-Əviv və Beyrut arasında davam edən danışıqlar çərçivəsində 5 məhbusu Livana qaytarmağa qərar verıb. Bu barədə məlumatı “The Times of Israel” yayıb. Bu addım İsrail və “Hizbullah” arasında münaqişəyə son verməyə yönəlmiş danışıqlar fonunda Təl-Əvivin xoşməramlı jesti kimi dəyərləndirilir. İkitərəfli danışıqların növbəti raundunun sentyabrın sonunda Romada keçirilməsi planlaşdırılıb. Daha əvvəl bildirilmişdi ki, Livan və İsrail livanlı məhbusların müqabilində livanlıların və israilli yəhudilərin meyitlərinin geri qaytarılması məsələsi üzrə ayrıca danışıqlar aparır.

### Kiyev və Moskva razılığa gəlirlər?

“Yaxın günlərdə Ukrayna ilə Rusiya arasındakı danışıqlar prosesində ciddi irəliləyiş gözlənilir”. Bunu Ukraynanın xarici işlər naziri Andrey Sibiqa Kiyevdə Hindistanın xarici işlər naziri Subramanyam Cayşankarla birgə keçirdiyi mətbuat konfransında deyib. Sibiqa bildirib ki, qarşıdakı hadisələrin təfərrüatını hələ açıqlamağa hazır deyil: “Hələlik heç bir detal açıqlamayacağam, amma xəbərləri izləməyə davam edin, yaxın günlərdə sülh danışıqlarında əhəmiyyətli bir irəliləyiş görəcəksiniz”.



### Seuta böhranı həllini gözləyir



İspaniya polisi belə qənaətə gəlib ki, Seuta anklavına kütləvi miqrant axını kortəbii baş verməyib. Yerli mediasının əldə etdiyi sənəd ölkənin milli polisinin miqrasiyaya cavabdeh olan bölməsi - CENIF Mərkəzi tərəfindən hazırlanıb. İddia edilib ki, bu proses Mərakeş təhlükəsizlik qüvvələri əməkdaşlarının “qeyri-adi passivliyi” və fəaliyyətsizliyi ilə müşayiət olunub. Onların vəziyyətə reaksiyası hesabatda “tam laqeydlik” və insanları sərhəddən uzaqlaşdırmaq üçün ciddi cəhdlərin göstərilməməsi kimi qiymətləndirilib. Sənəddə, həmçinin uniformalı və mülki geyimli bəzi əməkdaşların insanları sərhədin müəyyən hissələrinə, o cümlədən El-Taraxal rayonundakı dəniz keçidinə yönləndirdiyi bildirilir.

### Serbiya Prezidenti podkaster olmağa qərar verib



Serbiya Prezidenti Aleksandar Vuçiç “PodkAVst” adlı yeni podkastın başladığını elan edib. “Srbija na istoku” nəşrinin məlumatına görə, siyasətçi bildirib ki, proqramda insanların həyatı, uğurları, uğursuzluqları, inancları və onları formalaşdıran təcrübələr barədə söhbətlər yer alacaq. Vuçiç qeyd edib ki, format əsasən siyasətdən daha çox müxtəlif həyat mövzuları ətrafında müzakirələrə yönələcək. Prezident etiraf edib ki, bunlar onun “çoxdan aparmaq istədiyi” söhbətlərdir: “İstəyirəm ki, bu, xoş söhbətlər və maraqlı insanlar üçün bir məkan – bir-birimizi bir az daha yaxından tanıya biləcəyimiz yer olsun”.

### Qazaxıstan hökumətinin yeni tərkibi təsdiqlənib



Qazaxıstan hökumətinin yenilənmiş tərkibində 4 yeni nazir olacaq. Bununla bağlı müvafiq qərarlar Oljas Bektenovun yenidən baş nazir vəzifəsinə təyin edilməsindən sonra qəbul edilib. XİN-ə Muxtar Tleuberdi rəhbərlik edəcək. O, Yermek Koşerbayevi əvəzləyib. Fövqəladə hallar naziri vəzifəsinə Murat Muxanov təyin edilib. Yeni ekologiya və təbii sərvətlər naziri Alibek Kuantırov olub. 2025-ci ildən Qazaxıstan Prezidentinin daxili siyasət və kommunikasiyalar üzrə köməkçisi olan Arman Kırıkbayev mədəniyyət və informasiya naziri təyin edilib. O, Qazaxıstan Təhlükəsizlik Şurası sədrinin müavini təyin edilmiş Aida Balayevanı əvəz edib.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 160 (31129) 4 sentyabr 2026-cı il, cümə




## İDMAN

## 2 cüdoçumuz qitə çempionu olub







**Azərbaycanın 2 cüdoçusu Monteneqronun paytaxtı Podqoritsa şəhərində keçirilən U-21 Avropa çempionatında qızıl medal qazanıb.**

Əvvəlcə 60 kiloqram çəki dərəcəsində olan Azərbaycan cüdoçusu Ayxan Mirzəzadə həlledici qarşılaşmada fransalı Lüsyen Tiksyeni məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib və qitə yarışının qızıl medalını qazanıb.

Sonra 66 kiloqram çəki dərəcəsində çıxış edən Məhəmməd Musayev finalda serbiyalı rəqibi Marko Yorqiçə ipponla qalib gələrək, gənclər arasında ikiqat qitə çempionu olub.

## "Səbail"in adı dəyişdiriləcək

"SƏBAİL" PEŞƏKAR FUTBOL KLUBU

**"Səbail"in adının "Quba" olaraq dəyişdirilməsi ilə bağlı hüquqi prosedurlar davam etdirilir. Bu barədə klubun mətbuat xidməti açıqlama yayıb.**

Bildirilib ki, dəyişiklik regionlarda futbolun inkişaf etdirilməsi və bu idman növünün kütləviliyinin artırılması məqsədi daşıyır.

Klubun açıqlamasında qeyd olunub ki, komandanın yaxın gələcəkdə Quba şəhərini təmsil etməsi böyük qürur və sevinc mənbəyidir.

Vurğulanıb ki, bu addım təkcə klubun adının dəyişdirilməsi deyil, həm də region futbolunun inkişafı, yerli istedadların üzə çıxarılması və Qubada futbol ənənələrinin daha da gücləndirilməsi baxımından yeni mərhələnin başlanğıcıdır.

## Messi təntənə ilə yola salınacaq



**Argentina Futbol Assosiasiyası (AFA) Lionel Messinin milli komandadakı karyerasına vida etməsi münasibətilə ölkə üzrə xüsusi tədbir təşkil edəcək.**

AFA-nın qərarına əsasən, həftəsonu keçiriləcək bütün yerli çempionat oyunlarında 10-cu dəqiqədə qarşılaşma dayandırılacaq və argentinalı futbolçuya bir dəqiqəlik alqışla ehtiram göstəriləcək.

Bu qərar ölkənin kişi və qadın futbolunun bütün divizionlarına, eləcə də müxtəlif futbol yarışlarına şamil olunacaq.

AFA, həmçinin klublara stadionların ekranlarında Lionel Messinin yığmadakı çıxışlarından görüntülərin nümayiş etdirilməsini tapşırıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

# İnsanda D vitamini niyə çatışmır?

## *Həkimlər bu bəladan xilas olmağın ilkin yolunu Günəşlə təmasda görürlər*

**D vitamini çatışmazlığı dünyanın bir çox ölkəsində olduğu kimi, Azərbaycanda da geniş yayılmış problemlərdən biridir. Bu vitaminin orqanizm üçün çox gərəkli olduğu aparılan araşdırmalarda dəfələrlə sübut edilmişdir.**

Mütəxəssislər bildirirlər ki, bu vitamin təkcə sümük sağlamlığı üçün deyil, həm də immun sistemi, əzələ funksiyaları və maddələr mübadiləsinin normal fəaliyyəti üçün mühüm əhəmiyyət daşıyır. Yay fəslinin bitməsinə sayılı günlər qalıb, üzü payıza gedirik. Günəş şüalarının azaldığı, təbiət qoynunda gəzintilərin məhdudlaşacağı bir dövr bizi gözləyir. Bəs bədənimiz payıza, qışa hazırdırmı?




Endokrinologiya və maddələr mübadiləsi xəstəlikləri üzrə Türkiyənin tanınmış mütəxəssisi, professor İdris Kuzu uzun illər orqanizmdə D vitamini çatışmazlığı ilə bağlı araşdırmalar aparmış və fikirlərini davamlı olaraq yazdığı məqalələrlə cəmiyyətə çatdırmışdır. Professor məqalələrinin birində bu barədə yazır: "D vitamini yağda həll olmaqla yanaşı, orqanizmdə hormon kimi də fəaliyyət göstərir. Onun əsas mənbəyi günəş şüalarıdır. D vitamini dərinin günəşdən gələn ultrabənövşəyi (UVB) şüalarla təması nəticəsində sintez olunur. Bundan əlavə, bəzi qidalar və həkim tövsiyəsi ilə qəbul edilən əlavələr də bu vitaminin mənbəyi hesab edilir".

Bəs D vitamininin çatışmazlığı insanda hansı problemlərə səbəb olur?

Cəmiyyətdə belə fikir formalaşıb ki, bu vitaminin çatışmazlığı əsasən, uşaqlarda hiss olunur və özünü "raxit" adlanan xəstəliklə göstərir. Professorun fikrincə isə, orqanizmdə D vitamini çatışmazlığı yalnız sümük sağlamlığına təsir etmir. Uşaqlarda özünü "raxit"lə göstərsə də, böyüklərdə "osteoporoz", "osteomalasiya" (sümüklərin yumşalması) və sınıq riskinin artması ilə əlaqələndirilir.

D vitamini səviyyəsinin aşağı olması özünü müxtəlif əlamətlərlə də büruzə verir. Buna əzələ zəifliyi, xroniki yorğunluq, ümumi halsızlıq, əzələ və oynaq ağrıları, tez-tez yıxılma riskini misal göstərmək olar.

Endokrinoloq bildirir ki, D vitamini yağda həll olur və bədənimizdə bir sıra funksiyaları yerinə yetirir. Qida ilə qəbul edilən kalsium və fosforun bağırsaqlardan sorulmasını təmin edir; sümük ərimәsinə yol açan parathormonun artıq sekresiyasının qarşısını alır; bədəndə kalsium və fosfor tarazlığını təmin edir; immun sistemə müsbət təsir göstərir; hipertenziya, ürək xəstəlikləri, bəzi onkoloji və autoimmun xəstəliklərə qarşı qoruyucu təsiri var.

D vitamini əsasən, günəş işıqları təsiri altında dəridə əmələ gəldiyindən insan hər gün qolları, ayaqları və üzünü örtülməmiş vəziyyətdə 20 dəqiqə günəşin altında saxlasa, bu, günlük D vitamini dozasını almış deməkdir. Lazımi günəş işığının miqdarı insanın dəri rəngindən, yaşından, günəşlənmə müddətindən (20 dəqiqədən az və ya çox) asılı olur.

Qara ciyər və böyrəkdə dəriyə təsir edən günəş işığı ilə əmələ gələn və ya qida ilə aldığımız D vitaminini aktiv hala çevirən maddələr (enzimlər) var. Xroniki qara ciyər və ya böyrək çatışmazlığı olan insanlarda bu maddələr yetərli miqdarda olmur. Buna görə D vitamini aktiv formaya çevrilmir və onun çatışmazlığı ortaya çıxır.

D vitamininin dəridə əmələ gəlməsi yaş artdıqca azalır. Tünd dərililərdə isə bu vitaminin dəridə əmələ gəlməsi üçün günəş altında çox qalmasına ehtiyac var, xüsusilə də qış aylarında. Qeyd edək ki, günəş kremləri (SPF faktoru 20 və çox olan) istifadə edənlərdə D vitamini yaranmır.

Araşdırmalar göstərir ki, D vitamini immun hüceyrələrinin normal fəaliyyətini də dəstəkləyir. Bəs müalicə olunan zaman bəzi hallarda D vitamini niyə yüksəlmir?

Professor qeyd edir ki, günəşə çıxmağa və ya əlavələr qəbul etməyə baxmayaraq, bəzi insanlarda D vitamini səviyyəsi istənilən həddə çatmır. Bunun da fərqli səbəbləri var. Günün böyük hissəsini qapalı məkanlarda keçirmək, yüksək qoruyuculu günəş kremlərindən istifadə etmək, dərinin tünd rəngli olması, artıq çəki və piylənmə, çölyak və Kron xəstəliyi kimi sorulma pozğunluqları, bəzi mədə-bağırsaq əməliyyatları D vitamini çatışmazlığının əsas səbəbləridir. Qara ciyər və böyrək xəstəlikləri, yaşlanma ilə əlaqədar D vitamini sintezinin azalması, epilepsiya əleyhinə dərmanların, kortikosteroidlərin və bəzi digər preparatların, eyni zamanda, əlavələrin qeyri-müntəzəm və ya düzgün qaydada qəbul edilməməsi, maqnezium çatmazlığını qeyd etmək olar.

Mütəxəssis vurğulayır ki, maqnezium D vitamininin aktivləşməsi üçün vacib mineraldır. Balqabaq tumu, badam, ispanaq, mərcimək, noxud, banan və avokado maqneziumla zəngin qidalar sırasındadır.

Bəs müayinələr zamanı D vitamininin çatışmazlığı aşkar edilərsə, nə etmək lazımdır?



Professorun sözlərinə görə, D vitamini çatışmazlığı aşkar edildikdə, ilk növbədə, onun səbəbi müəyyənləşdirilməlidir. Müalicə hər kəs üçün eyni olmur və yaş, bədən çəkisi, xroniki xəstəliklər, istifadə olunan dərmanlar və s. amillər nəzərə alınaraq fərdi şəkildə planlaşdırılır.

Bəzi hallarda gündəlik aşağı dozalar kifayət etdiyi halda, ağır çatışmazlıq zamanı həkim nəzarəti altında yüksək dozalı müalicə tətbiq oluna bilər. Mütəxəssis xəbərdarlıq edir ki, D vitamininin nəzarətsiz və yüksək dozada qəbulu böyrək daşları, qanda kalsiumun artması və böyrək zədələnməsi kimi ciddi fəsadlara səbəb ola bilər.

D vitaminini gündəlik qəbul etdiyimiz qidalarla da qazanmaq olur. Qızıl balıq, skumbriya, sardina və tuna kimi yağlı balıqlar; yumurta sarısı; qara ciyər; tam yağlı süd və süd məhsulları; D vitamini ilə zənginləşdirilmiş süd və səhər yeməyi məhsulları; bəzi göbələk növləri D vitamini ilə zəngindir.

Endokrinoloqlar bildirirlər ki, qidalar D vitamini artmasına kömək etsə də, əksər hallarda gündəlik tələbatı tam qarşılamır. Buna görə də balanslı qidalanma, kifayət qədər günəş şüası və zərurət olduqda həkim nəzarəti altında qəbul edilən əlavələr D vitamini səviyyəsinin qorunmasının ən etibarlı yolları hesab olunur.

***Hazırladı:***
***Zərifə BƏŞİRQIZI***
***XQ***

## *HAVA*

## Yağmursuz, buludlu cümə...



**Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraiti dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək. Mülayim cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 20-23, gündüz 26-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 16-21, gündüz 28-33, dağlarda gecə 10-15, gündüz 19-24 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

## "Azinşaat Servis" ASC səhmdarlarının nəzərinə!

19 oktyabr 2026-cı il saat 11.00-da "Azinşaat Servis" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin direktorlar (müşahidə) şurasının sədrinin və üzvlərinin seçilməsi.
**2.** Cəmiyyətin nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsinin müzakirəsi və təsdiqi.
**3.** 2025-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
**4.** Digər məsələlər.

Yığıncaqda bütün səhmdarların şəxsiyyətlərini təsdiq edən sənədlə iştirakları vacibdir.

**Ünvan**: Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, 4-cü Köndələn küçəsi 1.

***Sədr F.M.Vəliyev.***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov və Hacı Qüdrət Piriyev Azərbaycan Tibb Universitetinin kafedra müdiri, professor İbadulla Ağayevə bacısı

**KƏMALƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**DİREKTOR – BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**Ü N V A N I M I Z:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 2722**
**SİFARİŞ 1127**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Mirbağır YAQUBZADƏ**
**Çapa imzalanmışdır 00:00**